**Emil AĞAYEV**

# ÜRƏYİN ATƏŞİ
## *və ya Azərbaycan nədir*

***Esse***

12689

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Azərnəşr – 2013

ББК 45.2.2
E-56

*Tərcümə edəni Südabə Ağabalayeva*

E-56 **Emil Ağayev. Ürəyin atəşi və ya Azərbaycan nədir (esse).**
Azərnəşr, Bakı, 2013, 100 səh.

Bu kitab öz təbiəti, tarixi və mədəniyyət zənginlikləri ilə secilən Azərbaycandan kənarda dünyaya gəlmiş bir azərbaycanlının öz atasının vətənini özü üçün kəşf etməsi və artıq onun da vətəninə çevrilməsindən bəhs edir.

Geniş oxuyucu kütləsi üçün nəzərdə tutulmuşdur

**4502020000 / M – 651(07)2013 qrifli nəşr**

© Emil Ağayev, 2013

**Mixail Lomonosov** özünün "Yer qatları haqqında" əsərində "torpağın səthinə çıxan Bakı alovu" haqqında yazır ki, "sakinlərin xeyrinə xidmət edən gizli atəş heyrət doğurmaya bilməz".

**Jül Vern**: "desəm ki, Bakı atəşpərəstlər[1] şəhəridir, yəqin ki, onda bu şəhər haqqında təsəvvür yaranar".

**Aleksandr Düma-ata**: "...Xəzər mənim yeni dostum oldu ...Mənə yalnız onun fırtına və tufanları barədə danışmışdılar. O isə, əksinə, məni təbəssümlə qarşıladı... Bakı özünün bütün gözəlliyi ilə qarşımızda açılmışdı. Bizə elə gəlirdi ki, biz göydən enmişik".

**Vladimir Mayakovski**: "Mən Bakıdan daha yaxşı şəhər tanımıram. Onda məxsusi nəsə var ki, adamı cəlb edir və heç vaxt da unudulmur ".

**Vladimit Komarov**[2]: "Can Azərbaycan", -xalq mahnısında əziz Azərbaycan haqqında, bu gözəl ölkə barədə məhəbbətlə belə deyilir. Azərbaycan bundan sonra da inkişaf etməlidir və incəliyinə qədər öyrənilməlidir. Onun hər daşı tədqiq edilməlidir".

**Fyodor Şalyapin**: "Mən iki dəfə doğulmuşam. Birinci dəfə Volqa sahilində yaşamaqçün bu dünyaya gəlmişəm, ikinci dəfə - özümü musiqiyə həsr etməkçün Qafqazda "[3]"

[1] Zərdüştiliyə sitayiş edənlərin adlarından biri

[2] Akademik, görkəmli, botanik, coğrafiyaçı və səyyah. Az.SSR EA-nın prezidenti olub

[3] Bu böyük müğənni dəfələr Bakıda oxuyub. Bakı qəzetlərindən birinin yazdığına görə hətta yerli xorda.

**Ceyms Oldric**: "Azərbaycanlılar biliklərə meylli olmaları ilə fərqlənirlər ".

**Tadeuş Svyatoxovski**: "Yaxın və Orta Şərqin digər ölkələri ilə müqayisədə, Azərbaycan ən yüksək savadlılar ölkəsidir", Azərbaycanın gələcəyinə mən nikbin baxıram ".

**Monserrat Kabalye**[4]: "Mən bütün bakılılara təşəkkürümü bildirirəm. Etiraf edim ki, sizin belə mülayim və isti şəhərinizin olduğunu zənn etmirdim. Burada hər şeydə və demək olar, hər bir bakılının simasında səmimiyyət var".

**Vladimir Vinokur**[5]: "Dünyada üç özünəməxsus "cərəyan" var: parislilər, odessalılar və bakılılar".

**Mstislav Rostropoviç**: "Mənim atam da, anam da Azərbaycanı sevirdi. Azərbaycana sevgi mənə irsən keçib".

**Marqaret Tetçer**: "Azərbaycanda hər şey çox xoşuma gəldi. Bu xalq çox gözəl xalqdır, onun böyük imkanları var...".

[4] Dahi opera müğənnisi
[5] Populyar estrada artisti



## *MÜƏLLİFDƏN*

***Bəri başdan deyim ki, bu qeydlərim fərdi xarakter daşıyır. Onları uzun illər bundan öncə, məktəbli bir oğlanın atasının vətəninə ilk qədəm basdığı gündən bəri Azərbaycanı və azərbaycanlıları öyrənmək cəhdi; bu vətəni Özünün Vətəni hiss etmək səyləri kimi qəbul etmək daha düzgün olardı.***

***Ola bilsin, kimsə mənimlə razılaşmasın ki, bugünkü qloballaşan dünyada millət, millilik anlayışları əzəli aktuallığını itirir. Kimsə də, əksinə, dünyanın və özgürlüyün xilasının məhz bunda olduğunu düşünür (yaxud mənim kimi ona nail olmaqda, onu əldə etməkdə).***

***Cavab verirəm. Birinci arqument ikincini inkar etmir, əksinə, onu qüvvətləndirir. Təbiətdə olduğu kimi, istənilən təhlükə təhdid, özünüqoruma instinktini fəallaşdırır.***

***..."Drujba narodov" jurnalından "Millət və dünya" layihəsi çərçivəsində azərbaycanlıları təmsil etmək mənə təklif olunanda dərhal razılıq verdim. Bir xeyli düşündüm, materiallar topladım, axırda da məlum oldu ki, sən demə bundan çətin heç nə yox imiş! Bu çətinlik o vaxtacan sürdü ki, mən, nəhayət, dərk etdim: Azərbaycan hər şeyin bir-birinə qarışdığı və hər şeyin bir-birində kəsişdiyi xüsusi mikroaləmdir. Və mən bu layihədə tarixçi, etnoqraf olmayan, bu torpaqda doğulmayan (hərçənd ki, bütün şüurlu həyatı ilə ona bağlı olan) bir insan, Azərbaycan haqqında deyil, ümumilikdə Öz Azərbaycanım barədə yazmalıyam.***

*Yəni özüm, ölkəni şəxsən tanıdığım və öyrəndiyim ölkəmin insanları, oxuduqlarım, şəxsi müşahidələrim və konkret faktlar (non-fiction) əsasında yazmalıyam.*

***Başqa sözlə, bu yazı ondan bəhs edir ki, mən necə azərbaycanlı oldum və indi mən azərbaycanlıları necə təsəvvür edirəm.***



# Birinci hissə

# DƏDƏMIZ QORQUD

## I.

"Biz tarixə təbiətən meyilliyik; real hadisələrdən başqa, əfsanələri də sevirik" - Azərbaycan elmi tarixçiliyinin əsasını qoymuş Abbasqulu Ağa Bakıxanovun "Gülüstani-Irəm" əsəri bu sözlərlə başlayır.

Dəqiq deyilib. Çünki bu mütəfəkkir alimin sonralar yazdığı kimi, "heç bir salnamə, rəvayət və abidə bizə Qafqazdakı tarixi hadisələri bütün dolğunluğu ilə göstərə bilməz. Müxtəlif tayfaların Qafqaz dağ silsilələri və keçidləri boyunca apardıqları aramsız müharibələr onu sürətlə boşalmağa məruz qoydu. Bu müharibələr, demək olar ki, bütün tarixi faktları məhv etdi... „

Bir gün atamdan xahiş etdim ki, nəsil xəttimizi sadalasın. O isə,yalnız öz ulu babasının və ulu nənəsinin adını xatırlaya bildi, onu da çox çətinliklə. Ancaq, əgər azərbaycanlılardan hər biri öz nəslinin mənşəyini bilmirsə, el arasında deyildiyi kimi, yeddi arxa dönənini tanımırsa, bəs onda "ONLARIN HAMISI"nın əslən haradan olduğunu, qədim türklərin özlərindən başqa, kim biləcək?!

Bəli, əgər etnosu birləşdirən amilə - onun dilinə - onda çoxdan ötüb keçmiş hadisələrin və məişətinin əlamətlərinin izləri olan mənbə kimi baxılarsa, onda azərbaycanlılar üçün, 1300 illiyi keçən əsrin sonlarında qeyd edilmiş "Kitabi - Dədə Qorqud" oğuz dastanının məhz belə bir mənbə olması şübhəsizdir.

Bu, ümumtürk dastanıdır. Lakin türk alimi Məhəmməd Erginin yazdığı kimi, "Kitabi - Dədə Qorqud" "bütövlükdə Azərbaycanın yaradıcılığıdır", çünki onun hər sətri "bizi Azərbaycan türkcəsi ilə üzləşdirir". Və həm də təkcə dili ilə yox, həyatı, məişəyi, ayinləri və adətləri, nəhayət, Azərbaycanın ilkin orta əsrlər coğrafiyası ilə.

XIV əsrdə yaşamış Əbu Bəkr dastanın qəhrəmanı Bayandur xanın fəth etdiyi ölkələrin adını sadalayaraq əlavə edir: "...o özü isə, qışlağa Qarabağa, yaylağa Göyçə dənizinə gedirdi". Dastanda Bərdənin də, Gəncənin də, Naxçıvan ərazisindəki Əlincə qalasının da, müasir Azərbaycanın digər yerlərinin adları da xatırlanır.

Görkəmli şərqşünas Riçard Frey yazırdı ki, türklər əsrlər boyu İranda yaşamışlar, İranı öz vətənləri, İran tarixini öz tarixləri hesab edirmişlər. Belə ki, fars dilinin ilk izahlı lüğətini azərbaycanlı şair Qətran Təbrizi yazıb. Fars dilinin onun doğma dili olmadığını isə, Təbrizinin müasirləri ona bəzi çətin sözlərin izahı üçün müraciət edərkən, "yaxşı şeirlər yazdığını, fars dilini isə, yaxşı bilmədiyini" yazaraq sübut ediblər.

"Azərbaycanlılar gülərüzdürlər, alyanaqdılar, dərilərinin rəngi açıqdır. Onlar başqalarının başa düşmədikləri azəriyyə ("azəri" - E.A) dilində danışırlar", - XIII əsr coğrafiyaşünası Yaqut əl - Həməvi belə yazır.

Bu qədim dil mənbələrin birində "zəbani-türki", yəni türk dili adlanır; görünür, əvvəl fars dilinin, daha sonra Sibirdən türk, türk-oğuz tayfalarının bu torpağa gəlməsi ilə bağlı olaraq, müəyyən təsirə məruz qalmışdır.

Ancaq bəzi müəlliflər azərbaycanlıların (türklərin) ulu babalarının Sibirdən yox - əksinə, qərbə və şərqə, elə Sibirin



özünə köçüb, orada yurd saldıqlarını və beləliklə, yerli tayfaları yaratdıqlarını yazırlar, yəni Altay türk dilləri ailəsinin köklərini Azərbaycanda axtarmaq lazımdır.

Nə demək olar, hər şey mümkündür. Axı Azərbaycanın tarixi fenomeni çox mürəkkəbdır.

Burada bir çox etnosların, həmçinin azərbaycanlıların ilkin məskəni olan Qafqaz var, burada həm də onların başqa əzəli vətəni - Araz çayının o biri düzü var. Burada azərbaycanlılara təsir etməmiş və azərbaycanlıların özlərinin təsir etdikləri başqa mədəniyyətlər var. Burada qədim zamanlarda Rusiyanın cənubundakı çöllərdən gələn və *yerli* aborigenlərin əsasən qoyun otaran qədim İran tayfalarını adlandırdıqları kimi, "çoban mədəniyyəti də, ərəb-islam mədəniyyəti də, rus mədəniyyəti də, onun vasitəsilə Qərb mədəniyyəti də var idi... Bir sözlə, xeyli müxtəlif mədəniyyət var idi!

Maraqlıdır ki, müxtəlif məna çalarları ilə zəngin olan Azərbaycan dilində "yad" sözü iki mənada işlənir:

- tanış olmayan, özgə;
- yaddaş.

Bu bir təsadüfdürmü? Ola bilər. Amma dərindən fikirləşsək, görərik ki, özgə bizim özümüzünkü hesab etmədiyimiz, başqa sözlə, özümüzünkü kimi xatırlaya bilmədiyimizdir. Eyni zamanda, yaddaş gələcəkdə tanınmanın, ÖZÜNÜN davamının təməlinə səpilən toxumdur.

Bəli, tarix minilliklər ərzində Azərbaycan ətrafında "mədəniyyətlərin rəqsini" oynayıb, zaman-zaman ona Şimaldan, Cənubdan, Qərbdən tuşlanmış müdaxilə oxları sancıb; Şərqdən Azərbaycanı Xəzərin "su xəndəyi" qoruyub, Qafqaz dağları isə, onu yadların bu və ya digər dərəcədə yuyub aparmasından qorunmağına kömək edib.

Ümumilikdə, Azərbaycanda üç böyük – türk, fars və Qafqaz sivilizasiyası görüşüb.

(Bəzi elmi dairələrdə, məsələn, Qafqaz strateji Araşdırmalar İnstitutunda "üç Qafqaz" konsepsiyasına istinad olunur. Bunlar:

- Şimali Qafqaz
- Mərkəzi Qafqaz – Azərbaycan, Ermənistan və Gürcüstan
- Cənubi Qafqaz – İran, Türkiyədir.

Hadisələrin tarixən cildlənməsini nəzərə alsaq, bu, geniş, bir çox münasibətlərdə ÜMUMİ region ideyası maraqlıdır!).

*ARXEOLOJİ HAŞİYƏ*

*Bir dəfə yazıçı Fərman Kərimzadə ilə birlikdə udinlər yaşayan kənddə olduq. Udinlər hələ eramıza qədər Qafqaz Albaniyası tayfalarının ittifaqına daxil olan, Qafqazın ən qədim sakinlərindəndirlər. Bu kənddən sonra biz Azərbaycan ərazisində mövcud olmuş bu dövlətin paytaxtı - Qəbələ yaxınlığındakı xarabalıqlara baş çəkdik[6]. Alimlərimiz uzun müddət ölkənin islamdan sonrakı tarixi ilə məhdudlaşaraq bu qədim dövlətin tarixi ilə məşğul olmayıblar, amma əbəs yerə! Bu yaxınlarda burada qazıntılar aparılıb və nə qədər tapıntı aşkar edilib!*

*Biz Fərmanla qədim divarların və özüllərin qalıqları arasında çox dolaşdıq, arxeoloqların gözündən qaçmış, unutduqları və ya qiymətli hesab etmədikləri bir sıra*

[6] Bakıxanov güman edirdi ki, Albaniya öz adını «azad» sözündən götürüb: Albus,Albi «ağ» deməkdir, bizans imperatoru Konstantin Porfirodnı öz əsərlərində yazırdı ki, ağ sözü «azad, heç kəs tərəfindən fəth edilməmiş» deməkdir. Eynilə rus tarixçisi M.T.Kaçenovski Ağ Rusiya (Belarus) adının mənbəyini də belə izah edir ki, o, Batı tərəfindən fəth oluna bilməyib



*əşyalardan bir xeyli topladıq. Şəxsən mən saxsı qırıqları arasından ya su, ya da fənər yağı (neft) üçün nəzərdə tutulan və demək olar, tamamilə salamat qalmış bir neçə bardaq tapdım.*

*Tapdıqlarımı evə gətirdim, həmin qalıqları təzə aldığımız divarboyu mebelin rəflərinə düzməyi qərara aldım. Bardaqların palçığını yumaq üçün onları su ilə dolu vedrəyə saldıq. Və birdən sirli xışıltı, çatlama, hətta cingilti eşidildi.*

*- Gör ha, tarixin səsidir! – mənə kömək edən kiçik oğlum təəccübləndi. – Çox güman ki, su qabın məsamələrini belə doldurur!*

*- Harda oxumusan?*

*- Heç yerdə ... Mənə elə gəlir !*

*Yüz illər boyu dağların ətəyində toz təbəqəsi altında qalmış bardağın, necə olub ki, bir qətrə də nəmişliyi qalmayıb?*

*Və bu anda ağlıma başqa fikir gəldi: əslində, bu gün oğlum Mənsur ilk dəfə həmin sözləri səsləndirdi: "Mən belə düşünürəm". Tarix, əlbəttə, təxəyyülü oyadır, düşünməyə vadar edir ...*

*Vedrədəki saxsılar bu müddətdə artıq sakitləşmişdi. Yalnız suyun üzündə qabarcıqlar əmələ gəlmişdi.*

*- X əsrin havası.Təsəvvür edirsən, min il bundan əvvəl adamlar bu hava ilə nəfəs alıb, - deyə oğluma dəm tutdum.*

Bəli, Azərbaycan tarixən də, coğrafi baxımdan da böyükdür, mədəniyyəti qədim və zəngindir. Azərbaycanlılar isə, yalnız Azərbaycan ərazisində deyil, həm də Qafqazın (Dağıstanda, Gürcüstanda, yaxın vaxtlara qədər Ermənistanda) böyük hissəsində, Xəzərin o tayında, Türkiyədə, İraqda, hələ farslardan sonra ikinci, bəzi məlumatlara görə, sayca onlardan üstün olan İranı demirəm - azərbaycanlılardan çoxdur.

Dini mənsubiyyəti (islam) və dil (türk) amilləri üzündən Azərbaycan bütün Yaxın Şərqin, Asiyanın tarixinə qonşularından daha geniş şəkildə daxil olub.

Yaxşı yadımdadır, Rəsul Rza İraq səfərindən qayıdanda Kərkükdə yaşayan türkmanların[7] dili və poeziyasının Azərbaycan dili və poeziyası ilə son dərəcə yaxın olmasından heyrətlənmişdi, deyirdi ki, onların bəzi mahnıları "qarabaği" adlanan ahəng üzərində ifa olunurdu; Azərbaycan əsilli, konkret olaraq "Bayat" tayfasından olan Füzulinin ulu babaları olublar. (Bayat qalası indiki Ağcabədi rayonunun ərazisində yerləşmiş Qarabağ xanlığının ilkin mərkəzi olub)

Görünür, dil əvvəl müxtəlif cinsli olsa da, yenə də ümumtürk xarakteri daşıyıb. Ancaq Anadolu türkləri ilə "ayrıldıqdan " və Osmanlı dövləti yarandıqdan sonra Azərbaycan dili, başqa türk xalqlarının dilləri kimi, sərbəst dilə çevrilib.

"Tatar dilini öyrənməyə başladım (Rusiya imperiyasında azərbaycanlıları "Qafqaz tatarları" adlandırırdılar – E.A.), burada, ümumilikdə Asiyada bu dil Avropada fransız dili kimi vacibdir", - Qafqazda, eləcə də Azərbaycanda olmuş M. Y. Lermontovun bu sözləri yaxşı məlumdur.

"...Demək olar, bütün Dağıstanda türk-tatar dili beynəlmiləl dil hesab edilir", - bunu isə, yarım əsr əvvəl alim K.F.Qan yazırdı.

***

[7] Məşhur rus folklorçusu və etnoqrafı B.N.Putilov onları "türkmanlar" adlandırmış və "İraq və ya Kərkük azərbaycanlıları" hesab etmişdi



Əsrlərin dərinliyinə gedən tayfaların və xalqların tarixinin bu "kəsişməsi" xalqları "qədim aborigenlərə" və ya "gəlmələrə" bölən əfsanəni tamamilə təkzib edir. Bu əfsanə öz tarixinə qapanmış kiçik ("çox qədim") etnoslar tərəfindən yaradılıb və tamamilə mənasızdır. Axı, yer üzündə, ümumiyyətlə, "gəlmə olmayanlar" yoxdur. Bəs Amazon cəngəlliklərində və ya ekstremal Şimalda itib-batmış vəhşi tayfalar necə olsun?!

Azərbaycanlılar "aborigen" və "gəlmə"lərin bir-birində əriyərək və əridərək, miqrasiya, köçürülmələrlə üzvi surətdə birləşə bilməyin aşkar və ən yaxşı sübutudur.

İsland saqalarında "aslar" xatırladılır. Qədim skandinavlar həm Tanrılarının, həm də onların tarixi ilə bağlı hansısa sirli xalqın adını çəkirlər. Hetlər bu xalqı "asiya" adlandırırlar. Nəhayət, "azlar" Qədim türk lüğətində də xatırladılır. Daha əvvəllər isə, "Gültəkinin şərəfinə böyük yazıda" yada salınır. Bu barədə milliyyətcə udin olan dilçi həm də tarixçi Voroşil Qukasyan məşhur Orxon -Yenisey yazılarını nəzərdə tutaraq yazmışdır.

Daha bir maraqlı kəşf. Qazax şairi və Asiya tədqiqatçısı Oljas Süleymenov qədim lüğətlərdən birində tapıb ki, çinlilər "alban" sözünü "azebayjen" kimi tələffüz ediblər. Süleymenovun fikrincə, cənubda yaranmış Azərbaycanın adının onun şimal hissəsinə, Albaniyaya keçirilməsinin izahı sadədir: çinlilər eyni anlayışın qədim türk oxunuşunu saxlayıblar!

Oljas yazır: "Azərbaycan xalqı öz ənənələrində və mədəniyyətində Avrasiyanın və onun Qafqaz regionunun tarixinin bütün rəngarəngliyini və çoxsəsliliyini ifadə edib. Sadə azərbaycanlıların nitqinə qulaq asdıqca, mən 6 min il əvvəl Dəclə və Fərat vadilərindəki şəhər və kəndlərdə səsləndirilən sözləri eşidirəm".

(Ümumilikdə isə, bir çox qədim etnosların adları eyni etnosun və ya topluların müxtəlif mənbələrdəki adlarıdır və ya eynilə Qafqaz Albaniyasında olduğu kimi, hətta, tayfa ittifaqına birləşdirilmiş müxtəlif dilli xalqların adıdır. Mirəli Seyidovun fikrincə, saklar müasir Şəki şəhəri, Arsak – Arsax[8] kimi coğrafi adlarda özləri ilə bağlı yaddaş qoyublar).

***

Belə bir fikir mövcuddur ki, "Kitabi-Dədə Qorqud"un müəllifi təxminən VII - VIII əsrlərdə yaşayıb, yəni Məhəmməd (s.s.s.) peyğəmbərin müasiridir. Və dastanın yayılması islamın yayılması ilə eyni dövrə təsadüf edir. Ola bilsin ki, səma tanrısı ifadəsi Göy Tanrıya sitayiş edən türklərin yeni dinə qarşı müqavimət cəhdi ilə izah edilir. Bu zaman öz tarixinə və məişətinə, öz qəhrəmanlarının şücaətinə müraciət etmək daha yaxşıdır. Lakin sonralar, oğuz türklərinin islamı qəbul etməsindən sonra dastanda Allahın adı xatırlanır və həm də süjetlərində kafirə verilən cəzadan danışılır.

Digər mənbələrə görə, oğuzların Qafqazda məskunlaşması islamın yaranmasından yeddi əsr əvvələ təsadüf edir, o zamana ki, "İsa, Allah ona rəhmət eləsin, səmaya ucaldı" (XVI əsr türk tarixçisi: "Tarixin xəbərləri").

İstənilən halda, yalnız azərbaycanlıların islamaqədərki əcdadları həm bütpərəst, həm atəşpərəst, həm buddist, həm də xristian olublar. VII əsrin əvvəllərində yaşamış yunan müəllifi Feofilakt Simokattanın xəbər verdiyi kimi "türklər odu hər şeydən üstün tuturlar, havaya və suya sitayiş edirlər, torpağa mahnı qoşurlar, yalnız Göyü və Torpağı yaradana və

[8] V.Miller yazır ki, bir çox müəlliflərin sak adlandırdıqları skif çarları türkdilli olublar



Allah adlandırdıqlarına pərəstiş edirlər". Yəni xristianlığı yaxud islamı qəbul edənədək onlar monoteist olublar.

Alban tarixçisi Musa Kalankatlı Şəki yaxınlığında Kiş kilsəsini "Şərq kilsələrinin anası" adlandırıb. Norveç alimlərinin apardıqları qazıntılar sübut edib ki, bu kilsə I əsrdə tikilib, yəni, dünyadakı ilk kilsələrdən biridir! Bu alban kilsəsi son illərdə bərpa edilib, kilsənin yanında muzey də yaradılıb.

Bundan əvvəl isə, azərbaycanlıların bütün əcdadları (digər xalqlar kimi) təbiətə sitayiş edirdilər. Müqəddəs yerlərə sitayiş kultu bizim günlərə qədər gəlib çatıb. Bu, ağac da, daş da, hər hansı bir əşya da ola bilərdi.

Lakin həmin yerlər (pirlər) daha çox hansısa konkret möcüzə yaradanın adı ilə bağlı olurdu.

Bu qəbildən çox məşhur ziyarətgahlardan biri mənim bağımın yaxınlığında, Abşeronun Şüvəlan qəsəbəsində yerləşir və maraqlıdır ki, o, bizim dövrümüzdə yaşamış şəxsin adı ilə bağlıdır. Və indi, bu sətirləri yazdığım zaman pəncərədən onun məzarı üzərində tikilmiş nəhəng məqbərənin minarələrinin minası üzərində bərq vuran günəşin parlaq şəfəqlərini və ziyarətgaha axışan dindarları, ənənələrə sadiq sadə insanları görürəm.

*MƏNƏVİ HAŞİYƏ*

*"...Uşaqlıqda mən tez-tez avtomobillərin qabaq şüşələrində bir şəkil görürdüm; əynində tünd rəngli pencək, başında qaragül papaq, stulda oturub, kürəyini də söykənəcəyə söykəmiş arıq bir kişinin şəklini. Evimizdəki komodun üstündəki şəklin eyni idi, mən anamdan onun kimliyini soruşdum. "Bu, müqəddəs adamdır, oğlum, çox ağır Seyiddir*

*(Məhəmməd peyğəmbərin nəslindən olanlara seyid deyirlər – E.A.) cəddinə qurban olduğumu hamı sevir və hörmət edir", – anam şəkli öpüb yerinə qoydu.*

*Sonralar bildim ki, Seyid Mir Mövsüm Ağa uşaqlıqda mərkəzi sinir sisteminin iflici xəstəliyinə tutulub və hərəkətdən qalıb. O, son dərəcə azdanışan, mehriban və son dərəcə səxavətli şəxs olub. Ona görə də, təkcə qohumları və yaxınlarının deyil, həm də bütün bakılıların sevimlisi olan Seyidin qulluğunda durmağı hər kəs şərəf və böyük savab bilib.*

*Onun İçərişəhərdəki evi ziyarətə gələnlərlə dolu olardı, hər kəs də gücü çatandan, qulpundan çıxandan, bu ocağa nəzir gətirərdi, qapıların dəstəklərinə örpək, parça və pal – paltar bağlardılar. Seyidə o qədər inanırdılar ki, onun süfrəsindən bir tikə qənd, bir parça çörək götürüb dadanın niyyəti, arzusu hökmən yerinə yetirdi.*

*Heydər Əliyevin xatirələrinə görə, 1943-cü ildə onun ailəsi çox böyük bir çətinliklərlə üzləşmişdi. 20 yaşlı Heydəri anası Bakıya Seyidi ziyarət etməyə və ondan kömək istəməyə göndərir. Gənc Heydər Əliyev o zaman Naxçıvanın dövlət təhlükəsizlyi komitəsində çalışırdı. Gecə-gündüz DTK nəzarətində olduğundan, o, Seyidin evinə getmək üçün hiyləyə əl atmalı olub. Hər halda, duaları qəbul olunub (Şair Valeh Rzayevin məqaləsindən).*

***

Müasir azərbaycanlıların formalaşmasında islam amilinin rolu danılmazdır.

Quranı və islam mədəniyyətini bilmədən Nizami Gəncəvinin, Füzulinin, Nəsiminin yaradıcılığını sonadək dərk etmək mümkün deyil. Yeri gəlmişkən, Nəsimi ortodoksal islamı qəbul etmirdi, bu məşhur sətirlər də ona məxsusdur: "Məndə sığar iki cahan, mən bu cahana sığmazam"; o, hürufiliyin eretik cərəyanına inanırdı; Suriyanın Hələb şəhərində dəhşətli edama məhkum edilmiş, dərisi soyulmuşdu.



Mən hələ onu demirəm ki, islamı bilmədən azərbaycanlıların psixologiyasını, - eynilə XIX sonu və XX əsrin əvvəllərində Avropaya yönəlmiş milli elitanın maarifçilik fəaliyyəti nəticəsində azalan, sovetləşmədən və dini təqiblərdən sonra "sırf məişətdə" saxlanılan bəzi adətlərini və baxışlarını, savadsız mollaların təsiri altında formalaşmış mənfi və qərəzli rəylərdən xəbərdar olmadan - dərk etmək olmaz.

*EPİSTOLYAR HAŞİYƏ*

*"Milad bayramın mübarək, oğlum! Səni elə - belə deyil, "xaç suyuna salinmış" adam kimi (burada ona görə dırnaq işarəsi qoyuram ki, onda mən çağa olmuşam!) təbrik edirəm.Yadındadır, mən sənə demişdim, doğulduğum Çimkənddə, bir gün ata - anam işdə olanda, ev işlərində anama kömək edən dindar qadın məni "basurmançılıqdan" xilas etmək üçün evdə xaç suyuna salma mərasimi təşkil edir. Anam danışır ki, hətta mərasimə dinin təqib olunduğu illərdə Orta Asiyaya sürgün edilmiş leninqradlı rahibələri də dəvət edibmiş... Anam evə çatanda görür ki, camaat evimizin qabağına yığışıb, dua eləyir, açıq pəncərədən də tüstü qalxır. Bu, büxurun tüstüsü imiş (artıq məni müqəddəs suya salmağa və Yemelyan adlandırmağa imkan tapmışdılar!). Anamsa elə bilib ki,,evdə yangın var ...*

*Atan Emil -Yemelyan – Emin (azərbaycanlılara uyğun ad, bəzən məni belə də çağırırlar – E.A.). Səni bağrıma basıram".*

12689

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bu məktubu hazırda Moskvada yaşayan ( bu yaxınlarda faciəli surətdə həlak olmuş – red.) böyük oğluma yazmışdım. Oğlum martın 20-də anadan olduğundan, adını Novruz qoymuşdum. Bu bayram bütün türk-müsəlman dünyasınada qeyd olunur (Azərbaycanın təşəbbüsü ilə YUNESKO Novruzu beynəlxalq bayram elan edib). Bu bayrama mən hələ qayıdacağam. Oğlum qrıjadan əməliyyat olunanda mən həm də sünnət etdirdim (bunu "xaç suyuna salınmama" mənim cavabım da hesab etmək olar!).

Mənim hər iki nənəm – həm ana tərəfdən, həm də ata tərəfdən - mömin olub. Biri çar dövründə ailəsi Qazaxıstana sürgün edilmiş, Poltavşinadan olan ukraynalı, o biri də Abşeronun Türkan kəndindən olan azərbaycanlı. Biri xristian, biri müsəlman. Biri Boqa, digəri Allaha inanırdı. Düşünürəm ki, məndə bu iki dünyagörüşü rəmzi olaraq birləşir; Yer üzündə bütün insanları yaradan Allah birdir!

Mən hətta nə vaxtsa belə fərziyyə ilə inqilabi ruhda bir esse də yazmışdım. Yazmışdım ki, nə vaxtsa, gələcəkdə Azərbaycan müsəlman dünyasında ilk bikonfessional (islam-xristian) ölkə ola bilər! Burada bir tərəfdən, islamın hər iki məzhəbinin – həm şiəliyin, həm də sünniliyin təmsil olunması, eləcə də bizim müsəlmanlar arasında Quranı yaxşı bilən, müasir düşüncəli cavanların olduğu nəzərə alınırdı. Digər tərəfdən isə, qeyd etdiyim kimi, Azərbaycanda, bu ərazidə nə vaxtsa mövcud olmuş xristianlığın inkişafı da mümkündür (ölkənin Qərblə güclənən əlaqələri nəticəsində ingilis dilinin geniş yayılması, gənclərin xarici ölkələrdə təhsil alması və s.). Məncə, bunun ehtimalı çox azdır. Çünki nəzərə almaq lazımdır ki, Avropanın özündə xristianlıq çətin dövrünü yaşayır. Lakin ideya mənə gözəl görünmüşdü (hərçənd mən bunun ənənələrin parçalanması və s. kimi mənfi nəticələrinin olacağını da qeyd etmişdim).



***

Və nəhayət, üçüncü; Azərbaycanın - dildən və dini etiqaddan sonra - etnik dominantı. Bu, şübhəsiz ki, Rusiyaya birləşmədir. Düzəlişlərlə - istisna- larla: Azərbaycanın Araz çayı vasitəsilə ikiyə bölünməsi: gələcək təhlükəsi haqqında hələ A. Qriboyedovun yazıb xəbərdar etdiyi məsələ - İrandan ermənilərin köçürülməsi, nəhayət, hər iki imperiya- əvvəlcə Rusiyanın, daha sonralar isə sovet imperiyasının qeyri - rəsmi ruslaşdırma siyasəti istisna olmaqla.

"Müsavat" partiyasının lideri və cəmi 23 ay yaşamış Azərbaycan Demokratik Respublikasının liderlərindən olmuş Məmməd Əmin Rəsulzadə yazırdı: "Rusiyanın işğalının Azərbaycan üçün müsbət məqamları da oldu, onlardan biri Azərbaycan türklərinin özlərinin sosial təzahür, mədəni ənənələri olan cəmiyyət kimi hiss etmələri, bir sözlə, onların hansı millət olduqlarını dərk etmələri idi". Yaxud başqa bir yerdə: "Azərbaycan ruslar vasitəsilə Avropa elminə və texnikasına qoşulmaqla tədricən Şərq doqmatizmi və mistisizmi yolundan azad olaraq inkişafın yeni yoluna qədəm qoydu, çiçəkləndi və tərəqqi etdi". Və nəhayət, çox incə bir məqam: "Biz RUSLARDAN ÖZ FƏRQİMİZİ hiss etdik" və - "bizi fars adlandırmağı tərgitdilər" (seçdirmə bizimdir – E.A.). Azərbaycanlılar türklərlə və farslarla (daha sonra müsəlmanlarla) AYRILMAZLIĞINI, onların bu ümumi etnik-dini subsistemlər içərisində "tikilməsi"ni nəzərə alaraq, onlar özlərini AYRICA xalq hesab etmirlər!

"Tarixən payımıza düşən üçadlılığa sevinmək lazımdır: dil (türk), din (müsəlman) və ümumbəşəri (azərbaycanlılar)". Bu üçadlılıq Azərbaycanın dövlət bayrağının üç rəngində də qeyd olunub: göy – türkçülüyün, yaşıl - islamın, qırmızı -- müasir dünyanın rəmzidir" (yazıçı Çingiz Hüseynov). Bu

üçlük ilk dəfə ötən əsrin əvvəllərində azərbaycanlı publisist və siyasi xadim Əli bəy Hüseynzadə tərəfindən səsləndirilib.

Mənə həmişə çox maraqlı gəlib: Azərbaycan atalar sözləri və məsəlləri arasında mollalara, bəylərə, şahlara bir qədər tənqidi münasibət olub, ancaq heç bir rus çarının ünvanına belə münasibətə rast gəlinmir. Bəlkə, qadağaların təsirindəndir?! Ancaq mən azərbaycanlıların "hakimiyyətdən qorxduqlarını" şişirtmək istəməzdim. Bir də, unutmayaq ki, elin ağzını bağlamaq olmur.

Azərbaycanlıların haqlı olaraq milli qəhrəman hesab etdikləri Cavad xanın başçılığı altında gəncəlilərin şücaətinə rəğmən, ruslar Gəncəni işğal edə bildilər və az sonra şəhərin adı dəyişdirilərək Yelizavetpol qoyuldu. Bu zaman şəhəri köhnə adı ilə çağıran hər kəsə bir rubl gümüş miqdarında cərimə təyin edildi. Lakin qadağadan dərhal sonra – elə ertəsi gün camaat şəhər idarəsi qarşısında növbəyə düzüldü. İçəri girənlər bir - bir "Gəncə!" deyir və sonra dinməzcə rus məmurunun masasının üstünə bir rubl qoyurdu!

Görkəmli publisist Əhməd bəy Ağayev məqalələrindən birində rus ziyalılarının azərbaycanlılar haqqında fikirlərini vermişdi: "Təbiəti, idealları, başqa xalqların maraqlarıyla, düşüncədə və tərbiyədə elmi üsullarla tanışlıq hər bir xalqda ləng, amma ən radikal çevriliş edir. Çünki mən sizin xalqınızı tanıyıram, onun öyrənmək həvəsinə, onun istedadına bələdəm" ("Kaspi" qəzeti).

Bu proses, çox güman ki, yüksələn xətlə getsəydi, yəqin ki, bolşevik çevrilişi baş verməzdi. "Xalqlar həbsxanası" adlandırılan Rusiya imperiyasının cəngindən çıxan azərbaycanlılar yenidən "zindan"a düşməzdilər.

Stalin hələ 1904-cü ildə yazırdı: "Heç bir milli ruh mövcud deyil və mövcud ola bilməz". Və parçalanmış



skeletin hissələrini yığa bilməyib biabır olan bir "müdrik anatom" haqqında rəvayəti xatırladaraq belə bir nəticəyə gəlirdi: "Milli məsələ bitdi! Bizim partiyamız onu ayrı- ayrı hissələrə parçaladı, onun həyat şirəsini çəkib çıxardı və öz proqramının damarlarına axıtdı ...".

Şərhə ehtiyac varmı?

*COĞRAFİ HAŞİYƏ*

*Sənədlərimin arasında bir məktub var. Onu nə vaxt aldığım da dəqiq yadımdadır. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin bədii özfəaliyyət kollektivinin tərkibində Gənclərin və Tələbələrin Ümumdünya Moskva festivalında iştirak etmişdim və bu məktubu da festivaldan bir az sonra almışdam. Mən onu bu gün də qəribə hisslərlə, bir az təəccüb, bir az təəssüflə oxuyuram:*

*"Salam, cənab Ağayev. Bizdə - Sovet İttifaqında adamlar yaxşı yaşayır, uşaqlar pulsuz təhsil alır və özlərini yaxşı aparırlar. Bəs sizin ölkənizdə uşaqlar necə yaşayır?"*

*Əvvəl heç nə başa düşmədim, uzunsov zərfi bir də gözdən keçirdim, kağıza söz yox, xarici korrespondensiya üçün nəzərdə tutulduğu aydın görünür. Soyadım, ünvanım dübbədüz yazılıb Bir azdan yadıma düşdü ki, Moskva məktəblərinin birində bizim ansamblın çıxışından sonra mən orada öz koordinatlarımı qoymuşam (xalqların epistolyar dostluğuna eşq olsun!) və budur, "uzaqdan" xəbər gəlib!. Yəqin bu məktubu yazan kəs məni adımdan avropalı bilib. Bir az sonra məni fikir götürdü; yaxşı, tutaq ki, bu, uşaq coğrafiyanı pis bilir, bu fəndən də "iki" alır.. Bəs, axı, məktubu yəqin ki, böyüklər, müəllimlər oxuyub! (daha doğrusu, təşkil edib, o vaxt başqa cür yox, məhz belə edirdilər!) Deməli, belə ...*

*Əlbəttə, tələbəlik illərimdən bəri çox şey dəyişib. Lakin, heyhat ...Bir çox illər sonra mən Moskvada hansısa bir növbəyə duranda: "Haradansız?" sualına: "Zaqafqaziyadan" cavabını verəndə adətən eşidirdim: "Aha, gürcüsüz!", başımı bulayıb "yox" deyəndə qayıdırdılar ki, onda, deməli, ermənisiz.*

*Yaxşı, onlar adi adamlardır. Bəs, elmə xalqların qruplaşması prinsipini gətirmiş məşhur alim V.P Alekseyevin fikrinə nə deyirsiz? O, xalqları "etnogenetik dəstə" adlandırırdı. Belə ki, "Zaqafqaziya qolu"nu təqdim edərkən yazır: "Söhbət gürcülərdən və ermənilərdən gedir. Onların antropoloji qohumluğu danılmazdır" - qısa və aydın (hərçənd, gürcülərin və ermənilərin özlərinin, habelə antropoloq alimlərin bununla razılaşacağına şübhə edirəm). Azərbaycanlılara gəldikdə, onlar bu təsnifat üzrə "Kiçik Asiya qoluna" aid edilirlər. Sitat gətirirəm: "XI-XIII əsrlərdə türkləşmə baş verdi və türklər adı altında müasir dövrümüzə qədər gəlib çatan yeni etnik birlik yarandı"...*

Bəli, XIX əsrdə Rusiyanın Qafqaza artan marağı, bir tərəfdən, burada yaşayan xristianlarda – gürcülər və ermənilərdə bir – birinə sevgi və qarşılıqlı meyl hisslərini gücləndirir, digər tərəfdən, döyüşkən dağlılara, bütövlükdə müsəlmanlara qarşı mübarizəni genişləndirir. Azərbaycanlılar (I Pyotrun dövründə "farslar", daha sonra "Qafqaz tatarları", sonra "türklər") burada öz inkişafında vəhşi dağlılardan uzağa gedən, lakin pravoslav qonşularının səviyyəsinə çata bilməyən, çətin anlaşılan yarıdost-yarıdüşmən rolundaydılar. Bir növ, Şimali Qafqazın cənubunda yaxud Xəzərin o biri üzündə - Orta Asiyada ada, o da baxır necə bir ada. Başqa sözlə, qeyri-müstəqil, aydın olmayan, anlaşılmayan rol ...



Onlarda doğrudan da öz tarixlərinə və məskunlaşmalarına uyğun olaraq ən müxtəlif xüsusiyyətlər cəmləşib - sanki yuxulu, amma lazım gələndə dağlıların dağıdıcı cəngavərliyi, düzənlik sakinlərinin ürəyiyumşaqlığı, təhlükəyə və təbiət hadisələrinə kortəbii tabe olmağa hazır sahilyanı əhalinin xüsusiyyətləri birləşir.

## II.

...Kimsə deyib ki, əgər almanlar öz çatızmazlıqlarını da sevirlərsə, azərbaycanlılar hətta öz ləyaqətlərinə görə özlərini sevmirlər. Əlbəttə, bu, aşkar şişirtmədir, amma... Amma...

Bir dəfə dostum usta Zaurdan soruşdum ki, azərbaycanlıların başlıca çatışmazlığı nədir, o dərhal dedi: "Yada pərəstiş, özünə təpik". Tanış sürücü Eldarın cavabı isə "təvazökarlıq" oldu.

Jurnalist Çingiz Sultansoysa, "milli natamamlıq kompleksi" barədə düşünəndə azərbaycanlıları italiyalılarla müqayisə edir. Bu zaman o "Çörək və şokolad" filmini xatırlyır. Həmin filmdə qəhrəman özünün italyan mənşəyindən "utanır" və hətta özünü bəxtigir isveçrəliyə oxşatmaq üçün saçını rəngləyir. Lakin filmin sonunda italiyalı futbolçular isveçrəlilərə qalib gələndə, o sevincini gizlədə bilmir!

Yaxud türkəsayaq sözünün özü (kökündə türk sözü var) nə deməkdir? Məncə o, sadəlövh sözünə yaxındır, yəni "sadədil", "sadəlövh adam"!

Azərbaycanlılar, həqiqətən, sadədirlər və hiyləgər deyillər. Son dərəcə sadədil, tez inanan, çox vaxt da hətta sadəlövhdürlər.

Başqasının köməyinə gəlmək, özgəni xilas etmək; qonaq qəbul etməkdə heç kəs azərbaycanlılarla müqayisə oluna bilməz. Di gəl, özlərini xilas etmək, qorumaq lazım gələndə

azərbaycanlılar köməksizdirlər, xəncərə cəsarətlə üstünlük versələr də, silahlı düşmənin üzərinə düşünmədən, boş əllə atılmağa və ölümü qəbul etməyə hazırdırlar. Öləncün bir müddət yas saxlayarlar, sonra yenidən əvvəlki həyata qayıdırlar. Dağlılardan fərqli olaraq, uzun müddət kin saxlamağı, amansızcasına qisas almağı bacarmırlar.

Azərbaycanlılar özlərində böyük mənada etiraz etmək, vuruşmaq potensialını əridə bilir, çox nadir hallarda - tarixin dönüş anlarında, şəxsən təhqir olunduqda və ya ailəsi təhqir olunanda onlar "özlərindən çıxırlar". Həm də "özündən çıxanda" çox vaxt da özlərinə sərfəli, öz xeyirlərinə hərəkət etmirlər ki, bunun da öz tarixi səbəbləri var.

"Gürcülərə və ermənilərə əlahiddəlik imkanı verilib, amma bizdə, azərbaycanlılarda bunu közərmiş dəmirlə yandırırdılar!" (Ç.Sultansoy). Təsirli deyilib, amma doğrudur. Farsların da, ərəblərin də dövründə belə olub. Çar hakimiyyəti (görünür, türklərin hərbi keçmişini nəzərə alaraq təkrar sığortalanmaq məqsədilə) hətta azərbaycanlıları orduya çağırmırdı.

Bəs nəticə? – hər şey yuxarıda deyilib...

Ötən əsrin əvvəllərində yaşamış publisist Hüseyn Minasazovdan bir sitat gətirmək istəyirəm: "Zaqafqaziyanın şərq hissəsində tatarlar (azərbaycanlılar – E.A) və ermənilər bir-birlərinə elə qarışıblar ki, heç bir sərhəd, federasiya və muxtariyyət onları coğrafi baxımdan ayıra bilməz... Düşünmək belə gülməlidir ki, Çin səddi dövrü qayıdır. Dünya öz inkişafının böyük dövrünü yaşayır, bundan sonra hüdudlar silinəcək, birgə əməyin, ticarətin, sevincin, əzabların ümumiliyi xalqların gələcək mövcudluğunun başlıca stimulu olacaq ... Əgər Qafqazın gələcəyini üzərində "Gürcüstan", "Ermənistan", "Azərbaycan" yazıları olan və hər üç xalqın "prinsip etibarilə" müstəqil yaşayıb fəaliyyət göstərməli



olduğu ayrı-ayrı futlyarlar kimi təsəvvür etsək də, Şamaxı ermənisinin öz doğma yurdunu ataraq, deyək ki, Eçmiədzinə köçəcəyi, yaxud Yerevandan tatarın, tutaq ki, Yelizavetpolun (Gəncə nəzərdə tutulur - E.A.) xeyrinə öz doğma torpaqlarından imtina edəcəyi ağlabatan deyil...İki qardaş xalq arasında heç nə düşmənçilik yaratmamalıdır və yarada bilməz, millətlərarası qırğın ideologiyası isə, öz cinayətkar fəaliyyətinə görə yalnız zülmətə və kütlələrin nadanlığına bel bağlaya bilər. Lakin onlar unudurlar ki, 12 il əvvəl baş verənlər (1905-ci il erməni-azərbaycanlı qarşıdurmaları nəzərdə tutulur – E.A.) həmişəlik keçib getdi".

Əfsuslar!

*PUBLİSİSTİK HAŞİYƏ*

***Bu isə, milli sadəlövhlüyün estafeti kimi, oxuduğumuz sətirlərin müəllifinin 1987-ci ilin dekabrında SSRİ Yazıçılar İttifaqının Oçerk və Publisistika üzrə Şurasının plenumunda çıxışıdır:***

*"...Kiyevdən olan həmkarımız çıxış edərək burada milli nihilizmdən danışdı. Milli məsələ bu gün həqiqətən də kəskin xarakter alıb. Həm də söhbət, belə deyək, təkcə şovinizm və ya millətçilikdən deyil, hansısa "millətlərarası", millətçilik istiqamətindən gedir. Deyək ki, bütün Bakı indi bir məsələdən danışır ki, akademik Aqambekyan Parisdə olarkən bildirib ki, yaxşı olardı Dağlıq Qarabağ Ermənistana verilsin, çünki bu, guya məqsədəuyğun olardı. Mütəxəssis olmaq, bu məsələlərdə məlumatlı adam olmağa qəti ehtiyac yoxdur, sadəcə, xəritəyə yaxınlaşmaq kifayətdir.*

*Kiçik Qafqaz dağlarını təsəvvürünüzə gətirin. Bu tərəfdə Qarabağ, düzən yerlər, dağətəyi ərazilər bütünlüklə Azərbaycana yönəldilib, tarixən də, iqtisadi cəhətdən – yollarla, qaz magistralları, enerji yolları və s. ilə onunla*

*bağlıdır. Başqa tərəfdə – dağ silsilələri, zirvələrdən sonra Ermənistan gəlir. Yaxşı, burada hansı məqsədəuyğunluqdan danışmaq olar?! Dağlar, çaylar hər yerdə inzibati sərhədlərin keçdiyi təbii sərhəddir. Təkrar edirəm: hər yerdə belədir, hətta müxtəlif dövlətlər arasında da. Biz ki bir dövlətdəyik!*

*Ümumiyyətlə, biz bir-birimizi yaxşı tanımırıq. Bir-birimizə az qonaq gedirik, bir-birimizi başa düşə bilmirik və üstəlik, bunu istəmirik ....Bizi çox şey, o cümlədən, ümumi problemlər birləşdirir. Kür problemi var, meşələrlə bağlı problem var, dağ kəndləri ilə bağlı problem var. Ümumi problemlər hamıya bəs edir. Biz publisistlər bu sahəni hər vasitə ilə aktivləşdirməliyik, mən onu "dostluğun ekologiyası adlandırardım".*

*Burada mənə göndərilən stenoqramın mətni kəsilir. Yadımdadır, məndən sonra Şuranın sədri Yuri Çerniçenko çıxışıma görə mənə təşəkkür etdi və belə dedi: "Bilirsinizmi, təşəbbüs misilsizdir. Ona görə də ..." və Zaqafqaziya publisistlərinin birgə aksiyaları ideyasını işləyib hazırlamağı və bunu plana daxil etməyi təklif etdi. Bununla da hər şey bitdi. Yadımdadır ki, mən dərhal hər üç respublikanın publisistlərinin səfərlərinin nəticəsi olaraq oçerklər kitabının nəşr olunmasını təklif etmişdim. Birlikdə aramızdakı sərhədləri gəzmək (sərhədyanı rayonlar, şəhərlər və kəndlər üzrə) – OLMAYAN SƏRHƏDLƏRİ (!) gəzmək – niyyət belə idi.*

*Qəribə təsadüf! Həyat bizi qabaqladı. Belə çıxır ki, sərhədlər var imiş, özü də kefin istəyən sərhədlər!!!*

...Yalnız ötən əsrin sonlarında, 1918-ci il mart hadisələrindən 80 il sonra çoxlu sayda sənədlərin sübut etdiyi, erməni daşnakları tərəfindən Azərbaycanın müsəlman əhalisinə qarşı törədilmiş kütləvi zorakılıqlar, talanlar və



qətllərlə bağlı olaraq, Azərbaycanlıların Soyqırımı Günü dövlət səviyyəsində elan edildi. Və yalnız ona görə yox ki, sovet tarixçiliyində "antisovet üsyanının" yatırılması kimi qələmə verilmiş bu dəhşətli cinayətlər ört-basdır edilmişdi. Yenə də "dəvə kini"nin nə olduğunu bilməyən azərbaycanlıların təbiəti özünü göstərmişdi.

İki xalqın arasında nə baş verməsindən asılı olmayaraq, azərbaycanlılar heç vaxt kin saxlamayıblar. Bir müddət sonra onların ermənilərə münasibəti əvvəlki məcrasına qayıdıb, onları hətta kirvə kimi "kiçik toya" dəvət ediblər. Kirvə - ailənin ən əziz adamı, ən yaxın dostu deməkdir. Budur, Qarabağ böhranının ən qızğın çağında alınmış bir müsahibədən fraqment -"istəyirəm ki, ermənilərdə hər şey yaxşı olsun, onda onlar bizimlə döyüşməzlər!" Müsahibin deməyinə görə, bu, onun altı yaşlı qızının, azərbaycanlı qızının atasına bildirdiyi arzusu idi!

Ramiz Abutalıbov bu sətirlərin müəllifinə bir dəfə belə bir əhvalat danışmışdı: Uşaqlıqda, məhəllə uşaqlarının davasında erməni oğlanı döymək istəyəndə, Ramizin savadsız nənəsi onu tənbeh edir və belə deyir: "Erməniləri döymək olmaz, a bala. Onların padşahı olmayib! ("yazıqların öz dövlətləri olmayıb" mənasında). Bu savadsız nənənin sözündəki həqiqəti tarix də təsdiq edir!..

Lakin ermənilərin (sadə ermənilərin) özlərinin bu cəhətdən kompleksləri yox idi.

Harri Kasparovun "Trend Life"a müsahibəsindən: "Babam Şagen Mosesoviçin üç qızı var idi, mənim anam olan böyük qızı yəhudiyə, ortancılı erməniyə, kiçiyi isə azərbaycanlıya ərə getdi..."

Azərbaycanda da çox məşhur olan, sevilən Armen Cigərxanyan Qarabağ separatçılarını pisləyərək deyir: "Mən

öz maşınında Azərbaycan muğamı oxutmayan erməni təsəvvüvr edə bilmirəm!" (Day.Az agentliyi)

...XIX əsr. Şuşa. Sonuncu Qarabağ xanının nəvəsi, şairə Xurşudbanu Natəvanın çəkdirdiyi su kəməri (xalq arasında "Xan qızının bulağı" deyilir ) şəhərin ermənilər yaşayan hissəsinə qədər uzanır və onun yalnız bir hissəsi Xan sarayına ayrılır. Öz növbəsində, tacir Tatevos Tomirovun çəkdirdiyi ikinci su kəmərinin üçdə iki hissəsi azərbaycanlıların məhəllələrinə və yalnız bir hissəsi erməni məhəlləsinə gedir. Niyəsinə erməni belə cavab vermişdi ki, azərbaycanlılar mənim daimi müştərilərimdir, dükanımdan da daha çox və tez-tez onlar mal alırlar!

Millətçilikdən, praqmatiklikdən uzaq, əsl insani yanaşma. Biz indi onu belə adlandırardıq.

Və bir daha Şuşa haqqında. Şuşadan Azərbaycanın bir çox görkəmli yazıçıları, mədəniyyət xadimləri, xanəndələr, müğənnilər – Bülbüldən tutmuş Rəşid Behbudovacan - çıxıb. Nə üçün bu unikal səslər məhz burada doğulub? Bir mütəxəssisin - lorinqoloqun dediyi kimi, belə səs tellərinin yaranmasına Şuşanın təmiz havası, rütubətin olmaması kömək edib.

*MUSİQİLİ HAŞİYƏ*

*Çox adam Toğrul Nərimanbəyovun gözəl vokal səsi olduğunu bilmir. Rəssamdan soruşanda ki, niyə muğam oxumur, belə cavab verir: "Bacarmıram. Oxumağa başlayıram və ... məni ağlamaq tutur!"*

*Mən də muğami ağlaya-ağlaya dinləmişəm. Bu, Universiteti bitirdikdən sonra Azərbaycanı daha yaxından tanımaq, öyrənmək, azərbaycancamı inkişaf etdirmək üçün kənddə müəllim işləyəndə olub.*

*İlk məvacibimə bir radioqəbuledici almışdım və hər bazar günü azərbaycanlılar üçün müqəddəs olan saatda – "muğam saatı"nda oturub adət etmədiyim bu musiqini dinləyir, onu dərk etməyə çalışırdım. Əvvəl xoşuma gəlməkdən daha çox bir qədər təəccübləndirirdi, hətta açığını deyim, darıxdırırdı da. İki - üç ay belə davam etdi. Buna baxmayaraq, hər bazar günü mənə tanış olmayan musiqi aləminə "baş vururdum". Bir dəfə qəflətən hiss etdim ki, bədənimə istilik yayılır, boğazımı qəhər yandırır. Hətta gözüm doldu! Bu, o qədər gözlənilməz oldu ki, əvvəl qorxdum. Lakin sonra məmnunluq, rahatlıq hissi gəldi. Bir-iki həftə sonra isə, artıq hiss edirdim ki, bu musiqidən həzz alıram!*

*Əlbəttə, başqa xalqlar da başqa, sadələşdirilmiş formalarda muğamı (yaxud muğama bənzər nəsə) ifa edirlər. Lakin Azərbaycan muğamı, şübhəsiz ki, janrın tacı, çələngidir; bəzi xırdalıqları, onları "zəngulə" adlandırırlar, azərbaycanlılardan başqa heç kim vura bilməz.*

*Azərbaycan dili kimi, bütün Cənubi Qafqaza yayılan muğam və aşıq (xalq) musiqisi (məşhur erməni aşığı Sayat Nova mahnılarının əksəriyyətini azərbaycanca qoşub!) nə vaxtsa bir-birinə yaxın olub. Ayrılma sonradan baş verib. Aşıq sanki öz sazı ilə açıq səma altında qalıb, xanəndə, muğam ifaçısı isə, qapalı məkana - evə keçib (bunu günəşi və rütubəti sevməyən tarın dərisi də tələb edib).*

*Nəhayət, muğam ruhani nəğmədir (namaza çağırışı - azanı dinləmək kifayətdir!). YUNESKO-nun sifarişi ilə dünya musiqisinin əsası, mənəvi əcdadı kimi muğam haqqında film çəkilib. Təsadüfi deyil ki, Bülbül öz ibtidai musiqi təhsilini Şuşada mərsiyəxanların yanında almışdı.*

Bəli, Azərbaycanda oxumağı sevirlər və bunu bacarırlar. Ən müxtəlif hadisə və səbəblərlə bağlı oxuyurlar. Əslən Cənubi Azərbaycandan olan şair Söhrab Tahir mənə sovet hakimiyyəti illərində həmvətənlərimizin Arazboyu yaşayış məntəqələrində o taydakı doğmaları ilə ünsiyyət yaratmağın orijinal bir yolunu tapdıqlarından danışmışdı. Onlar çayın qırağına gəlir və oxumağa başlayırdılar: mahnılarının sözləri isə.. kənd xəbərləri olurdu; filankəsin inəyi doğub, filankəs dünyasını dəyişib, Allah ona rəhmət eləsin, peşmənkəs nişanlanıb, bu yaxınlarda toyu olacaq ...Əsasən rus olan sərhədçilər isə onların nə oxuduqlarına əhəmiyyət vermirdilər – insan oxumaq istəyir, nə olar, qoy oxusun...

Belə. Şuşa, muğam, mahnı, dost erməni - "kirvə"...

Və qəflətən, başımıza bir qazan qaynar su ələndi sanki; azərbaycanlılar Ermənistandakı doğma yurd - yuvalarından, eləcə də Qarabağdan qovulması, Xocalı soyqırımı (Telereportyor Çingiz Mustafayevin Xocalı qətlində dəhşətli vəziyyətlərdə donub qalmış, eybəcər hala salınmış uşaq, qadın, qoca cəsədlərini çəkərkən hönkür - hönkür ağlaması gözümün qabağından getmir!). Və bütün bunlar XX əsrin sonlarında baş verirdi!

***

"...Azərbaycan, Azərbaycan!". Səməd Vurğunun məşhur şerinin hər bəndinin son misrası...Belə bir fikir də var ki, şair bununla Azərbaycanın iki hissəyə bölünməsinə işarə edirdi. Lakin xatırlayıram ki, kimsə keçmiş Lenin sarayındakı təntənəli iclas zamanı istehza ilə və bir az da acıqla demişdi ki, bu, sovet rəhbərlərinə ölkənin adının "Adirbijan", "Adırbıjan" və Azebardjan" yox, düzgün tələffüzünü izah etmək cəhdidir. Əgər Brejnevə bunu nitq qüsuru kimi bağışlamaq olardısa, başqa Baş katiblərə Allah özü bu zəngin



və əhəmiyyətli ölkənin ( bir zamanlar onu "Şərqin qapısı" adlandırırdılar) adını düzgün tələffüz etməyi əmr etdi.

Amma kaş ki, iş təkcə tələffüzdə olaydı!

Azneft – sağmal inəkdir,
Daha gəlirlisi yoxdur -
Aciz, sakit,
Kim istəyir, o da sağır.

Qızıl Ordunun Azərbaycan Demokratik Respublikasının axırına çıxmasından, nəhayət, Bakı mədənlərinin soyuqdan donan Qırmızı Rusiyanın əlinə keçməsindən sonra proletar şairi Demyan Bednı belə yazırdı.

Hətta "gül bumu" da bu münasibəti dəyişməyə kömək etmədi. O zaman bazarlarda və Moskva metrosunun stansiyaları yanında mənim həmvətənlərim olan gənc oğlanlar yoldan keçənləri belə səsləyirdilər: "Ay qız, sən hələ bax, gör bir necə qərənfillərdir, bəh-bəh! Ey, gedirsən? Yaxşı, özün gülsən, gülü neyləyirsən!"

Və qəribə təsadüf. Bu güllərə bir çox bakılılar kimi mən də "Qara yanvar"dan - hələ sovet respublikası olan ölkənin paytaxtına sovet qoşunlarının, düşmən Berlini aldıqları kimi, hücum çəkməsindən sonra baxa bilmədim. Silahsız adamlara qarşı hücumun ertəsi günü al qana boyanmış küçələrə al qırmızı qərənfillər səpilmişdi. Həmin zəhlətökən bazar adamları və zahirən çox da vətənpərvər görünməyən satıcılar istixanalarda min bir əziyyətlə yetişdirdikləri bu qərənfilləri, silahlı əsgərlərə fikir vermədən, hələ qan izləri yuyulmamış hər yerə - asfaltın üzərinə, evlərin divarlarına, tanklarla əzilmiş avtomobillərə qoyurdular!

...Bəli, bizi tanımırdılar. Elə indi də o qədər də yaxşı tanımırlar.

*YUMORİSTİK HAŞİYƏ*

*Bakı aeroportunda "Welcome to Azercell" reklamını görən sərnişin təəccüblə fikirləşir ki, deyəsən, başqa bir ölkəyə gəlib?!*

*Yalnız Azərbaycanda Şaxta Baba hamının gözü qarşısında Qar qızla mazaqlaşa bilər.*

*Yalnız Azərbaycanda dilənçi sədəqədən narazı qalanda onu qaytara bilər (Day.az portalı).*

*Budur, lətifələr:*

***Kədərli***

*Ənənəvi "Haralısan?" sualına qaçqın uşağı belə cavab verə bilər: "Mən? Mən çadırda doğulmuşam!". Həqiqətən də, onun doğum şəhadətnaməsində belə yazılıb: "Azərbaycan Respublikası, deyək ki, Biləsuvar rayonu, Üçüncü çadır şəhərciyi..."*

*(Doğrudur, Azərbaycanda artıq çadır şəhərcikləri yoxdur, qaçqınlar yeni evlərə yerləşdiriliblər, lakin mənzil hüququ olmadan!... Qarabağ probleminin həllindən sonra qaçqınlar doğma yurdlarına qayıtmalıdırlar).*

***Məişət***

*Ata uşağı ilə bazarlığa gedir. Uşaq "Nəsimi bazarı" yazısını görüb soruşur:*

*- Ata, şair Nəsiminin dərisini burada soyublar?*

*- Yox, oğlum. Burada bizim, alıcıların dərisini soyurlar!*

***"Seksual"***

*Bakıya gələn bir əcnəbidən şəhərlə bağlı təəssüratını soruşurlar. Qonaq cavab verir ki, başqa sahələr haqqında bir söz deyə bilməsə də, Azərbaycanın seks sahəsində irəlilədiyini dəqiq söyləyə bilər. Təəccüblənmiş həmsöhbətinin nəyi nəzərdə tutması barədə sualına qonaq belə cavab verir ki, o, yolların kənarlında "Sexi" elanları görür.*

*Əcnəbilər bu sözün azərbaycanca "sex" demək olduğunun bilmirlər. İngiliscə isə, bu söz "seksual" mənasını daşıyır!*



***

Bir nəfərdən soruşurlar: "Nə qədər qazanırsan?" - O cavab verir: "Üç manat". "Bəs nə qədər xərcləyirsən?". "Bir manat özümə saxlayıram, ikincisini –aldığım borca qaytarıram, üçüncüsünü borc verirəm. Axı, mənim valideynlərim və uşaqlarım var".

Türk sözü olan "ocaq" bir vaxtlar bu sözün müasir anlamında deyil, həm də ailə, soy mənasında işlənib. Türklər öz qaldıqları yeri də oda adlandırırlar ki, onun da "od", atəş sözü ilə həmahəng olması təsadüfi deyil!

Bəli, burada oda təkcə sitayiş etmirlər, həm də onu "ram edirlər"[9]. Hətta qədim zamanlarda qohumları evdə, ocağın yaxınlığında dəfn edirdilər. Həm də küplərə qoyurdular, arxeoloqlar belə məzarları "küp" qəbirlər adlandırırlar. İslam bunu qadağan etdi (ruhu cin kimi küpdə həbs etmək olmaz!). Lakin mənə elə gəlir ki, bunun dərin mənası var: insan bu dünyadan o dünyaya gəldiyi "bətn" pozasında gedir.

(Yeri gəlmişkən, belə pozadan kosmonavtlar da istifadə edir – uçuş - eniş zamanı bu, əlavə yüklənməyə daha yaxşı dözməyə kömək edir).

[9] Evin qoruyanı kimi it, əhliləşdirilmiş canavar. Canavar qədim türklərin totemidir – "işıq" sözüylə assosiasiyası var (anavarı gecə işıq saçan gözlərinə görə tanımaq olar)

...Əvvəllər "İşlər necədir?" sualına belə cavab verirdim: "Sağam!". Bunu eşidən Maksud İbrahimbəyov özünəməxsus yumorla cavab verirdi: "Bu çox mühümdür!".

Bununla belə, olum - ölüm ( bu aralıqda toy pik nöqtədir), bir növ, azərbaycanlının fəlsəfəsini təşkil edir. Təbiətcə o, həyatsevərdir – rahat yuxu (yenə Maksudun zarafatı yadıma düşür : çarpayıya girəndə, əsas məsələ yanılmamaqdır!), oyanandan sonra - yaxşı dəmlənmiş pürrəngi çay, nahara - dolma və ya plov, üstəlik də, axşama toya dəvət olunubsansa, hesab etmək olar ki, gün əla keçib!

Əlbəttə, bir qədər şişirdirəm, heç də hamı özünə belə həyat tərzi seçə bilmir. Amma buna meyl – faktdır.

*MƏİŞƏT HAŞİYƏSİ*

*Əmim qızı Rəfiqəni uşaqlıqdan – Moldovanın Orgeyev şəhərindən Bakıya, atamın vətəninə köçəndən tanıyıram. Biz əvvəlcə onun atasının yəni mənim əmimin evində yaşadıq və dərhal da dost olduq və günümüz, demək olar ki, bir yerdə keçirdi. Dəcəlliklərimiz də birdi, məsələn, nənəm namaz qılanda onun başmaqlarını gizlədirdik... Əmim qızının çox gözəl olduğunu da onu görən kimi sezmişdim!*

*Sonra, atamın işiylə bağlı biz rayona getdik. Bakıya qayıdandan sonra ayrı yaşamağa başladıq. Ümumiyyətlə, bizi həm də fərqli mühitdə böyüməyimiz ayırırdı - mən rusdilli idim, Rəfiqə isə azərbaycancadilli idi. Məsələ yalnız dildə deyildi – Rəfiqə rusca da pis danışmırdı və biz bir-birimizi çox rahat başa düşürdük, ünsiyyətdə heç bir problemimiz yox idi. Məsələ həm də dilin arxasında nələrin durmasındadır – vərdişlərdə, təhsildə, tərbiyədə və əlbəttə, mədəniyyətdə. Bax, elə bu məqamlar bizdə müxtəlif əsaslara söykənirdi.*

*Onunla evlənəndən sonra mən bu vaxtacan adını eşidib üzünü görmədiyim xeyli qohumumu tanıdım. Və həyatı sanki daxildən müşahidə edərək, mən daim özüm üçün yeni nəsə aşkar edirdim.*

*Məsələn, xüsusi təmizkarlıq- namaza başlamazdan qabaq vacib dəstəmaz, (doğrudur, evdə yalnız nənəm namaz qılırdı), ayaqyoluna aftafa aparmaq, hər həftə hamama getmək mədəniyyəti*[10]. *Yaxud plovu əllə yemək; sonralar məşhur kulinar Tahir Əmiraslanovdan öyrəndim ki, belədə yeməyin dadını daha yaxşı hiss edirsən, üstəlik, o daha yaxşı həzm olunur.*

*Bir məişət detalı: günün istənilən vaxtı istənilən telefon söhbəti bu sualla başlayır: "Yatırsan?" Söhbətsə, ələlxüsus qadınların söhbəti adi məsələlərdir: filan vaxtda durdum, filan şey yedim, getdim (harasa), eşitdim ki... (kimdənsə nəsə)... Mən hələ ucadan danışmaq manerasından (bu mənə də aiddir!), toylardakı qulaqbatırıcı musiqidən və masalardakı hədsiz yemək bolluğundan danışmıram. Amma...*

*Düşünürəm ki, görəsən, burada uzaq keçmişin izləri varmı?*

*Köç. Yürüşlər. Sən at belindəsən (təkcə hərfi mənada yox, həm də məcazi mənada), ona görə də var gücünlə qışqıra, oxuya, sadəcə çığıra bilərsən – hər tərəf çöldür. Budur, gəlib çatmısan evə, adətkar tövrlə olandan – keçəndən, ordan – burdan danışa – danışa, Allah verəndən, qabağına qoyulandan yeyib–içib, əlhəmdülillah deyib, çəkilirsən süfrədən. Sonra da yatırsan!*

*Mən bu məişət xırdalıqlarını Türkandan (Abşeronun bu kəndinin adı özünü bildirir: "türk kəndi") çıxanların üzərində*

---

[10] Avropada hətta kralların çəlləkdə çimdikləri dövrdə Azərbaycanda hər məhəllənin öz hamamı olurdu; doğrudur, sonralar avropalılar bizi qabaqladılar (gündəlik duş, vanna, köynəklərin dəyişdirilməsi və başq.), bu da məişət mədəniyyətinni ümumi artımı, mənzillə daha yaxşı təmin olunma, ailələrin kiçik olması və s. ilə izah edilir

*apardığım müşahidələr əsasında sadalayıram. Atam əslən oralıdır.*

Ümumiyyətlə, azərbaycanlılar – heç nədə ölçü bilmirlər. Nə pul xərcləməkdə, nə yeməkdə, nə sevgidə (şəxsi həyatlarından daha çox mahnı və şeirlərdə danışırlar), nə dünyaya uşaq gətirməkdə. Hətta, səs tellərini qorumaqda da.

Haradasa oxumuşdum ki, qədim türklər silaha əl atmadan, bir nərə çəkməklə karvan dayandırırmışlar. Hələ onların mühafizəçiləri... qulaqlarını tutub yerə sərilirdilər. Mən həm də oxumuşdum ki, Sibirdə Ustyurt yaylasında qədim türklərin – aranların məskənlərinin izləri tapılıb, on kilometrlərlə uzanan bu izlər, quş uçuşu yüksəkliyindən baxanda, haranısa göstərən sirli işarələri xatırladır.Oxuyub düşünmüşdüm, bəlkə, aranların sürüləri qovub ovlamasından vəhşi qoyunların və atların əhlləşdirilməsi başlayıb?!... Uzaq əcdadlarımız heyvanları məhz belə - çığırtıyla qovmayıblarmı görən ?!

(Yeri gəlmişkən, rus dilindəki "ura" sözü türk mənşəlidir).

Deyirlər ki, rusun ürəyinə yol tapmaq istəyirsənsə, onunla birlikdə içki iç, ermənin ürəyinə yol tapmaq üçün de ki, sən də erməniseń, azərbaycanlının ürəyinə yol tapmaq istəyirsənsə, onu ailənin üzvü, qohumun, həmyerlin, heç olmazsa ümumi tanışın adlandır.

Salamlaşarkən, azərbaycanlı "işlər necədir?" yox, səsində "sağ ol, hər şey yaxşıdır" eşitmək arzusu hiss olunan təsdiqləyici intonasiya ilə "Evdə hər şey yaxşıdırmı?" soruşar. Xoş olmayan, pis bir şey haqqında danışmaq qəbul olunmur.

(Yadıma bizim TV-lərdə tok-şoularda efirə qoşulan tamaşaçıların şablon danışığı düşür; studiyadakıların ha-



mısını salamlayıram, siz çox gözəl görünürsüz...və s. və i. a; bu, şəxsən məni qıcıqlandırır – bütün dünyada hamının etdiyi kimi, dərhal öz sualını ver, işə keç mətləbə də, kimə deyirsən... yaman vərdişdir!).

Bizdə rituala, şablona, xücucilə diqqət verilir. Bəzən mən xəstələnəndə, özümü pis hiss edəyəndə bu barədə danışmamağa çalışıram. Yoxsa, qohum - əqraba, tanış - biliş gecədən keçənəcən zəng edir, hərə bir məsləhət verir: "Soyuqlamısan? Aspirin iç!". Əlbəttə, iş köməkdə deyil, diqqət, qayğı görmək, bunu hiss eləmək həmişə xoşdur və başlıcası, bu diqqət qarşılıqlı olanda ikiqat xoş olur!

Bu da var ki, hamıya münasibətdə nəzakətli olmağın arxasında laqeydlik də gizlənə bilər. İngilisin nəzakəti hamı ilə məsafə saxlamağa hesablıdır. Azərbaycanlılarda isə, əksinə, salamlaşmalarda və diqqətlə edilən bu mübadilədə şəxsən mən "eyni qəbilənin əlaməti"ni görürəm. Qarovul parolu kimi – ÖZÜNKÜYƏM!

*REGİONAL HAŞİYƏ*

*Bir dəfə dostum Toğrul Cuvarlı mənim azərbaycanca danışığımı eşidəndə belə dedi: "Bilirsənmi sənin nitqinin əsas çatışmazlığı nədir? Heç səhvlərində də deyil. Hiss olunmur ki, sən haralısan!".*

*HARALISAN? azərbaycanlıların milli xarakterinin başlıca fenomenlərindən biridir. Məhz xarakter, çünki, hər bir insan, milliyyətindən asılı olmayaraq, özündə "coğrafi mənşə" möhürünü daşıyır. Amma azərbaycanlıların (ümumiyyətlə türklərin) psixologiyasında onların əcdadlarının ÇOXTAYFALILIĞI, mənim fikrimcə, əks-səda kimi daha dərinə işləyir.*

*Regionçuluq, əlbəttə, pisdir, onunla mübarizə aparırlar. Amma məncə, bu mübarizədə regionçuluğun özündən istifadə etmək daha səmərəli olardı?! Aksenti həmyerlilərin birliyindən, yalnız "özününkülərə" dəstəkdən - yəni neqativdən - doğulduğum yerə sevgiyə, ÜMUMİYYƏTLƏ VƏTƏNİN başladığı "kiçik vətənə"- yəni pozitivə keçirmək olmazmı? Bir növ, Özün öz "çərçivələri"ni genişləndirirsən.*

*(Azərbaycan dilində ÖLKƏ sözü iki eyni mənanı daşıyır – həm diyar (region), həm də ölkə. Yəni, "diyar" anlayışı rus dilində olduğu kimi nə isə ayrıca, mərkəzdən ayrı olan bir məfhum kimi mövcud deyil!)*

*Məsələn, regionlar arasında öz mədəni-tarixi, arxeoloji və təbii abidələrinin ən yaxşı tədqiqi üçün yarışlar təşkil edirsən, öz diyarından turizm (idman, mədəni-sağlamlaşdırma və s.) başqa məqsədləri ilə daha səmərəli istifadə edirsən, yaşıllaşdırma və abadlıq işlərinə xüsusi diqqət verirsən və ya ölkəşünasların, kulinarların, məktəblilərin "Mənim diyarım" mövzusunda inşalarının müsabiqəsini keçirirsən - mən hələ ilk ağıla gələnləri sadalayıram...*

Bütövlükdə azərbaycanlıların özünəməxsusluğuna qayıdaraq qeyd etmək lazımdır ki, onlar ünsiyyətcil və təkrar edirəm ki, çox səxavətlidirlər. Qənaətcillik onların gözündə simicliklə eynidir (dəbdəbəli toy və yas mərasimlərini yada salaq). Rasionallıq, qənaətcillik azərbaycanlılar üçün xırdaçılıqla, hətta DAŞÜRƏKLİLİKLƏ qohumdur: yaxşı, öz balanın toyunda xərcləməyib haçan xərcləyəcəksən? Yaxud qohumuna əl tutmayacaqsansa, sən nə qohumsan?!

(Yeri gəlmişkən, subaylıq Quranda da, "Avesta"da da günah hesab edilir. Hətta evlənməyə macala tapmadan ölən – dünyasını tez dəyişən və ya həlak olan şəxsi son mənzilə toy musiqisinin sədaları ilə yola salmaq adəti mövcuddur!).



Və, əlbəttə, qonaqpərvərlik! Mən buna QONAQ KULTU deyərdim.

Uzun illər Qafqazda yaşamış və Azərbaycan dilini öyrənmiş rus yazıçısı Aleksandr Bestujev-Marlinski yazırdı: "Qonaqpərvərlik, səmimilik, uşaqlarla xoş rəftar və onlara daimi qayğı, diqqət – bir sözlə, ünsiyyətdə səmimilik və evdarlıq bu xalqa çox xasdır".

Bir cinayətkarı edam olunmağa gətirirlər. Cani xəlifəyə üzünü tutur: "Mənim səndən bir xahişim var. Əmr et, mənə bir içim su gətirsinlər". Xəlifə işarə eləyir, kişiyə su verirlər. Cani suyu içəndən sonra deyir: "Eşq olsun xəlifəyə, sən məni suya qonaq etdin. İndi isə daha bir lütf göstər. Məni burax. Məgər qonağı öldürərlər?!" Xəlifə cavabında deyir: "Mən səninlə öz qonağım kimi rəftar etdim. İndi isə qonaqpərvərlik adətinə əməl etmək sənin növbəndir, yəni heç vaxt mənə ziyan vurma, nənim dövlətimdə qoyulan qanunları pozma".

Bəli, azərbaycanlıların bəzi davranışları və hərəkətləri (bir-birini qonaq etməyə sərf etdikləri vaxt və pul, bir - birinin bəhsinə daha zəngin süfrə açmaq cəhdi), məsələn, qənaətcil almanları dəhşətə gətirərdi! Ümumiyyətlə, onlar "daha çox mənəvi həyata söykənirlər, bunu haradasa tənbəlliklə, haradasa gündəlik həyati işlərdə inadın yoxluğu ilə izah etmək olar", bu qədər tez-tez Allaha təvəkkül də buradandır – Allah qoysa, düzələr". Və yaxud işin alınmayanda – "neynək, deməli, qismət beləymiş" təsəllisi...

Ən başlıcası, amma, budur ki, artıq qeyd etdiyim kimi, onlar həyatsevərdirlər. "Beş günlük dünya" aforizmi də belə yaranıb. Bu da rus dilinə "bir dəfə yaşayırıq bu

dünyada" kimi tərcümə olunur (halbuki, söhbət "dünyanın beş günü haqqında" atalar məsəlindən gedir).

Əlbəttə, bunun öz çatışmazlıqları var və şəxsən mən belə deyimlərlə qətiyyən razı deyiləm! Lakin məsələyə bir qədər fəlsəfi yanaşılsa, bizim yaşadığımız hər an ("Dayan, an,, sən gözəlsən!") – bu, əslində, elə həyatın özüdür. Di gəl, bəzi adamlara və hətta xalqlara (o cümlədən, rus xalqına) xas tərki-dünyalıq, özünə qapanma – daim şübhə içində axına qoşulub getmə (nə olub? Nə olacaq?) yaxşı iş deyil, heç yaxşı deyil!

"Gəncəli müdrik", XIX əsrin filosof şairi Mirzə Şəfi Vazehin yazdığı kimi:

Kölgədə gizlədilmiş dünyanı dərk etmək istəyirsənsə,
Sən öz qəlbinə nəzər sal.
Yox, özünü dərk etmək istəyəcəksənsə,
Bax, özün öz qabağını tutma.

*(sətri tərcümədir)*

III.

Kimin sözüdür, bilmirəm, deyirlər, Azərbaycanı üç təhlükə hədələyir. Şimaldan araq, Cənubdan islam radikalizmi, Qərbdən Amerikanın kütlə mədəniyyəti. Hesab edirəm ki, bütün bunları birtəhər yoluna qoymaq mümkündür (hərçənd, araq və islam turşu və qələvi kimi bir-birlərini qarşılıqlı olaraq neytrallaşdırırsa, onda pop mədəniyyətlə daha çətin olacaq!).

Liberal ziyalı, filoloq və mən deyərdimki, həm də filosof Aydın Məmmədov yenidənqurma illərində "bizim şərqli düşüncəmizin ""nağılvariliyini" nəzərdə tutaraq, "millətin



düşüncə tərzini yenidən qurmağa" çağırırdı. Azərbaycan-rus ikidilliliyini itirməməyə səsləyirdi, o istəyirdi ki: "Azərbaycan dili də rus dili kimi inkişaf etsin. Çünki bu dil "poeziya dilidir". Amma bu gün o, iqtisadiyyat, diplomatiya, texniki informasiya dili olmalıdır"....

Filosof-publisist (o, özünü belə adlandırır) Murad Baykalın yazdığı kimi: "Məqsəd ən geniş kosmopolitizmi ən dərin vətənpərvərliklə birləşdirməkdir".

*SOSİAL HAŞİYƏ*

*Mən Bakının mərkəzində - Azadlıq meydanının yaxınlığında yaşayırdım və Qarabağla bağlı misli görünməmiş mitinqlər başlayan gündən meydana gedirdim. Bu gün də mən kütlə ilə deyil, xalqla həmin BİRLİYİ özümdə hiss edirəm... Bəlkə gurultulu səslənir, amma həqiqətən bunu hiss edirdim. Və bu hiss sovet bayramlarında tribunanın yanından keçən nümayişçilərin sıralarında keçirdiyim hissdən tamamilə fərqli bir duyğuydu.*

*SSRİ süqut edəndə mənim əlliyə yaxın yaşım var idi, gənc deyildim! Amma mənim (və təkcə mənim yox, elə hamının!) misli görünməmiş bir yüksəliş hissi varlığımı çuğlamışdı, möhtəşəm bir güc hiss edirdim daxilimdə... NƏSƏ qeyri-adi, naməlum bir hadisə ərəfəsindəydim elə bil.*

*Artıq 1993-cü ildə, yəni cəmi bir neçə il sonra, "Gəlin birləşək!" çağırışının mənasızlığından danışarkən, demokratik hərəkatın bir çox xadimləri öz nüfuzunu itirdiyi kimi, eləcə də, Vətənin müdafiəsi, milli şərəf və ədalət idealları öz qüvvəsini və gücünü itirdiyinə görə, sosioloq Əhməd Qəşəmoğlu yazırdı: "Qərb mədəniyyətinin təsiri altında formalaşan ziyalıların yüksək intellektual hissəsi, öz xalqından soyudu. Nəticədə biz hər il öz xalqımızın geniş*

*dünyagörüşünə malik çox qiymətli hissəni*[11] *itiririk, onların təcrübəsi bizi zənginləşdirə bilərdi!"*

*Əslində, bunun səbəbləri var idi. Yadımdadır, mən oğlumu onun xahişi ilə özümlə mitinqə aparanda, hansısa saqqallı, həyəcandan və yuxusuzluqdan gözləri qızarmış adamlar bizi saxlayır, pasportumuzu tələb edirdilər (görünür, ona görə ki, biz öz aramızda rusca danışırdıq). Amma cəmi bir neçə ay bundan əvvəl Xalq Cəbhəsinin liderlərindən biri olan İsa Qəmbərin dəvəti ilə onların təsis konfransına dəvət olunmuşdum, bundan başqa, İsa bəy məni toplantının məxfi keçirildiyi yerə şəxsən özü aparmışdı (yolda bir neçə dəfə taksi dəyişmişdik – təqiblə bağlı!).*

*Nə baş verirdi? Hər şey sadədir; Qarabağ müharibəsi təkcə ərazilərimizin bir hissəsinin itirlməsi ilə deyil, həm də, ola bilsin, heç də az olmayan daha bir itkiyə!- ölkənin qismən monoetnikləşməsinə gətirib çıxardı.*

*Xoşbəxtlikdən, - QİSMƏN (Ermənistanda olduğu kimi yox).*

*Ənənələr güclüdür!*

***

Rüstəm İbrahimbəyov nə vaxtsa demişdi: "Türkiyə coğrafi baxımdan Avropaya, bizim Rusiyaya olduğumuzdan daha yaxındır. Monqol-tatar zülmünün olmadığı birgə slavyan - türk dövlətinin mövcud olduğu Rusiya, kiçik qərb hissəsinə və daha böyük Asiya hissəsinə bölünür .... Amma Türkiyə və Rusiya arasında yerləşmiş Azərbaycanda qarışıq mentalitet mövcuddur və bir çox münasibətlərdə biz onlara nümunə olmalıyıq!".

[11] Rusdilli azərbaycanlılar nəzərdə tutulur



Və zarafatla əlavə etmişdi: "Həftənin üç gününü avropalı, üç gününü asiyalı oluruq, yerdə qalan bir günü isə, oturub fikirləşirik ki, hansı yaxşıdır?".

*MİLLİ HAŞİYƏ*

*...Bizi tanımırlar. Amma heç biz də özümüzü tanımırıq!*

*Bu qənaətə tələbəlik illərimdə gəlmişəm. Azərbaycan tarixinə biz Sov.İKP tarixi üzrə mühazirələrə olduğu kimi yanaşmırdıq. Sonuncu halda tələb tamam başqa idi. Yadımdadır,mənim yeganə "qeyri-kafi" almağım partiya qurultaylarının tarixini və gündəliyini yaxşı əzbərləməməyimlə bağlı olub. Təqaüddən məhrum olmamaq üçün yayda Xam torpaqlara getmişdim.*

*Və bu - partiyanın tarixini burnumdan qan gələ-gələ öyrənməyim, ümumiyyətlə tarixə, həmçinin milli tarixə marağımızı öldürürdü!*

*(Onu da deyim ki, Azərbaycan bölməsinin tələbələri də bizim günümüzdə idilər. Əgər biz rus mədəniyyətində, özü də dövlət dilinin rus dili olduğu vaxtda böyümüşdüksə, bunda "TAM ÖZÜNKÜ olmayanı" görürdüksə, onda Azərbaycanca təhsil alanlar öz tatix və mədəniyyəlلərini hansısa mövcudolma kimi, "DAHA ÇOX özü" kimi qəbul edirdilər. Yəni, biz elə buyuq ki varıq, hər şey aydındır da - burada öyrənməli nə var?!*

*Yadımdadır, Azərbaycan tarixi üzrə mühazirələrdən birində, müəllim Azərbaycan ərazisində mövcud olmuş orta əsr dövlətləri Ağqoyunlular, Qaraqoyunlular barədə danışanda kimsə istehza ilə güldü: "Qoyun – eto baran!". Buna görə, doğrudur, onu auditoriyadan çıxardılar ...*

*Bir çox illər sonra mən İsmayıl Şıxlıdan belə bir əfsanə eşitdim. Bir dəfə meşəyə təlaşlı bir xəbər yayılır: "balta" adlı nəsə qorxunc bir şey gəlib meşəni kəsir. Meşənin şahı olan Qocaman palıd bu bədbəxtliyin nə olduğunu öyrənməyi əmr*

*edir. Ona deyirlər ki, "balta" bir ovuc boyda dəmirdir, ağaca sancılır və onu dağıdır. Palıd soruşur ki, bir ovucluq dəmir parçası ağacı necə dağıda bilər? Cavab verirlər ki, onun uzun sapı var, sapın köməyi ilə dəmiri qaldırıb ağaca vururlar. Ürəyinə nə isə daman palıd qaşqabağını tökür və soruşur: bir parça dəmirə bu qədər imkan və güc verən həmin sap nədən hazırlanıb? Cavab verirlər ki, ağacdan. Onda palıd acı-acı ağlayır və deyir: Bəli, balta bizim hamımızı doğrayacaq. Çünki sapı bizdəndir!"*

Sovet hakimiyyəti illərində müsavata, pantürkizmə və "çürümüş liberalizmə" qarşı (görünür, ADR-in avropalaşma ilə bağlı kursu nəzərdə tutulurdu) millətçilik adı altında mübarizə aparılırdı! Daha doğrusu, əksinə. Belə ki, "Müsavat" partiyası əvvəlcə hətta müstəqillik ideyasını deyil, yenilənmiş Rusiya tərkibində Azərbaycan muxtariyyəti ideyasını irəli sürürdü, doğrudur, çox keçmir ki, öz konsepsiyasını dəyişir.

İslama və türkçülüyə gəldikdə isə, onlar qətiyyən ÜSTMİLLİ deyillər.

(Təəccüblü deyil ki, məhz bu vaxt Rüstəm İbrahimbəyov müsavatçıların fəaliyyətinə həsr olunmuş "Ultimatum" pyesini yazdı və tamaşaya qoydu. Həm də, bu sətirlərin müəllifinə danışdığı kimi, əsər üzərində işləyərkən onu ən çox təəccübləndirən o olub ki, ADR haqqında sayı bir o qədər də çox olmayan, şifrələnmiş bu sənədləri arxivdə heç kim bir dəfə də olsun (!) tələb etməyib ...Sonralar bu sənədlər Parisdə YUNESKO Katibliyinin əməkdaşı, görkəmli diplomat və vətənpərvər Ramiz Abutalıbovun fədakar fəaliyyəti sayəsində bir çox son dərəcə unikal başqa sənədlərlə tamamlandı. Mən "görkəmli diplomat" yazdım, çünki bu iş sovet hakimiyyəti illərində, özü də hələ sovet hakimiyyəti dövründə təkcə cəsarət deyil, həm də incəlik və diplomatizm tələb edirdi!).



*AİLƏ HAŞİYƏSİ*

*Anamdan mənə qalan üç qalın dəftərdən yalnız birində onun həyatı təsvir olunub, qalan ikisi isə, siyasi məşğələlər üçün Leninin əsərlərinin konspektindən ibarətdir. Atamdan isə mənə Plexanovun 1925-ci ildə dərc edilmiş Seçilmiş Əsərləri, atamın partiyanın çağırışı ilə Qazaxıstana getməsi, orada ucsuz-bucaqsız və kimsəsiz çöllərdə kolxozlar yaratmaq çağırışına qoşulub, buna görə də bitirib başa çatdırmadığı Moskvada Xarici Ticarət Akademiyasında tələbəlik xatirələrini yazdığı dəftər qalıb.*

*O zamanlar millilik haqqında düşünmürdülər. Əsrlər boyu heyvandarlıqla məşğul olan qazaxlara taxıl əkmək gərək idimi? Üstəlik, tədarük planını yerinə yetrimək üçün məhsulu son dənəsinədək dövlətə təhvil vermək nəyə lazım idi? Atam özü şəhərli idi, kənd təsərrüfatından heç bir anlayışı olmayıb, lakin qorxudan, risk etmək istəməyib taxılın bir hissəsini növbəti əkinə saxladığı üçün, onu xalq düşməni elan edirlər. Doğrudur, sürgünə göndərmək üçün vağzala aparılanda o, Stalinin və Molotovun adına yazdığı məktubu poçt vaqonuna atmağa macal tapa bilir. Ona görə də bir müddət sonra Moskvadan komissiya gəlir və onu buraxırlar. Lakin mən dünyaya gəldiyim gün, yerli qəzetdə onun da adı həbs olunanlar siyahısında dərc olunubmuş(bu qəzet doğum evində anamın əlinə düşmüşdü!); yəni mən dünyaya xalq düşməninin oğlu kimi gəlmişəm.*

*Buna baxmayaraq, atam ömrünün sonuna kimi möhkəm etiqadlı kommunist olaraq qaldı. Rus dilində o, aksentlə (anamın da yumşaq cənub ləhcəsi var idi – məsələn, "коммунизьм" deyirdi) danışırdı. Hətta Azərbaycana qayıdanda mənə azərbaycan dilini öyrətməsini xahiş edəndə (düzdür, o qədər də təkid etməmişəm) rusca cavab vermişdi mənə: "Xoroşo" və bununla da hər şey bitmişdi. Amma Universitetdən və rayonlarda işləyəndən, dili, pis-yaxşı,*

*öyrənəndən sonra atam qəzetləri oxuyanda hətta bəzən məndən (!), deyək ki, soruşurdu, fəallıq (aktivnosı) nə deməkdir. O, həyatının çoxhissəsini Azərbaycandan kənarda yaşamışdı, ərəb və fars mənşəli ədəbi sözlərin tərcüməsini bilmirdi, amma öz doğma dilində gözəl danışırdı, sevimli atalar sözləri var idi. Danışıq zamanı tez-tez türkün sözü deyərdi (hərfən, türklərin dediyi kimi; sonralar öyrəndim ki, hər hansı bir ifadə ikimənalı başa düşüləcək hallarda, onun mənasının dəqiqləşdirilməsi tələb olunanda, nəsə kəskin bir söz demək istədikdə işlədilir).*

Küçə ilə gedirəm. Kənd adamı olduğu aşkar hiss olunan bir nəfər papağını qarşısına qoyub oturub. Papağa pul qoyanda gözüm onun altındakı xalçaya sataşır – bu, çox gözəl bir əl işiydi. Onu mənə satmasını təklif edirəm və cavabında eşidirəm:

- Satılmır!

-Niyə?

- Niyəsi yoxdur ki...-.başını qaldırır – onu nənəm öz əliylə toxuyub!

Şərəf mədədən üstündür! Bizdə belə deyərlər: "Qarnım üçün deyiləm, qədrim üçünəm!"

Şübhəzis, belə düşünən xalq hazırki praqmatik dövrə bir o qədər də uyuşmur. Və hər halda, yenə də...

Belə xalqın gələcəyi var. Çünki onun özünün daxili mənəvi zənginliyi var!

Bəli, azərbaycanlılar öz mentalitetlərinin əsas parametrlərini itirmirlər, türklərin məşhur məsəli var: "qurbağalar arasında qurbağaya çevril" Məsələ ondadır ki, mühitin dəyişməsilə bağlı onların əcdadlarının zehni həm yeni şəraitə



uyğunlaşmaq, həm də özünü saxlamaq bacarığını ehtimal edirdi.

Azərbaycanlıların mühafizəkarlığı da burdandır. Başqa mədəniyyətlərə, yad ağalığına dözüm – bəzən həddini aşır. Burası da var ki,qonşunun sərvəti azərbaycanlıları zorakılığa, təcavüzkarlığa təhrik eləmir, sadəcə, onlarda rəqabət cəhdi yaradır. Əksinə, bizlərdə deyərlər ki,qonşunu iki inəkli istə ki, sənin də bir inəyin olsun!

Ekstremizmin istənilən formasının qəbul edilməməsi, sabitliyə, asayişə can atma və eyni zamanda bəzi politoloqların hesab etdikləri kimi, dəyişikliklərə, hətta radikal islahatlara həssaslıq da buradandır.

Cənubi Qafqazın, xüsusilə də Azərbaycanın görkəmli tədqiqatçısı Yeva-Mariya Aux yazır ki, azərbaycanlılar öz tarixi inkişaflarında üç mərhələdən keçiblər: "Müsəlman-təbəə-vətəndaş". Onun 2004-cü ildə alman dilində çıxmış fundamental kitabı belə də adlanır: "Müsəlman - təbəə - vətəndaş".

*BAYRAM HAŞİYƏSİ*

*Evimizin daxili həyati (onu "italyanka" adlandırırdılar) biz uşaqlara darısqal gəlmirdi. Bəlkə, ona görə ki, orada həyat eyni vaxtda müxtəlif səviyyələrdə cərəyan edirdi. Həyətdən başqa, yuxarı mərtəbələrə və dama aparan pilləkənlər də var idi. Evlərin damında quşbazlar göyərçin uçururdular, isti, küləksiz günlərdə damda nərd oynayır, çay içir, hətta yatırdılar. Pilləkənlərin bəzisi isə, yarızirzəmi mənzillərə, aşağı enirdi. Burada qapılar daim açıq idi, qadınlar ya kətil qoyub qapı ağzında, ya da elə pilləkəndə oturub, məsələn, düyü arıdır, corab toxuyurdular. Buranın öz həyatı var idi.*

*Bu qadınlar, plov...*

*Azərbaycanla ilk tanışlığım onun kulinariyası ilə, ilk növbədə Novruz bayramı ilə bağlıdır. Novruz nemətləri, xüsusilə müharibədən sonrakı dövrdə bir ayrı cür gəlirdi adama. Beli qırmızılı xonçalardakı qoz- fındığı, püstəni, əncir qurusunu ləzzətlə yeyər, müxtəlif rənglərlə boyanmış yumurtaları döyüşdürərdik. Hələ şirniyyatı demirəm; paxlavanın, şəkərburanın, şorqoğalının, Qarabağ kətəsinin dadı ta o biri Novruzacan damağımızdan getmirdi..Yazıram və duzlu- istiotlu, zəfəranlı- yağlı, razyənəli.... hələ də anlaya bilmədiyim daha nələrsə qatılmış şorqoğalının ətri burnumu qıcıqlandırır... O zaman qonşuluqda yaşayan rusların, ermənilərin, yəhudilərin, tatarların, almanların evlərində də belə xonçalar var idi. Bəli, az sayda qalmış almanların evlərində də. Onları, əsasən, müharibə illərində əsrlər boyu kompakt yaşadıqları Azərbaycanın rayonlarından (Şamxordan, Xanlardan...) Orta Asiyaya sürgün etmişdilər.*

*Azərbaycanlıların da evlərinə, bir qayda olaraq, rusların Pasxasında kuliç, yəhudilərin Pesaxında matsa gəlirdi ...*

*Bir gün Molla Nəsrəddini dadlı, xüsusi hazırlanmış şirniyyata qonaq edirlər. Mollanın şirnidən o qədər xoşu gəlir ki, deyir bunu necə hazırlayırlar, mənə də öyrədin... Resepti yazır, şirniyyatı alır və yola düzəlir. Yolda yorulub bir daşın üstündə oturur, elə bu dəm hardansa bir quş enib Mollanın şirniyaytını dimdiyinə alıb qalxır havaya. Molla onun ardınca baxıb deyir:*

*- Ay axmaq, resept ki məndədir!*

***

Beləliklə, yalnız zahirən qonşularınkından daha az dəqiq milli xüsusiyyətlərin təzahürü azərbaycanlılarda öz gələcəyinin qurulmasında daha çox variasiyalılıqla - bunun



üçün daha çox "kubiklərin" olması sayəsində - kompensasiya edilir. Mədəniyyətlərin kəsişməsində dünyaya gələn və özünün sosial və mənəvi inkişafında tam BƏRKİMƏMİŞ, bundan əlavə, yenicə həqiqi inkişafa və artıma başlayan istənilən etnos kimi..

(Azərbaycanda müsəlman ölkələri arasında ilk dəfə teatrın, milli opera və operettanın, kinoteatrın, kütləvi kitabxanaların açılması, müsəlman kütlələrin nadanlığını qamçılayan satirik jurnalın nəşrə başlaması, müsəlman qız məktəbinin açılması və onlarla buna bənzər hadisələrin hamısı ötən əsrin əvvəllərində, neft bumunun başladığı vaxtda, filosof Rəhman Bədəlovun yazdığı kimi, Bakının "rus şəhərinə",( halbuki, başqa millətlərin nümayəndələri də bu şəhərə axışırdı), daha sonra isə, rusdilli azərbaycanlıların şəhərinə çevrildiyi, amma heç vəchlə "rus imperiyasının dəvət edilmədiyi" bir dövrdə baş verirdi).

*POLEMİK HAŞİYƏ*

*Jurnalist Elmar Huseynovun "Monitor" jurnalında "Azərbaycanlılar – XXI əsrin milləti" adlı məqaləsinin necə etiraz doğurduğunu xatırlayıram. Elmar Hüseynov bu yazıda azərbaycanlıların millət kimi yetərincə formalaşmamasını, lakin onun fikrincə, mənfi deyil, əksinə, müsbət hal kimi göstərirdi. Belə ki, qloballaşma zamanı daşlaşmış, inkişafdan qalmış millətlər ölümə məhkumdurlar, əksinə uyğunlaşa bilən, olanını "təmiz vərəqdən" başlamağa meyllənmələr isə üstünlük qazanacaq. Yeni bəşər tarixinə daxil olmağa qadir olan, onda olanı deyək ki, "təmiz vərəqdən" daha yaxşı şublimasiya edən xalqlar üstünlük qazanırlar.*

*İndi bu jurnal da, həmin məqalənin müəllifi də yoxdur, amma polemik tezis qalır.*

*Və bu essenin adına -"Dədəmiz Qorqud"a qayıdaraq alim dostlarımdan birinin fikirini gətirməyə bilmərəm.O deyirdi:*

*- Mən də elə hesab edirdim ki, bizim dədəmiz Qorqud olub. Hətta bu dastana mən dissertasiya və özümün ilk kitabımı həsr etmişəm. Lakin indi mən başqa cür düşünürəm. Hesab edirəm ki, azərbaycanlıların atasını qədim tarixdə, əfsanə və eposlarda deyil, ən yeni tarixdə axtarmaq lazımdır. Və belə bir insan var: bizim dədəmiz Həsən bəy Zərdabidir!*

Bu görkəmli maarifçi, həkim, aqronom, jurnalist, Azərbaycanda ilk milli qəzetin -"Əkinçi"nin naşiri - adı XIX əsrin sonu - XX əsrin əvvəli Azərbaycan Tarixinə daxil olmuş bu Ziyalı, bu Vətənpərvər öz xalqının zehnini təravətləndirərək; milli mədəniyyətə, məişətimizə, həyatımıza yeni düşüncə tərzi gətirmək, ona yeni nəfəs vermək, onu müasirliyin səhnəsinə çıxarmaq üçün lap çox, inanılmaz dərəcədə çox işlər gördü.

("Bizim xalqımız kasıb torpaq kimidir, biz öz külümüzlə torpağı yaxşılaşdırmaq üçün yanmalıyıq",- Zərdabi həmişəki kimi kəskin polemikalı, eyni zamanda ağrı ilə böyük maarifçi və müasir milli mədəniyyətin ilk yolçusu Mirzə Fətəli Axundova belə yazırdı!).

Tarixin, indiki neft bumunun və bununla bağlı olaraq, dünyanın xəritəsində Azərbaycan rolunun artmasının yeni burumunda müstəqilliyin əldə edilməsi (bütün çətinliklərə və zaman, "Qarabağ əngəlinə" baxmayaraq!) azərbaycanlıların qarşısında yenidən misilsiz imkanlar açır.

Azərbaycanlıların "XXI əsrin milləti" olub - olmayacağını söyləmək çətindir, bunu gələcək göstərəcək.

Bir şey yəqindir ki, bu xalqın – mədəni, tarixi, iqtisadi, mənəvi potensialı yetərincədir.



Sən demə, o qədər də "kasıb" torpaq deyilmiş!

Məmməd Əmin Rəsulzadə "Əsrimizin Səyavuşu" əsərində yazırdı: "Azərbaycanlıların inkişafa meylli olduqlarını göstərmək üçün... ilk türk dramaturqunun, ilk türk bəstəkarının, Rusiyanın türk xalqlarının arasında ilk qəzetçi - naşirin azərbaycanlı olduğunu demək kifayət deyilmi?... İlk əlifbanın islahatını da azərbaycanlı fikirləşdi, nəhayət, respublikanı birinci elan edənlər də azərbaycanlılar idi".

Bunları mən artıq yuxarıda sadalamışam. Onu da əlavə edim ki, təkcə bütün türk-müsəlman dünyasında deyil, hətta ABŞ da daxil olmaqla, bir çox qərb ölkələrindən əvvəl ilk dəfə Azərbaycan Demokratik Respublikası qadınlara seçki hüququ verib!

Və burada da islamaqədərki tarixin əks-sədası var! Türklərin qadınlara ənənəvi - "xanım" müraciəti hərfi tərcümədə "mənim xanım"[12] deməkdir. Və Bakıda ictimai nəqliyyatda, özü də təkcə Bakıda yox,Azərbaycanın hər yerində, cavanların ayağa durub öz yerlərini təkcə qocalara, əlillərə deyil, həm də tamamilə gənc qızlara vermələri əcnəbiləri təəccübləndirir!

88 yaşlı ağsaqqal jurnalistimiz Şirməmməd Hüseynovun bir fikri ilə tamamilə razıyam ki, tarixin və mədəniyyətin zənginliyi millətin müvəffəqiyyətinə zəmanət vermir (Hindistan bunun klassik nümunəsidir), bunun üçün müasir təhsil, elm, demokratiyanın inkişafı, bir çox başqa şeylər də

[12] Ananın dediyi kimi, gəncliyində ilk dəfə "Dədə Qorqud" dastanını oxuyanda və lap başlanğıcda «xanım» sözünü oxuyanda bu müraciətin qadına deyil,xana "ey mənim xanım" olduğunu dərhal başa düşməmişdi

lazımdır. Bu belədir. Lakin bu zənginliyin DƏRK EDİLMƏSİ - milli özünəhörmətə, milli birliyə, deməli, milli tərəqqiyə doğru atılmış ilk addım deməkdir!

Öz xalqının çatızmazlıqlarının və fəlakətlərinin dahi tənqidçisi C.Məmmədquluzadə yazırdı:" Vətənə sevgi – təbii hissdir – Vətən həmvətənlərdən ibarətdir, yəni öz millətindən olanlardan. Vətənini sevən xalqını da sevməlidir". Satirik şair Sabir isə, ömrünün sonuna yaxın öz dostlarına deyirdi:Qəzetdə yazın ki, Sabir öz vücudunu millətinin dərdlərinə görə çürütdü və Azərbaycan xalqı naminə, lazım gəlsə,, sümüklərinə də rəhmi gəlməyəcək!

Bir tanış papaqçı ustanın aforizmi - Papaq başdan yuxarı olsa da, Alahdan aşağıdır.

Və düşünməyə, fikirləşməyə çağıran hallarda da tez-tez bu ifadədən istifadə edilir: "Papağını qoy qabağına …". Yalnız papağı başdan götürəndə FIKIRLƏŞMƏK olur. Papaq başda olanda isə fikirləşmirlər - HƏRƏKƏT EDİRLƏR. Kişi kimi hərəkət edirlər…

Papağı qabağına qoyub düşünməyin əsl vaxtıdır, yaxşı – yaxşı düşünməyin vaxtıdır!...

Hər bir insanın yaddaşı var. Genetik yaddaşı olmayan xalq da yoxdur. İnsanların olduğu kimi, xalqların da genetik yaddaşı güclü olanı və zəif olanı var. Bu az və çox, zəif və güclü yaddaşın gücünə-hesabına insanlar, xalqlar zaman və məkan sədlərini qıra bilir, müharibələrin, təbii fəlakətlərin ayrı saldığı əcdadlarını, qohum-əqrabalarını arayıb-axtarmış, qırılmış bağlarını bəndləməyə çalışıblar. Əslində, bu qohumluq hissləri, şüuraltı çağırışlar – zamanın çağırışıdır. Üstündə yaşadığımız torpaq da bizdən əvvəl yaşamış əcdadların, bizlərin və bizdən sonra gələcək nəsillərin bir səma altında ümumi evimizdir. Bu çatılmış ocaqların üstündə



qaynayan qazanlarda bişən-buğlanan nemətlər, təzə çörək ətri, döyüşlərdə axıdılan qan qoxusu, şumlanmış torpaq ətri, uzun cənub gecələrinin ulduzlu göyünün altında qaynar sevginin müşk ətri...bizim yaddaşımızın dadı-havası, bütün bunların, adını bilmədiyimiz, unutduğumuz daha başqa nəsnələrin nəfəsi, rayihəsi, damlası, zərrəsidir, əslində.

Və yalnız bu Yaddaş bizi yaxın sovet keçmişindən başqa aləmə ayıra və başqa aləmə, Bizim keçmişimizə və Bizim gələcəyimizə apara bilər.

*SON VƏ ŞƏXSİ HAŞİYƏ*

*Uşaqlığımın hafizəmə əbədi həkk olunmuş parlaq mənzərələrindən biri. Qatar, yol nağılı. Vaqonda oturmuşam, pəncərədən baxıram və səbirsizliklə atamın vətənini - adı bu qədər uzun və qulağımın öyrəşmədiyi, dilimə yatmayan - Azərbaycanı nə vaxt görəcəyimi gözləyirəm.*

*Qatar dayanır. Ev kimi hündür, qara parovoz qonşu yolda ağ buxar buraxaraq səs-küylə nəfəs alır. Xatırlayıram ki, kupemizin pəncərəsinəcən ucalan nəhəng, təkərin silkələnməsi də məni təəccübləndirmədi. Bu böyük, qırmızı köndələn təkər fırlanır və heç cür yerindən tərpənə bilmirdi. Amma budur qonşu yolda duran parovoz titrədi, bütün vaqonlar boyu metal cingilti gəzdi, və... Biz yavaş-yavaş geri üzdük.*

*Sonuncu vaqon relsləri taqqıldada - taqqıldada gözdən itəndə mən gördüm ki, biz həminki yerdəyik. Əvvəlki kimi dayanmışıq. Gözləyirik.Gedən biz deyilik, nəhəng təkərli parovoza qoşulmuş qonşu qatardı...*

*Təəssüratların bolluğundandımı və müharibədən sonrakı illər qarın dolusu yeməməkdəndimi, bilmirəm; mən bir dəqiqəliyə mürgülədim. Və yuxuda gördüm ki, böyük, qırmızı təkərlər fırlanır və... mən yavaş-yavaş geri üzürəm.*

*Bunun arxasınca növbəti sarsıntı: mənim atam birdən – birə yad dildə danışmağa başladı.... Perronda bizimlə*

*görüşən camaat, yad adamlar mənim üçün tamamilə anlaşılmaz səslər çıxararaq atama müraciət edirdilər və ən qəribəsi idi ki - atam onları başa düşürdü! Mən melodiyanı, nitqin intonasiyasını fəhmlə tutdum və anladım ki, bizimlə görüşən adamların dili və atamın onlara cavab verməyə başladığı dil eynidir.*

*Əgər MƏNİM atam bu dildə danışırsa, bəs MƏN niyə bu dili başa düşmürəm?*

...O gündən altmış il ötür. Şükür Allaha - mən bu zəngin və indi MƏNİM olan torpaqda yaşayıram. Dili də bilirəm, xalqı da tanıyıram, budur, cəsarətimi toplayıb hətta haqqında yazı da yazıram. Bir sözlə, yazmağa risk edirəm, özümü, necə deyərlər, cismən də, ruhən də azərbaycanlı hesab edirəm. Amma...

Burada nöqtə qoymaq istəyirdim, necə oldusa, birdən ağlıma bir fikir gəldi. Və mən düşündüm ki, əgər taleyin təkəri məni atanın vətəninə, Azərbaycana yox, Ukraynaya - anamın vətəninə atsaydı, onda nə olardı? Mən onda ukraynalı olardımmı?

Bəlkə də... Ehtimal ki, yox. Ona görə ki, mənim anam - Anna Alekseyevna Drobçenko "doğma" Ukraynada yox, Qazaxıstanda doğulub, vətəndaş müharibəsində yaxınlarını itirib (onların nəslindən kimsə, deyəsən, hətta Kanadada yaşayır)...

Amma sonra düşündüm ki, bacarardım ya bacarmazdım – bu, bir o qədər də vacib deyil, torpağa bağlı olmaq əhəmiyyətlidir; ona ÖZ köklərini buraxmaq üçün. Və deyək ki, qoy bu, canlı təbiətdə olduğu kimi kökdən gövdəyə doğru inkişaf olmasın, əksinə, mən gövdədən kökə birləşim. Hər bir halda, virusdan – filandan azad öz inkişaf nöqtəni tapmaq vacibdir...

Və şəxsən mən bu İNKİŞAF NÖQTƏSİNİ tapdım...



# İkinci hissə

# SIMALARDA YAŞAYAN TARIX

## *QOŞA YASTIQ*

*Universiteti bitirdikdən sonra mənim ucqar kəndə getməyim uşaqlara rus dilini öyrətməkdən daha çox, özümün Azərbaycan dilini öyrənmək istəyimlə bağlı idi. Burda mən kənddə başıma gələn maraqlı əhvalatları, kənd sərgüzəşt-lərimi xatırlamaq niyyətində deyiləm, bunları, inşallah, memuar yazanda qələmə almağı düşünürəm. İndisə, müəl-limliyi jurnalistika ilə əvəz edərək – redaksiya vəsiqəsi ilə ölkəni necə gəzməyimdən danışmaq istəyirəm.*

*Müəllim kimi ilk məzuniyyətə çıxdığım vaxt, heç gözləmədiyim halda jurnalistikada ilk uğurumu qazandım; özü də necə uğur! Naxçıvanda təsadüfən eşitdim ki, burada Cəlil Məmmədquluzadənin bir qohumu yaşayır! Öyrəndim ki, bu ciddi və yaşlı qadın xəstəxanada işləyir –yoluxucu xəstə-liklər şöbəsində xadimədir ( tanış olduqdan sonra biləcəkdim ki, sən demə, bu qadın hələ Pus imperiyası dövründə nüfuzlu bir təhsil müəssisəsində gözəl təhsil alıbmış!).*

*Bakıya qayıdanda mən təkcə onunla görüşümüz haqqında yazmadım. Həmçinin baş redaktorun adına məruzə hazırla-dım, redaktor da onu yuxarı instansiyalara təqdim etdi.*

*Deyə bilmərəm ki, bu, mənim qəhrəmanımın həyatını nə dərəcədə dəyişdi, vəziyyətini yaxşılaşdırdımı, amma indi də düşünürəm ki, ən azı, mən onun xatirəsini yaşada bildim.*

... Çaylarımız soyuyur, aradakı sükutu hardansa gələn boğuq musiqi səsi pozur və bu dar macalda fikirləşirəm ki, hətta sınıq reproduktor da Qara Qarayevin skertsosunun əzəmətini korlaya bilmir.

Məzuniyyətimin sonuncu günüdür.

...Bloknotu vərəqləyirəm. Tələsik yazılmış qeydlərimə göz gəzdirirəm...

...Yaxşıca laklanmış mücrü, güzgü. Hardasa səhra radio stansiyasını xatırladan qədim telefon. Bunlar azərbaycanlı ədibin adını daşıyan yerli muzeydə gördüyüm şəxsi əşyalarıdır – Mirzə Cəlilin şəxsi əşyaları.

...2 saylı məktəb də onun adınadır. Deyirlər, yazıçı bu məktəblə üzbəüz evdə yaşayıbmış.

...Məscid. Onun minarəsi şəhərin hər yerindən görünür. Ədibin tərcümeyi - halından bu sətirləri xatırlayıram: "İlk dəfə gözlərimi açanda dünyanı qaranlıq gördüm. Qaranlıqda ilk eşitdiyim "Allahu-əkbər"! Allahu-əkbər!" sədaları oldu."

...Dağlara gedən yol. Bu yol Nehrəm kəndinə aparır. XIX əsrin sonlarında Mirzə Cəlill bu kənddəki məktəbdə nəzarətçi işləyib. Onun satirik əsərlərinin qəhrəmanları Sadıq-Balaqur, Xudayar bəy, eşşəyi oğurlanmış Məmmədhəsən əmi də nehrəmlidirlər...

Naxçıvan. Burada hər daş Mirzə Cəlili xatırladır.

Amma daşlar danışa bilmir...

...Şəhər kənarındakı birmərtəbəli sadə görkəmli evin qapısını başı örpəksiz bir qadın açır.

– Salam, Pakizə xala burda yaşayır?

– Mənəm.

Qadın sabunlu əllərini bükülü dəsmala silir: elə girişdə kətilin üzərində paltar dolu təknə var.

Otağa keçirik.

İlk gözə dəyən böyüdülüb çərçivəyə salınmış şəkil olur. Şəkildən iri alınlı, aydın baxışlı, qalın bığlı Mirzə Cəlil baxır.



Yanında da yoğun hörüklü, girdəsifət bir qız. Çətinlik çəkmədən ev sahibini tanıyıram.

Fikrimdə bu şəkli qəzet səhifəsində, "İlk dəfə dərc olunur" yazısı ilə görürəm.

– Yox, yox, – Pakizə xala fikrimi oxuyub gülümsəyir. – Bu, orijinal şəkil deyil ...

Sonra qüssəli bir səslə doğma dayısından ona heç bir xatirə qalmadığını deyir. Bu şəkli də montaj etdirib ...

Hava qaralır, Pakizə xala artıq neçənci dəfədir çaylarımızı təzələyir.

Xatirələri də axşamın alatoranı kimi yavaş – yavaş otağa yayılır.

– Çox illər keçib. Çox şeyi dumanlı şəkildə xatırlayıram. Elə şeylər də var ki, bu gün də gözümün qabağındadır... Elə bil dünəndi, ...anam Səkinə ilə bir həyətə gəlmişik, uşaqlar oynayırlar, ancaq onların nə oynadıqlarını bilmirəm, mən belə oyun görməmişəm bu vaxtacan; iki nəfər dayanıb, qalanları da onların qarşısından qışqıra – qışqıra keçirlər. Səslərindən az qala qulağım tutulur. Sonra bildim ki, bu oyun "parad" adlanır.

Biz pilləkənlə ikinci mərtəbəyə qalxırıq, anam qapının zəngini basır. Qapını açan kişini o dəqəqə tanıyıram; divardan şəkli asılmış dayımdı.

O, qollarını açıb təəccüblə soruşur:

– Ay-yay! İndi sizlərdən Səkinə hansınızsız?

ayımın bu zarafatı mənə ləzzət eləyir, bunu hamı deyirdi; mən anama çox oxşayırdım.

...Bulvarda gəzişirik. Dayım oğlanları Midhət, Ənvər və mən. Mirzə Cəlil bizim əlirimizdən tutub. Biz üç uşaqdıq, onun isə, iki əli vardı. Ona görə də onun yanında getmək üstündə mübahisə edirdik. Dayım gülür, sonra növbə qurur.

Cibindən böyük bir saat çıxarır:

– Midhətin bir dəqiqə vaxtı qalıb, indi kimin növbəsidi?!
...

...Hər axşam dərslərimizi yoxlayardı.
Kimsə tənbəllik edəndə, o başını yelləyib deyirdi:
– Ay müsəlman!

...Dayım gecələr işləyirdi. Mən onu gündüzlər yazan görmürdüm. Amma gecə yarısı oyananda kabinetində var gəl etdiyini, addım səslərini eşidirdim. Bəzən kabinetindən kamança səsi gəlirdi: dayım kamança çala bilirdi, özü də pis çalmırdı.

Elə olurdu ki, evdə konsert təşkil edirdik. Ənvər klarneti, dayım kamançanı, Midhət tarı götürürdü. Hərdən də Xan Şuşinski gəlirdi bizə.

...Dayım çox diqqətcil və qayğıkeş idi. Bir hadisə indiki kimi yadımdadır; külək küçədə elektrik xətlərini qırmışdı, məni cərəyan vurmuşdu.. Dayıma bunu deməmişdilər; həmin vaxt o, Borjomidə dincəlirdi. Lakin necə olmuşdusa, xəbər tutmuşdu. Sən demə, qəzetlərdən biri bu barədə hadisələrin xronikasında yazıbmış, dayım da xəbəri oxuyan kimi qayıdıb gəlmişdi. Bizi nə qədər danlamışdı!...

...Onun sevimli sözü "axı" idi. Bizə nəyisə qadağan edəndə deyərdi: "axı, olmaz!" Biz də ondan tez – tez eşitdiyimiz bu sözü təkrar – təkrar dilə gətirməkdən xoşlanardıq. Və o qədər öyrəşmişdik ki, bir dəfə bizlərdən kimsə rusca danışanda "axı" sözü işlətmişdi. Dayım bərk hirslənmişdi, o qarışıq nitqə dözmürdü, ya təmiz rus dilində, ya da təmiz Azərbaycan dilində danışmağı tələb edirdi.

...O vaxtlar "Molla Nəsrəddin" jurnalının redaksiyası dayımın mənzilində yerləşirdi. Biz uşaqlar jurnalı qablaşdırmağa kömək edirdik - təzə nömrələrin bağlamalarını



yapışqanla yapışdırırdıq. Biz bundan qürur duyurduq, bağlamaların üzərində yazdığımız "ünvanlarla" öyünürdük: İran, Tiflis, Kazan. Dayım da bizim işimizə ciddi yanaşırdı və kim ki, xüsusi canfəşanlıq göstərirdi, ona mütəmadi olaraq qəpik - quruş verirdi.

O da yadımdadır ki, bir dəfə biz dayımla Zaqatalaya getdik. Çox uzaq yol idi, adama elə gəlirdi ki, yol heç qurtarmayacaq. Axır ki, gəlib çatdıq Zaqatalaya. O da yadımdadır ki, mehmanxanada yox, kiminsə evində gecələdik. Niyəsini bilmədim. O qədər yorğundum ki, bu səyahətdən təkcə yol yadımda qaldı. Amma dayım ...

Bir neçə ildən sonra, Mirzə Cəlilin "Qoşa yastıq" hekayəsini oxuyanda, Zaqatala səfərimiz yadıma düşdü...

Hekayə belə başlayır: "Avqustun 23-də mənə məlum oldu ki, tezliklə Zaqatala şəhərinin pedaqoji texnikumunda imtahanlar başlamalıdır. Bunu biləndə, qızımı götürdüm və avqustun 24-də Yevlax stansiyasına gəldim". Və daha sonra qaldıqları evdə onları - dayımı (artıq yaşlı adamı və onun hələ çox balaca qızını!) ər-arvad bilən evin xanımı onlara bir çarpayıda yer açıb, iki yastığı yanaşı qoyub.

O dövrün adəti belə idi!

Həmin o qız mən idim...

Pakizə xala özündən, böyük yazıçıdan çox danışdı. Mən onu dinləyə- dinləyə düşünürdüm: xırda məişət detalında, hər bir adi hadisədə çoxlu məna var və yalnız adlar, tarixlər, keçmişin əsas hadisələri yadda saxlanmamalıdır, keçmişi həm də onun inandırıcı, canlı təfərrüatları təşkil edir.

Tarix yalnız belə dirilir, qəlblərə köçür...

## *BUZ HEYKƏL*

*Mənim Azərbaycan ədəbiyyatı ilə ilk tanışlığım onun gözəl hekayələrini oxumaqla başlayıb! Hələ kənd müəllimi olanda mənim üçün Azərbaycan ədəbiyyatı dünyasına pəncərə açmış yazıçılardan biri - Ənvər Məmmədxanlıdır! Nasir, dramaturq, ssenarist.*

*Ənvər Məmmədxanlını XX əsrin Azərbaycan ədəbiyyatı klassikləri sırasına cəsarətlə aid etmək olar. Bu çox gözəl (bütün mənalarda) və son dərəcə ciddi adamla dəfələrlə görüşmək səadəti mənə də nəsib olub. Gizlətmirəm, Ənvər müəllimi xatirələrə dalmağa həvəsləndirməyi çox istəmişəm, lakin, əfsus...*

- Mən memuar yazmıram, təkcə Rəsul Rzanın xatirələr kitabına yazdığım Ön Sözdə bəzi cizgilər etmişəm. Lakin əgər bu tipdə nəsə yazsam, bu, bioqrafiya olmayacaq, nəsə başqa şey, deyək ki, roman olacaq ...Bilirsiniz ki, belə şeylər qələm altında inkişaf edir.

- Axı, sizin həyatınızın elə səhifələri var ki ... Məsələn, götürək elə, 37-ci ili... Siz çox şeyi görmüsünüz, yaşamısınız.

- Bilirsiniz, əsas məsələ odur ki, bu haqda necə yazırlar, məni qane etmirlır.. Bax, "Arbat uşaqları"nı oxudum, maraqla oxudum. Burada Stalin ilk dəfə daxili dialoq vasitəsilə açılır. Həm də elə şeylər var ki, mən onları, sadəcə, billmirdim. Bilmirdim ki, Stalinin eser, milliyətcə polyak, özü də eser olan birinci sevimli arvadı, burada, Bakıda olub. Stalin onu dəfn edib və guya ki, yalnız onu sevib. Bəli, kitabı oxudum, bağladım və...

- Ədəbi kəşf yoxdur?

- Bəli, bu məni silkələmədi! Mən Platonovun "Kotlovan"ını oxuyanda hiss etdiyimi burada hiss etmədim... Sonra mən Anara dedim ki – rus ədəbiyyatı həqiqətən böyük ədəbiyyatdır - əgər XIX əsrdə qalmayıbsa və əgər bu gün



varsa. ...Bulqakovdan sonra, Platonovdan sonra..."Arbat uşaqları"ndakı faciəlik mənə bəs etmədi. Axı, baş verənlər, sadəcə dəhşətli deyildi. Bu, mənəviyyata ağır zərbə idi! Eynilə müharibə kimi... Mən müharibəni görmüşəm, məndə nifrət var ...Xeyr, düşmənə yox. Müharibəyə! Mən heç bir azadlıq, ədalət, daha nə bilim nə müharibəsinə inanmıram.. .adı nə olur – olsun, müharibələrə inanmıram...Müharibə həmişə insan itkisidir – bütün mənalarda! Həmişə alçaqlıqdır, rəzalətdir... Bax, deyək ki, mən müharibəyə gedəndə, özümlə on cüt alt paltarı götürmüşdüm. Onları hər gün dəyişirdim. Mənə, mənim təmizkarlığıma, mənə bit düşməyəcəyi ümidimə hamı gülürdü. Əfsus! Baxmayaraq ki, biz, cəbhə qəzetlərinin jurnalistləri səngərlərdə deyil, vaqonlarda yaşayırdıq... orada da eyni şey idi; bit... Mən hələ onu demirəm ki,müharibə yalnız şücaət və qəhrəmanlıq deyil. Gizlənənlər fərarilər də, qorxanlar da olurdu. Və mən ön cəbhədə uzun müddət olmasam da, yaramazlıqlar, fərasətsizliklər və çirkinliklərlə heç də az rastlaşmamışam. Hətta, təsəvvür edin, şovinizmlə də!

Bir gürcü dostum var idi, mənə parabellum bağışlamışdı. Bir dəfə azacıq içib oturmuşduq. Bizimlə bir rus kapitan da var idi; sərxoş idi. O bizə "milli azlıqlar", bəli, "milli azlıqlar" dedi. Mən ona: ""Milli azlıqlar" adlandırdıqların təkcə özlərinə görə deyil, hamıya görə, sənin rus xalqına görə vuruşurlar. Görürəm ki, sən "milli azlıqlara" faşistlərdən daha çox nifrət edirsən" dedim. "Ax, sən!" – kapitan ana söyüşü söydü, silahını götürüb dedi: "Güllələyərəm!". O sərxoş idi və həqiqətən də güllələyə bilərdi. Mən də tapançamı götürdüm, bizi güclə ayırdılar...

...Almanlar artıq Mozdokda idilər. Bizi ləğv etdilər, Stalinqrad cəbhəsi yaradıldı. Bizim qəzetimizi - Azərbaycan qəzetini nəzərdə tuturam - bağladılar. Bizimlə nə etsinlər? Siyasi idarədə dedilər ki: biz sizin rəhbərliyiniz olmadan

sizin məsələnizi həll edə bilmərik – Bağırovdan qorxurdular. Bakıya qayıdın. Yaxşı, qayıdarıq, amma necə? Bakıya gedən yol almanların əlindədir. Biz "doqquzluq" xəritəni masanın üzərinə sərdik. Baxdıq ki, Orta Asiyaya gedib oradan gəmi ilə Bakıya gəlmək olar. Getdik!

Buna, demək olar, iyirmi beş gün vaxt getdi. Gedirik, gedirik... Vaqonun döşəməsində yatırıq. Bizim ərzaq kartoçkalarımız var idi. Amma bir neçə günə bəs etdi. Mən bütün əşyalarımı yeməyə dəyişmişdim. Yeganə qalan köynəyim idi... Ciblər pulla dolu, amma pula baxan yox idi. Nəhayət, gəlib yetişdik Orta Asiyaya... Görürəm ki, balaca qazax qızı qarpız satır. Ona bir dəstə pul göstərirəm. Yox, başi ilə rədd edir. Bəs nə istəyirsən? Əli ilə köynəyimi göstərir ..."Ay şeytan, - mən azərbaycanca deyindim, - olan – qalan bircə köynəyimdi, onu da əlimdən almaq istəyir!". O nə dediyimi başa düşdü. Axı, dil türk *dili* idi, qışqırdı: "Şeytan özünsən!"

...Bizimlə vaqonda bir qız gedirdi. Məndən soruşdu: nə üçün yuxuda inildəyirsiz, yaralısız? Dedim ki, gördüyüm yuxulardandır. Bəs siz haradan gəlirsiniz? Cəbhədən. O dedi ki, mən də ora getmək istəyirəm. Məni hospitalda işləməyə göndərirlər, amma mən cəbhəyə getmək istəyirəm. Nə məsləhət görürsünüz? Dedim ki, yox, məsləhət görmürəm! Nə üçün? Qulaq asın, dedim, siz elə gözəlsiniz ki. Bilirsinizmi, nəyə çevriləcəksiniz... Bitsiz müharibə olmur. Özü də təkcə bitsiz yox, həm də başqa çirkinliklərsiz; bitdən də betərləri..., o haqda danışmaq istəmirəm...

İndi mən sizə bunları danışıram və düşünürəm. Bunları yazsam, dərhal deyəcəklər: siz müharibə illərində sovet qızına nə danışırdınız, nə məsləhət görürdünüz?!

Amma, bu həqiqətdir axı!

Digər tərəfdən, bilirsiniz məni müharibədə ən çox heyrətləndirən nə idi? Rus qızları. Onların qorxmazlığı.



Şəxsən mən ön cəbhədə cavan əsgərin qorxudan necə ağladığını, döyüşə gedə bilmədiyini gözümlə görmüşəm. Komandiri onu güllələməyə hazırlaşırdı. Mən onun əlindən tutdum: axı, sən bu oğlanı tanımırsan. Ola bilsin, o, sabah qəhrəman olacaq! Qızların müharibədə olması – bu, nəsə, başqa bir şeydir...

Belə bir hadisə olmuşdu. Stalinqrada gəlmişdim, qəzetə gedib, özümü təqdim etdim: Bakıdan gəlmişəm, yazıçıyam. Nə istədiyimi soruşdular. Yemək istəyirsən? Yox, qoyun, bir az yatım.

– Bu neçənci il idi?

– Hardasa qırx ikinci il. Stalinqrad döyüşləri hələ qabaqda idi, hər şey təzə başlayırdı... Mən yenicə uzanmışdım, gözümü yummağa macal tapmamış, kimsə məni silkələdi ki, – hücum. Elə vəziyyətdə idim ki... iki gündü yuxusuzdum ... ağlım başımdan çıxdı.... Axır ki, yenidən yatdım. Bilmirəm, nə qədər yatdım. Məni yenidən oyadıb soruşdular: "Bəs indi necə, yemək istəyirsən?" "İstəyirəm!".

Biz Volqaya gəldik. Dik sahildə, lap qıraqda aynabəndli restoran vardı. Adını da xatırlayıram - "Priboy". Bələdçim dedi: aynabənd lazım deyil, gəl içəri keçək. Əyləşdik. Pəncərə arxasından Volqanın gözəl mənzərəsi göz oxşayırdı. Restoran zabitlərlə dolu idi, cəmi bir stolda qızlar oturmuşdu. Bizə təzəcə borş gətirmişdilər ki, təyyarələrin səsi eşidildi. Və təsəvvür edin, bomba yanımızdan keçərək çaya düşdü. Aləm dəydi bir – birinə. Gurultu qopdu, su şüşələrə çırpıldı. Elə bil iyirmi metr hündürlükdə fəvvarə vururdu. Bütün bina silkələndi. Mən yalnız instinktiv olaraq gözümü yummağa macal tapdım. Həmişə təhlükə anında gözümü qıyıram. Mənim üçün ölmək kor olmaqdan yaxşı idi. Sonra sakitlik çökür. Birdən gülüş səsləri eşidirəm. Gözümü açıram. Görürəm ki, zabitlərin hamısı bir nəfər kimi səpələniblər. Hamısı döşəməyə uzanıb. Qızlar isə necə oturmuşdularsa,

eləcə də yerlərində əyləşiblər və ürəkdən gülürlər! Zabitlərdən biri ayağı qalxıb üst-başını çırparaq gülümsədi: "Nəyə gülürsünüz, ləçərlər!". Axı, məsələ son dərəcə ciddi idi. Xoşbəxtlikldən oturmadığımız eyvan yerli -- dibli çaya uçmuşdu...O qədər belə hadisələr danışa bilərəm ki....

- Amma, - mən deyirəm, - ola bisin, burada sadəcə hərbi intizam təsir edib. Hücum – uzan! Yaxşı, bəs qızlar...

- Əlbəttə! Və, bununla belə, müharibədə qadın – bu, xüsusi bir hadisədir.

- Bəli, hətta sizin "Buz heykəl" adlı çox gözəl hekayənizi xatırlayıram– təkrarsız süjetdir! Körpəsini bağrına basmış qadın çölün ortasında bir parça buza çevrilir. Donub torpağa yapışır, ona görə də canlı kimi ayaq üstədir. Bütün varlığıyla irəliyə yönəlib! Körpəsini bədənilə qızdıraraq, mənzil başına çatmaqçün! Buzdan heykəl, ana heykəli!

- Bunu mən sonralar, məlum hadisələr[13] zamanı qəzetdə işlədiyim zaman yazmışdım...

- Faciəvi süjetdir, amma nə qədər romantik ruh yüksəkliyi, işıq var! Kinematoqrafik bir detaldır,lap Dovjenkoda olduğu kimi! Deyəsən, siz Dovjenko ilə tanış olmusunuz?

- Bəli, tanış idik. Və siz haqlısınız, bizi təkcə kino deyil, çox şeylər birləşdirir. Kinoya isə, bilirsiniz ki, bir çox illər həsr etmişəm. Bizi daha çox nəsə ümumi olan yaxınlaşdırır. Dovjenkoda mən özümdə hiss etdiyimi hiss etdim. Yadınıza salın,onun məşhur "Torpaq" filmində bir haray – "Traktor dayandı!" Adamlar traktorun arxasınca qaçaraq qışqırırlar:

[13] Söhbət Cənubi (İran) Azərbaycandakı hadisələrdən gedir. Orada İkinci Dünya Müharibəsi zamanı Azərbaycan Demokratik Respublikası (1941-1946-cı illər) yaradılmışdı. Stalinin qərarı ilə sovet qoşunlarının İrandan çıxarılmasından sonra bu respublikanı qan içində boğdular.



"Traktor dayana bilməz!". O dövrün adamalrı üçün traktor ikonanı əvəz edirdi.

- Adamlar başlarını Allaha deyil, uçan aeroplana qaldırırlar!

- Bəli, məhz belə idi. Fantaziya, romantizm azdır. Kənardan nəsə bir təkan olmalıdır: ya şəxsi müşahidə və ya kimdənsə eşitdiyin bir hadisə. Mən hekayələr üçün material yığanda bizim döyüşçülərimiz mənə çox əhvalatlar danışırdılar. Və eləcə də sizin xatırlatdığınız o süjeti- belə bir hadisə olubmuş! Əlbəttə, eynilə belə yox, amma... başa düşürsüz də... Və ya başqa bir süjet, əsirlikdə olub qaçanlar haqqında hekayə. Əsirlikdə olan müxtəlif millətlərin nümayəndələrini sıraya düzüb aparırdılar. Bu zaman rus arvadları mühafizə əsgərlərinin üzərinə cəsarətlə atılır, əsirlərə verməyə nəsə bir şey, bir tikə çörək, yumurta ötürməyə çalışırlar! Əsgərlər tüfənglərin qundaqları ilə onların sinələrinə, üzlərinə vururlar. Amma onlar yenidən irəli atılırlar..

- Bayaq siz silaha əl atan sərxoş rus kapitanın "milli azlıqlara" münasibətindən danışdınız, və bu da rus qadınlarının bizə münasibətində rəhimdillik, cəsarət... Bəlkə, burada nəsə var...

- Bilmirəm, ola bilər... Hər halda, fövqəladə rus cəsurluğu deyilən bir şey var – bu da həqiqətdir! Böyük həqiqətdir! Və bu həqiqəti mənə - yazıçıya müharibə verdi...

## *O HEÇ KƏSİN QARŞISINDA BOYUN ƏYMƏDİ*

*Bu, nə oçerkdir, nə də reportaj, bu bütün Azərbaycanı sarsıdan hadisənin qaynar izi ilə dərhal yazılan informasiya - analitik bekqraunddur.*

*Böyük alim və böyük insan Ziya Bünyadovun qətli. Faciədən bir gün sonra bu material müxtəlif ünvanlara, eləcə də SSRİ-nin süqutundan keçən 20 il ərzində müstəqil*

*məsləhətçisi olduğum "QafqAsiya" (Münhen, AFR) agentliyinə göndərilmişdi.*

## Bioqrafik cizgilər

Astarada doğulub, Bakıda böyüyüb, Moskvada təhsil alıb. Uşaqlıqda həyətdə başçılıq edirdi, möhkəm, sərt xarakteri ilə fərqlənib. Təkcə dalaşmağı, davalara başçılıq etməyi, onları idarə etməyi bacarmırdı, özü də qeyri-adi cəsarətlə döyüşürdü. Məhz buna görə o, hərbi məktəbə daxil olur və oranı 1941-ci ildə, elə müharibə başlayanda qurtarır

Lakin peşəkar hərbçi olsa da, əsgər kimi əmrlərə sözsüz tabe olmağı öyrənə bilmədi və qarşısındakının rütbəsini nəzərə almadan fikrini söylədi. Hətta yüksək rütbəli zabiti döydüyünə görə cərimə batalyonuna da düşdü. Doğrudur, komandir kimi. Onun cərimələləri döyüşdə qəhrəmanlıq möcüzəsi göstərdilər.

Sovet İttifaqı Qəhrəmanı adını o, Varşava altında aldı. Göydən od yağsa da, onun bölüyü körpünü əldə saxlaya bildi və qoşunun Cənub istiqamətinə hücumunu təmin etdi. 670 döyüşçüdən 47-si sağ qaldı. Bu, Bünyadovun yeganə döyüş şücaəti deyildi. Danışırlar ki, hələ Varşavaya qədər o, Qəhrəman adına layiq görülüb, lakin sonradan rəhbərliyə münasibətdə höcət olduğuna və itaətsizliyinə görə, yüksək adı versələr də geri alıblar (belə də olur!).

Döyüşməyi, savaşı müharibədən sonra da davam etdirib. Həm adi bir insan və həm də alim kimi.

Bu sətirlərin müəllifi Elmlər Akademiyasında Ziya Bünyadovun əlində tutduğu, onun ünvanına təhqir və hədələrlə dolu məktub və teleqramları yelləyərək, Rəyasət Heyətində əyləşmiş MK nümayəndələrinə müraciətlə : "Ölçü götürün. Moskvaya, Siyasi Büroya müraciət edin, nədən qorxursunuz?" dediyi partiya konfransının şahidi olub. Söhbət Azərbaycanın və Qafqazın tarixi ilə bağlı tarixi



saxtakarlıqları və mifləri təkzib edən yeni-yeni əsərlərinə görə Ziya Bünyadova qarşı hücumlardan, təqiblərdən gedir. Hətta erməni mətbuatında belə bir termin meydana çıxmışdı: "Bünyadovçuluq". Bu, hələ Qarabağ hadisələrindən çox - çox əvvəl, 60-cı illərdə baş vermişdi.

Lakin Bünyadov təkcə millətçi əhval - ruhiyyəli erməni müəlliflərlə döyüşmürdü. O, öz tariximizi də eyni şəkildə bəzəyən, Nuh zamanı dünyanı su basanda belə, türklərin Azərbaycanda yaşadıqlarını, Nuhun özünün belə, türk yox, hətta azərbaycanlı olduğunu təkid edən "alimlərimizə" gülürdü.

Azərbaycan Elmlər Akademiyasında onun bu və ya digər hərəkətə və ya vicdansızlığa görə həmkarları ilə necə davrandığı barədə əfsanələr dolaşır. Onun EA sessiyalarında və Elmi Şuralarda sərtliyi və düzlüyü, sərrast fikirləri və dəqiq xarakterizəsi ilə fərqlənən çıxışları sonralar ağızdan-ağıza dolaşırdı.

O, prinsipial elmi mövqedən tutmuş, məişət xırdalıqlarına qədər, sözünün və işinin ağası idi. Bünyadovun iş yoldaşlarından birini Akademiyanın prezidentinin kabinetində döyməsi ilə bağlı əhvalatı bu gün də xatırlayırlar. Həmin adam qadınlar oturan otaqda siqaret çəkibmiş. Bünyadovun öz yerindən zəhmlə qalxdığını görəndə isə, işi başa düşür, otaqdan çıxıb qaçır. Bünyadovun onu təqib etdiyini görəndə qaçıb özünü prezidentin kabinetinə salır, fikirləşir ki, daha bura da gəlməyəcək ki. Amma yanılır. Bünyadov onu gizləndiyi stolun altından çıxarıb, soyuqqanlılıqla soruşur: "Mən xəbərdarlıq etməmişdimmi, kim siqaret çəksə, onu döyəcəyəm?". Və prezidentin gözü qarşısında həmin adamı döyməyə başlayır!

Qarabağ hadisələri başlayanda Bünyadov milli - azadlıq hərəkatının ilk sıralarında, tribuna və mitinqlərdə idi. Yerevanda və Stepanakertdə onu bir nömrəli düşmən elan

etmişdilər, adamların sıx toplaşdıqları yerlərdə də ona qarşı terror aktının törədilməsi ehtimalı güclü idi. İlk vaxtlarda xalq cəbhəsinin üzvlərinə kömək etsə də, sonralar Bünyadov cəbhəçiləri "yefreytor və gizirlər" adlandırmağa başladı.

Bir müddət Bünyadov fəal siyasi həyatdan gedərək arxivlərə qayıtdı. 1937-ci ildə repressiyaya məruz qalmış azərbaycanlılar haqqında "Qırmızı terror" silsilə məqalələrini, Azərbaycan Demokratik Respublikasının Baş naziri, terror aktı nəticəsində qətlə yetirilmiş Fətəli xan Xoyski haqqında sonuncu kitabını yazdı.

Heydər Əliyevin Moskvada və Bakıda təqib edildiyi dövrdə o, Əliyevin qayıtmasının vacib olduğunu açıq şəkildə bəyan etdi. Onun yanına Naxçıvana getdi, 1992-ci ilin şaxtalı noyabr günündə Naxçıvanda "Yeni Azərbaycan" Partiyasının təsis konfransı keçirildi və Bünyadov sədrin müavini seçildi. İlk dövrlərdə "Yeni Azərbaycan" Partiyası İdarə Heyətinin iclasları Elmlər Akademiyasında, Bünyadovun kabinetində keçirilirdi....

O, heç vaxt və heç nədən qorxmurdu.

## Qətl

"Görünməmiş", "müəmmalı", "tamamilə gözlənilməz"... Yerli mətbuat Bünyadovun qətli ilə bağlı məlumatları bu epitetlərlə dərc edirdi.

Prezident Heydər Əliyev də mərhumla vida mərasimindəki nitqində belə dedi: "Çox dəhşətli hadisədir. Bunu təsəvvür etmək belə çətindir".

Bu qədər cəsur və qorxmaz insanın qətli, ola bilsin ki, sırf PSİXOLOJİ baxımdan qəbul edilmirdi.

Qətl hadisəsi nümayişkaranə qəddarlıq və hətta "sətiraltı" məna ilə törədilmişdi. Dörd bıçaq yarasından sonra quldurlar onu sadəcə güllələməmişdilər, ağzına atəş açmışdılar. Yəni, daha ARTIQ-ƏSKİK danışa bilməyəcəksən... Özü də hadisə



yerində artıq xeyli yaşı olan alimin bir neçə quldurla vuruşduğunun, mübarizə apardığının izləri görünür. O, var qüvvəsilə müqavimət göstəribmiş, hücum gözlənilməz hücum olduğuna baxmayaraq, qatillər onun öhdəsindən dərhal gələ bilmirlərmiş!

Qətldən bir neçə saat sonra Baş prokururor ANS telekanalına müsahibəsində bəyan etdi :"Qatillər hətta özlərini itirə bilərdilər" (onun qəhrəmancasına müqavimətindən, yaxud da onların KİMİ öldürdüklərini dərk etdiklərindən!).

Sonuncu günün xronoqrafiyası: saat 8.30-da Şərqşünaslıq İnstitutunda, işdə olur; saat 11.20-də Milli Məclisin iclasına, fasilə vaxtı EA Rəyasət Heyətinə gedir, saat 16.00-dan 18.00-dək yenidən Parlamentin iclasında iştirak edir.

Sürücüsünün dediyinə görə, heç bir qayğısı yox idi, həmişəki kimi görünürdü. Fasiləyə gedərkən yalnız onu deyib ki, müzakirə olunan qanun layihəsindən (Konstitusiya Məhkəməsi haqqında) yalnız altısını müzakirə edə biliblər. Maşından çıxarkən evə aldığı lampanı cibinə qoyub.

İnstitutun və Milli Məclisin əməkdaşları mərhumun həmin gün həmişəki kimi tamamilə sakit və soyuqqanlı olduğunu, zarafat etdiyini təsdiqləyirlər. Qəzetləri oxuyurdu ("İzvestiya","Arqumentı i faktı","Moskovskiye novosti" və yerli mətbuatı).

## Ehtimallar

Bünyadov müstəqil adam kimi sonadək vicdanlı və intizamlı idi. Ən dəqiq və fəal deputatlardan biri hesab edilirdi. O, dəfələrlə parlamentdə və mətbuatda orduda olan korrupsiya və oğurluq hallarından danışmışdı.Onun Müdafiə Nazirliyindəki pozuntularla bağlı topladığı faktlar parlamentin qərarı ilə Ali Baş komandana təqdim edilməli idi... Ondan bunu birinci nikahdan olan oğlu, hazırda Rusiyada yaşayan Valeri Bünyadovun (1990-cı ildə Bakının hərbi

komendantı olmuşdu) nazir olmasından ötrü, öz şəxsi məqsədləri üçünmü etdiyini soruşmuşdular. Bünyadovsa cavab vermişdi ki, keçmiş hərbçi kimi ordu işlərinə biganə qala bilmir və o, yalnız ÖZÜNÜ nazir görür! Bax, onda o orada lazımi qayda-qanun yaradardı (və bu, mənim fikrimcə, həqiqətən də belə idi! – E.A.).

"Mən heç kimin qarşısında əyilmirəm". Bünyadovun bu sözləri onun dəstəklədiyi, lakin heç vaxt XİDMƏT ETMƏDİYİ hakimiyyətə də aid idi.

Bu qətlin arxasında dini motivlər, İran dayanırmı? Demək çətindir. Baxmayaraq ki, bu qanlı hadisə İranın xeyrinə casusluqda ittiham olunan Azərbaycan İslam Partiyasının rəhbərlərinin məhkəməsi ilə eyni vaxta təsadüf edirdi, Bünyadov isə, sadəcə şərqşünas və Quranın tərcüməçisi deyildi. O islam və islamçılar haqqında çox şeylər bilirdi, həm də yenə də müstəqil, elmi mövqedən. Nəhayət, onu da unutmaq lazım deyil ki, son vaxtlar XX əsr tarixi ilə məşğul olan Bünyadov arxivlərdə çox çalışmışdı (eləcə də DTK arxivlərində). Vəzifədə olan adam və peşəkar tarixçi kimi o, sənədlərlə davranmağı, onları axtarmağı bacarırdı. Deməli, məsələn, Elçibəyin dediyi kimi, bütün həqiqəti açmağın hələ TEZ olduğu Yanvar hadisələri yaxud son illərdəki çevriliş cəhdləri haqqında çox şey bilərdi.

Ermənistanın xüsusi xidmət orqanları? Çox, hətta çox mümkündür! Erməni millətçiləri hələ sovet hakimiyyəti vaxtından Bünyadovun Azərbaycanın qədim tarixi ilə məşğul olmağa başladığını və ermənilərin bir çox saxtakarlıqlarını aşkar etdiyini biləndən Ziya Bünyadova diş qıcamışdılar.

Ziya müəllimin tribunada dayanaraq ermənilərin təhdidləri ilə dolu teleqramları əlində yelləyərək MK nümayəndələrinə "Tədbir görün! Moskvaya müraciət edin!" deyə səsləndiyi iclasa qayıdaraq demək istəyirəm ki, bəli, Ziya Bünyadov qorxmaz insan, parlaq şəxsiyyət, gözəl tarixçi idi.



Lakin o, siyasətçi deyildi, yuxarıda göstərdiyim sözlər də bunu təsdiq edir.

Amma Moskvanın Qafqazla bağlı, deyək ki, artıq iki yüzillik boyu "erməni-rus siyasəti" yürütdüyü bir zaman Bakı nə edə bilərdi ki?! Özü də bu siyasət çar Rusiyası dövründə də, Sovet Hakimiyyəti vaxtında da, aşkar və ya gizli şəkildə, ermənilərə sədəqə kimi həyata keçirilirdi!

Anar özünün "Azərbaycançılıq haqqında düşüncə" proqram essesində xüsusi vurğu ilə Rusiyanın liliputun (cırtdanın) yedəyindədir" – yazır.

"Ulduzlu Ziya" haqqında məqaləsini (Azərbaycan dilində ziya "işıq" deməkdir) Anar belə qurtarır: "Bizim təskinliyimiz ondadır ki, tarixçi Ziya özü tarixin sərvəti oldu. Hər bir xalqın tarixində Bünyadov kimi insanların adları ən parlaq səhifələrə yazılır".

## Üçüncü hissə

# KÖNÜL MƏSKƏNİ

*Azərbaycanın dünya xəritəsində və mənim qəlbimdəki yeri barədə nə deyə bilərəm? Yox, hal – hazırda mən bu barədə, bugünkü Azərbaycan haqqında indi bildiklərim və xatirələrim əsasında bir əsər yazmağa hələ hazır deyiləm – son illər ərzində hər şey elə dəyişib ki! Əgər sponsor taparamsa və ölkəni gəzib, baş vermiş bütün dəyişiklikləri öz gözlərimlə görərəmsə, bu zaman keçmişlərdən nələri isə xatırlaramsa, bax, onda, inşallah! – yazaram; yol qeydləri və diyarşünaslıq oçerkləri şəklində – özü də bunlar kitabımın artıq birinci hissəsində söylədiklərimin, bir növ, davamı, regionçuluq barədə düşüncələrim olar ( bu arzumu, indi dəbdə olan sözlə desək, layihəmi, mən, sadəcə - "Ölkəm" adlandırardım.*

*Hələlik isə...Hələlik isə, mən Azərbaycanımıza, onun tarixinə və mədəniyyətinə ümumi bir nəzət salmaqla kifayətlənəcəyəm. Diqqətinizə təqdim edəcəyim bu lövhələrin əsasında, vaxtilə LUKOYL şirkəti tərəfindən rus dilində, gözəl illüstrasiyalarla nəfis şəkildə nəşr olunmuş kitabındakı ədəbi mətnlər durur.*

### Epiqraf əvəzi

"Xəritələrdə göstərilən Azərbaycan VI əsrdən başlayaraq, Şimali və Cənubi Azərbaycan ərazilərinə şamil edilə bilər. Məlum olduğu kimi, bu anlayış eramıza qədər IV-III əsrlərdə Atropatent dövrünün əsasını qoymuş orta fars "Aturpatakan" sözünə gedib çıxır. Sasani padşahı Xosrov Ənuşirəvan Abdurbadaqan adlandırılan Qafqaz qrupunu yaratdı ki, buraya başqa ölkələr sırasında Şimali Azərbaycan-Albaniya-



Cənubi Azərbaycan - Aturpatakan da daxil idi ... Xilafət dövründə və sonralar, yəni VIII əsrdən başlayaraq, Azərbaycan dedikdə, eyni zamanda Şimali və Cənubi Azərbaycan nəzərdə tutulurdu ... XII-XIII əsrlərdə Azərbaycan coğrafi anlayış olmaqla yanaşı, siyasi məna da kəsb etdi - Azərbaycan Atabəylər dövləti. XIV-XVI əsrlərdə artıq Azərbaycan coğrafi anlayışa çevrildi və s."

*(Ziya Bünyadovun "Azərbaycanın tarixi coğrafiyası" kitabından)*

"Minillik dövr ərzində (VI-XVI əsrlərdə) qədim Şirvanşah hökmdarları sülaləsinin hömranlıq etdiyi Şirvan vilayətində müxtəlif tayfalar məskunlaşıblar ... Qafqaz və İran mənşəli toponimlərlə yanaşı, Şirvanda mənşəyi türk dilləri əsasında təyin edilən yer adalrı da mövcuddur... Toponimiyada türk dillərinin mövcudluğu ilkin orta əsrlərdə - III-IV əsrlərə (hunlar) aid olan dövrdə və VI-VIII əsrlərdə (sabirlər, xəzərlər, peçeneqlər və s.)...ölkənin daha intensiv türkləşməsi prosesini göstərir. Azərbaycanda məskunlaşan ərəb tayfaları yerli əhali ilə qaynayıb - qarışırlar. Onlar öz dillərini qoruyub saxlaya bilməyiblər, izləri də yalnız toponimiyada və yerli leksikonda qalıb. Bu ondan xəbər verir ki, Azərbaycanın ərəblər tərəfindən fəth edildiyi dövrdə türk və İran elementləri güclü olub."

*(Sara Aşurbəylinin "Şirvanşahlar dövləti" kitabından)*

"...Nadir şahın ölümündən sonra (1747-ci il-E.A.) ümumi qarışıqlıq və hərc-mərclik başladı və bunun nəticəsində Şirvan İrandan həmişəlik ayrıldı. O zaman burada ayrıca xanlıqlar yaranmağa başladı, onların rəhbərləri həmin xanlıqları irsən və müstəqil idarə etməyə başladılar. Xanlıqlar müstəqil dövlətlərə çevrildilər.

...1228-ci il oktyabrın 12-də (1813-cü il) sülh sazişi imzalandı. İran Qarabağ, Gəncə, Talış, Şəki, Şirvan, Bakı,

Quba, Dərbənd, bütün Dağıstan xanlığını, Gürcüstanı və başqa həmsərhəd əyalətləri, onlara olan bütün iddialarından həmişəlik olaraq imtina edərək, Rusiyanın ərazisi kimi tanıdı. Öz növbəsində, Rusiya imperatoru şahın özünə varis təyin etmək istədiyi oğlunun hüquqlarını dəstəkləməyi öhdəsinə götürdü".

*(A.A.Bakıxanovun "Gülüstani-İrəm" kitabından)*

"Fransa Respublikasının Konstantinopoldakı nümayəndəsi zati-aliləri cənab[14]...

...Nisbətən yaxın vaxtlarda müstəqillik qazanmış Azərbaycan türkləri öz təbii irqi keyfiyyətlərini - cəsurluqlarını, dürüstlüklərini, əməyə sevgilərini, başqa xalqlara qarşı dözümlü olmalarını qoruyub saxlaya bildilər. Heç zaman da müstəqil ictimai – siyasi həyat barədə düşünməkdən və ona can atmaqdan qalmadılar...

Zati-alinizin iltifatlı diqqətinə göstərilən memorandumu təqdim edərək, mən Fransa Respublikasının Hökumətinin öz yüksək nüfuzlu səsi ilə Azərbaycan Respublikasının müstəqilliyini tanıyacağına ümid edirəm..."

*(Azərbaycan Respublikasının Fövqəladə Səlahiyyətli naziri A.M.Topçubaşovun memorandumundan)*

"Şübhəsiz ki, XX yüzillikdə müstəqil Azərbaycan dövlətinin yaradılması Azərbaycan xalqının ən böyük nailiyyətidir. Öz müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövləti qurmaq üçün möhkəm ƏSAS yarada bildi ( seçdirmə bizimdir – E.A.[15]".

*(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni 2001- ci ilin, yeni əsrin və yeni minilliyin başlanması münasibəti ilə Azərbaycan xalqına müraciətindən)*

---

[14] Belə məktub başqa ölkələrin nümayəndələrinə də ünvanlanırdı
[15]Məhz -ƏSASI: belə dövlətin «binası»nın özü isə hələ qurulur ... - EA



## "Odlar ölkəsi"

Azərbaycan adının mənşəyi ilə bağlı variantlar çoxdur. Türkcə "od" və "ər" - (azər sözünə çevrilməklə), yaxud "azər"dən qədim fars dilində "atəş" sözünə uyğun gələn "azər" kimi, qədim türk dilindəki adlara, habelə Kiçik Midiya[16] hökmdarı "Atropat"ın adının yarandığı "atəşi qoruyan" tituluna qədər həqiqətən variantlar çoxdur.

Lakin Azərbaycan əsrlər boyu poetik şəkildə "odlar ölkəsi" adlandırılıb. Ehtimal olunur ki, məhz Abşerondakı təbii odlar burada doğulmuş Zərdüştün təlimini həyata keçirməyə rəvac verib,

Onun təlimi bu torpaqda yaranıb və buradan da bir çox ölkələrə, o cümlədən Hindistana[17] qədər yayılıb.

(Amma Makedoniyalı İsgəndərin 12 min inək dərisi üzərində yazılmış "Avesta"nın mətnini yandırmağı əmr etməsi də sadəlövhlük deyildi. Bu, elə Atəşin özünü odda yandırmaq demək idi!)

Bəli, Azərbaycan "odlar ölkəsidir". Biz bu ada, bir növ, öyrəşmişik. Amma "Can" - bu yalnız yer bildirən şəkilçi deyil, həm də "ürək" deməkdir. Ölkənin adını "atəşi qoruyanların ölkəsi" kimi mənalandırmaq mümkünsə, onda belə də demək olar: Azərbaycan - ATƏŞİ QORUYANIN ÜRƏYİDİR.

---

[16] Professor Firidun Cəlilov
[17] Zərdüştün anadan olduğu yerin əsas Od məbədinin yerləşdiyi Cənubi Azərbaycanda olduğu hesab edilir. Səyahətçilərdən birinin yazdığına görə, yeddi yüz ildir alovlanır və orada qətiyyən kül yoxdur". İkinci yer isə Orta Asiyanın cənubdur ki, bu da Zərdüştün öz təlimini yaymaq üçün oraya səyahət etməsi ehtimalı ilə bağlıdır

Deyəcəklər ki, insan qəlbi torpaqda hansısa bir yerə bağlana bilməz, o azaddır və bir Allaha tabedir. Amma bizim dediyimiz halda, tamamilə izah edilə bilir: burada Ilahi oda sitayiş edirdilər və Bakı şəhərinin adı, burada qədim zamanlarda oda xidmət edən baq tayfasının adı kimi "Boq"un adı ilə bağlıdır (bu, sözlərin ahəngdarlığında görünür!).

Bu odu siz Abşeron yarımadasının mərkəzində, Məhəmmədi kəndinin yaxınlığında indi də görə bilərsiniz. Həmin yer Yanarqaya yaxud Yanardağ adlanır. Aydındır ki, burada nə vaxtsa dağ ucalıb, amansız cənub günəşi və küləyinin (Bakını "Küləklər şəhəri" də adlandırırlar) təsiri altında ondan indi həmin alçaq qayalıq təpə qalıb. Bu təpənin ətəyi alov dilləri ilə bəzənib.Torpağın altından çıxan bu alov dilimlərini görmək adama ilk baxışda qəribə gəlir. Lakin çaylar "elə-belə" axır, ağaclar "elə-belə" böyüyür, quşlar "elə-belə" oxuyur. Elə-belə və bütün bunların başqa cür izahı yoxdur. Allah belə yaradıb!

Daha sonra odun müstəqil həyatından heyranlıq hissi gəlir. O üfürülüb söndürülə bilər. Xeyr, xeyr, bunu qəzəbli Bakı küləyi - "xəzri" edir, amma alov dilimləri yenidən şölələnir. Küləyin qayalara və daşlara dəyib yaratdığı qığılcımlar onun alışması üçün kifayətdir ... Və minilliklər boyu torpağın altından çıxan, neftin qaçılmaz peyki metan burada beləcə yanır.

...Təsəvvür edin bir, dünyanın yarısını keçib gəlmiş Makedoniyalı İsgəndərin legionerləri təbiətin bu möcüzəsi qarşısında təəccüblərindən necə donub qalıblar. Yaxınlıqda otlayan qoyunu tutub, başını qılıncla üzür, kiminsə haçansa qaladığı bu "ocaq"da qızardırlar. Daha sonra burada olduqlarını göstərən yazı qoyurlar. Amma Abşeronun başqa yerində, bizim irəlidə söz açacağımız Qobustanda. Bu yazılar bizim günümüzə qədər gəlib çatıb...



**Allahın ovucunda**

Hər kəs öz diyarı ilə fəxr edir, lakin Allah heç də hər kəsə ən yaxşı torpaq payı əta etmir. Əbədi buzlaq və sükut dünyası var - Arktika. Əbədi isti və meşələr dünyası da var- tropiklər. Və hərçənd ki, bu və başqa dünyalar su ilə zəngindir, birincidə buza dönüb, ikincidə səmadan leysan yağışlarıyla tökülür, bu su bolluğunda sevinc yoxdur. Nə ağlığı ilə insanı kor edən, sonsuzluğu ilə zülm edən buzlarda, nə də yüzlərlə kilometr uzanan keçilməz, boğucu tropik meşədə.

Təbiət böyük yaradandır, amma onun emalatxanası - təbii fəlakətlər, hadisələrlə doludur... Etiraf edək ki, Azərbaycanın bu sarıdan bəxti gətirib!

Dünyada mövcud olan iqlim zonalarından Azərbaycanda, təsəvvür edin, demək olar ki, hamısı təmsil olunub, yalnız... Yalnız tropiklərdən və Arktikadan başqa. Bunun da rəmzi mənası var! Burada nə lazımdırsa o var, ölçüdən kənar heç nə yoxdur. Təbiətin israfçılığından və hədsiz bədxərcliyindən başqa hər şey var.

Bu rəngarəng və səxavətli müxtəlifliyi, harmoniyanı biz milli taxta vitraj olan və bütün detalların heç bir mismar olmadan qüsursuz uyğunlaşdırıldığı "şəbəkə"də və ya hər naxış və rəngin öz yerində və qədərində olduğu Azərbaycan xalçasında görürük...

Azərbaycanı üç tərəfdən dağlar əhatə edir: Böyük və Kiçik Qafqaz, Qarabağ dağları, Talış dağları. Dördüncü tərəfdən onu Xəzər qucaqlayır.

Landşaft müxitəlifliyi, relyefin "çoxqatlılığı" üstəgəl dənizin nəfəsi, Azərbaycanın təbii iqlim fenomenini yaradır.

Bunlar həm də sürülərin otladığı Alp çəmənləri olan dağlardır. Bunlar eləcə də qədim meşələrdir, məhsuldar

düzənlər, ceyran – cüyürün səkdiyi çöllərdir. Bunlar həm də çay becərilən, nar, püstə, xurma ilə zəngin subtropiklərdir. Bunlar coşğun dağ çayları, təmiz bulaqlar və göllərdir, onların arasında şahanə ədasıyla Göy-Göl fərqlənir. Nəhayət, isti dəniz, dünyanın ən iri gölü,qapalı su hövzəsi, ölçülərinə görə dəniz adlandırılan Xəzər!

...Çaya əyilib ovucuna su alan ilk yolçudan da əvvəl, biçindən sonra göz oxşayan sarılığından, isti ətrindən keçə bilməyib, bir ovuc buğdanı ağzına atmaqdan özünü saxlaya bilməyən əkinçidən, yaxud fontan vuranda "yerin yağını" sevinclə ovuclayan neftçidən milyonlarla il əvvəl, Yaradan bu torpağı soyuq küləklərdən və yaxıcı istidən, isti dənizin dalğalarının yuyub aparmasından qoyuyacaq dağlarla əhatə olunmuş bu topraq parçasını əlinə alaraq, bu torpağa həyat verib. Azərbaycan belə yaranıb.

Allahın ovucunda!

Azərbaycan xəritədə öz cizgiləri ilə üzü Xəzərə yönəlmiş, bir qanadını şimala, Samur çayının sahillərinə, o biri qanadını Muğan və Talış dağlarına gərmiş quşu - qartalı xatırladır. Lakin əgər əks tərəfdən baxsaq, onda Azərbaycan, üzü dağlara, bir pəncəsini Böyük Qafqazın ətəklərinə, o biri pəncəsi Kiçik Qafqaza və Naxçıvana söykənmiş hansısa qədim heyvanı xatırladır!

**Gəmidən yerə…**

"Allah onlara xeyir-dua verdi və Allah onlara dedi:
Doğub - törəyin və çoxalın
yeri doldurub, ona sahib olun …"
(Tövrat, I, 28)

...Bulud zirvələri gizlədərək dağlara endi. Şiş ucları buludları deşməsin deyə, onları ehtiyatla, itaətkarcasına



qucdu... Əgər sizə belə anlarda dağ zirvəsində olmaq qismət olarsa, onda siz dumanın canına işləmiş rütubət aşağı necə sürüşdüyünü görəcəksiniz və sizə elə gələcək ki, artıq ayağınızın altındadır, siz zirvədə buxarlanırsınız, amma topa – topa buludlar yavaş-yavaş enib torpağı örtür...

Və istər-istəməz bir fikir yaranır: Daşqından qurtulmuş torpağın çox keçmədən quruması, qızmar istidən dondurucu soyuğa sərt keçid, yerli iqlim fərqləri - bütün bunlar bir qayıdış astanasında insanları yeni Adi həyatda sınaqdan keçirmək üçün deyilmi?

Naxçıvanda - Gəmiqaya deyilən yerdəyik. Onun belə adlandırılması təsadüfi deyil. Rəvayətlərə görə, Nuhun gəmisi əvvəlcə burada dayanıb, daha sonra Ararat dağına (Ağrı dağına – E.A.) üzüb, sonra isə … Sonra orada yan ala bilməyib, geri dönüb. Burada, bu torpaqda bəşər nəslinin yenidən yaranmasından ötrü.

Əslində, Əhdi-Ətiqə əsasən, Nuhun gəmisi Ararat dağında deyil, "Ararat dağlarında" dayanıb... Yəni, belə çıxır ki, dağ TƏK DEYİL! Eyni zamanda, Daşqından xilas olmuş Nuh haqqında Bibliyadan çox - çox əvvəl şumerlər danışıblar. Müqəddəs Avestada da heyvanların, balıqların və digər canlıların yarandığı yerin adı göstərilib və bu söz - "Azərbaycan" sözünə bənzəyir.

"Naxçıvan" sözünün elə "Nuh" sözündən yaranması ehtimalı var. Və burada yerli sakinlərin Nuhun basdırıldığı yer adlandırdıqları bir yer var. Bu barədə hələ Ptolemey, İosif Flavi də yazıb …

Artıq yerli sakinlər və yerli diyarşünaslarla yanaşı, bəzi alimlər də bunu istisna etmirlər.

Amma alimlər üçün əsas və həlledici dəlil yerli qayaüstü təsvirlərdir.

Tarixi eramızdan əvvəl I-III minilliklərə gedib çıxan, Ağrı dağındakı yazılarla təəccüblü dərəcədə oxşar olan insanların və heyvanların, ayin səhnələri və ov rəqslərinin, müxtəlif işarələrin və yazıların qayaüstü şəkilləri fərz etməyə əsas verir ki, bəşəriyyətin ulu babası burada yalnız dayanmayıb, həm də Daşqından sonra, burada yaşayıb. Oğulları ilə birlikdə, Tövratda deyildiyi kimi, "onların torpaqlarında ayrı - ayrı xalqlar adalar məskunlaşdı, hər kəs öz dili, öz tayfaları, öz xalqları ilə"...

Bu yerdə bu qədər çox xalq və millətin – türklərin, tatların, ləzgilərin, talışların, kürdlərin və s. tarixən sadəcə yanaşı yaşaması deyil, həm də bir-biri ilə qaynayıb - qarışması bundan irəli gəlmirmi?

Bəli, bu diyarda nə qədər xalq və tayfa qaynayıb - qarışıb, törəyiblər. İndi onlar tamamilə başqa, bəzən Qafqazdan çox - çox uzaqlarda yaşayırlar, amma kökləri ilə onlar buradandırlar!

### ...Yerdən gəmiyə

"Burada ya həyat daşa çevrilib,
Ya da daş həyata çevrilib"

Naxçıvandakı məşhur Gəmiqaya və Qobustan - mənim daş dastanlarımdır!

Abşeron ərazisində yerləşən Qobustan ("qobular ölkəsi") əbəs yerə dövlət qoruğu elan olunmayıb. Burada mezolit dövrü insanının məskənləri, kurqanlar, qədim məzarlar və "ziyarətgahlar" - müqəddəs yerlərin nişanələri var...B.e.ə. VIII minillikdən XIX əsrə qədər arxeologiya və



mədəniyyətin, dinin və incəsənətin unikal xəlitəsi... Tarixin yüz əsri açıq səma altında!

Amma buranın əsas elementləri qaya təsvirləri, həmçinin gəmilərdir. Habelə Tur Heyerdalın qədim səyahətçilərin yolunu təkrarladığı, "Tiqris" kimi qamış gəmilər. Burada əcdadlarımızın dənizlərdə və çaylarda üzmək üçün istifadə etdikləri, üzərinə qarğı dərisi çəkilmiş "qatlama qayıqlar" var: su yolu qurtaranda onlar karkası çıxardır, dəriləri qatlayır və onları çiyinlərinə alıb çöllər və dağlar vasitəsilə - "növbəti suya" qədər piyada gedirdilər...

Və əgər bu gəmilərin qayalarda həkk olunduğu (e.ə.VII minilliyin sonu - VI minilliyin əvvəli!) dövrü qiymətləndirməli olsaq, belə bir nəticəyə gəlmək olar ki, bunlar... Yer kürəsində ən qədim gəmilərdir! Axı, nə vaxtsa dəniz Qobustanda ləpələnib və buradakı qayalar tamamilə yanalma körpüsü – liman ola bilərdi, dünyadakı ilk gəmilər buradan üzməyə gedir və bura qayıdırdılar!

Yəni, bəşəriyyətin patriarxı Gəmiqayada ilk olaraq gəmidən yer kürəsinə ayaq basdısa, onda belə çıxır ki, onun nəsilləri Abşeronun özünə qədər üzərək, ilk yer sakinləri kimi, yenidən burada torpaqdan gəmiyə addımladılar!

Bu versiyanı uzun müddət qəbul etmirdilər, hətta Qobustanın şəkillərinə baxmaq üçün Tur Heyerdal Bakıya gələndə də. Və ilk gəlişindən sonra - Yer kürəsinin müxtəlif guşələrində oxşar petroqliflərin öyrənilməsinə 13 il həsr etdikdən sonra - ikinci gəlişi zamanı məşhur səyyah Qobustan gəmilərinin yaşını təsdiqlədi. Görkəmli norveçli həm də belə bir maraqlı nəticəyə gəldi ki, bəşər sivilizasiyasının mərkəzi Yer kürəsinin heç də hansısa başqa guşəsi yox, məhz Xəzəryanı ərazi olub!

Belə bir nəticəyə qədim dilləri və Hind-Avropa mədəniyyətini öyrənən alimlər -Vyaçeslav Ivanov və T.V.Qamkrelidze də gəlmişlər.

Onlardan əvvəl isə, "Qədim Misir sivilizasiyasının Qafqaz mənşəyi haqqında" Misir tədqiqatçısı professor Flindeks Petri yazmışdı. Bu məruzə qazıntılar zamanı aşkar edilmiş daş silahlar, saxsı məişət əşyaları, eləcə də buğda dəni, bu toxumun şimal növlərinə aid tapıntıları əsasında hazırlanıb. Hətta dahi Hegel də "Yalnız Qafqaz irqində ruhun öz-özü ilə mütləq vəhdətə gəldiyi" barədə yazıb. Nəhayət, misirlilərin özlərinin "Ölülər kitabı"nda "alovlu göl" də daxil olmaqla, Qafqazda (o cümlədən, Bakı) adları azacıq dəyişdirilmiş şəkildə bir çox coğrafi adlara rast gəlmək mümkündür..[18].

Doğrudan da, axı, necə olub ki, vəhşi tayfaların məskunlaşdığı Ərəb yarımadasının ətrafındakı ərazidə eyni zamanda üç böyük sivilizasiya yaranıb? Tur Heyerdal buna belə cavab verdi: bu sivilizasiyaları Xəzərin sahillərindən əvvəlcə cənuba, sonra şimala yüzlərlə və minlərlə kilometr quru və su yolu ilə gəlmiş həmin o gəlmələr yaradıblar.

Bütlərə sitayişə bir çox xalqlarda rast gəlinir. Məsələn, buynuzları ayı xatırladan Öküzü götürək.Hələ şumerlər ona sitayiş edirdilər və hesab edirdilər ki, onların allahı Günəş dənizdə qayıqlarda üzür. Şirvanşahların gerbində də öküz təsvir olunmuşdur, indi biz onu Bakıda, Qala qapıları üstündə, şir təsvirlərinin üstündə görə bilərik.

Qərbdə Caucasian dedikdə təkcə qafqazlılar deyil, həm də nəsə ümumi- avropoid irqi başa düşülür. Bu termini tətbiq edən Fridrix Blumenbax qafqazlıları ağ irqin daha təmiz növü, Qafqazı[19] isə, bəşəriyyətin doğulduğu yer adlandırıb(!).

[18] 1926-cı ilin «Ekran» jurnalı «Elm və texnika » (№41) jurnalına istinadən

[19] Alman alimi bunula yanaşı dəqiqləşdiri ki, söhbət Qafqaz dağ silsiləsinin cənub yamacı arxasında yaşayan xalqlardan gedir. Təsadüfi deyil ki, qədim yunanlar və romalılar təkcə Gürcüstanın



Yüz il əvvəl alman alimi Herhard Ritter Qədin varyaqların nəsilləri olan norveçlilərin Qafqazda yaşadıqlarını söyləmişdir.

"Sahilləri olan xalqlar həmişə sürətlə inkişaf edir və onların dünyanın başqa xalqları ilə əlaqələri genişdir", - rus alimi akademik L.S.Berq yazır.

Nəhayət, Tur Heyerdalın Xəzər fərziyyəsinin təsdiqi island saqalarıdır.

Saqalardan birində deyilir ki, İsveç krallarından biri,onların qədim hökmdarı Odinin ölkəsinə səfər edəcəyini vəd edir və bunun üçün "türklərin ölkəsinə" baş çəkir. Eyni zamanda, saqalarda "qatlama gəmilər" də xatırladılır!

### Abşeronda "Klondayk"

Abşeronda neftin olmasının ilk sübutu Bakının yaxınlığında - Binəqədidə heyvan qəbiristanlığının aşkar olunmasıdır. Neft gölməçəsinin parıltısının cəlb etdiyi heyvanlar su içmək üçün yaxınlaşır və…qatı neftdə batırlar – eynilə Los-Anceles yaxınlığındakı göldə olduğu kimi. Burada hətta qətranda yapışıb qalan və həlak olan heyvanların muzeyi var…

Başqa bir sübut isə odur ki, planetdə mövcud olan palçıq vulkanalrının yarıya qədəri Azərbaycandadır!

Abşeronda artıq e.ə. VII-VI əsrlərdə neft hasil olunurdu. Usta Allahyar Məmməd Nuri isə, 1594-cü ildə Balaxanıda 60 metr dərinliyində quyu qazmışdı. O dövr üçün bu, tarixdə ən dərin quyu olub. Abşeronda hələ XII əsrdə nefti təmizləyə bilmişlər.

şərqini deyil, eləcə də İspaniyanı da İberiya adlandırırdılar, Şotlandiyanın qədim adı isə, alim K.Treverin yazdığı kimi, Albaniya olub

"Odun olmadığından, bakılılar neft hopmuş torpağı yandıraraq, özlərinə yemək hazırlayırdılar", - bunu isə, VIII əsr ərəb tarixçisi yazırdı. "Ondan yeməkdə istifadə etmirdilər, çıraqları yandırırdılar", - Marko Polo məlumat verirdi. Başqa səyyahlar da ağ neftin "daş xəstəliklərində və oynaq ağrıları zamanı" içilməsindən təəccüblə yazırdı. " Döş qəfəsi xəstəlikləri, baş ağrıları, zöhrəvi xəstəliklər və orqanizmin müxtəlif orqanlarında daş olan zaman daxilə qəbul edilərkən fayda gətirdiyindən" danışırdılar...

O zaman nefti daha çox hərbdə qiymətləndirirdilər. O, məşhur "yunan alovu"nu özündə birləşdirir (onu "Midiya odu "da adlandırırdılar). Şərqdə odlu silahın yayıldığı XVI əsrədək neft böyük qüvvə idi. Ona görə də neft mənbələri yüksək qiymətləndirilir və Abşeronun müdafiə və mərasim məqsədlərinə xidmət edən orta əsr qalalarından neftli ərazilərin müdafiəsində də istiffdə olunurdu.

Lakin nefti atəşpərəstlik dini ilə əlaqədar da, bir yanacaq kimi də, təbabətdə də və nəhayət, silah kimi də nə qədər əhəmiyyətli bir sərvət olsa da, yalnız iqtisadi inkişafla əlaqədar daha artıq dərəcədə qiymətə minmişdi və Bakı neftinə tələbat kəskin şəkildə artdı, bütün dünya iqtisadiyyatının taleyində özünü daha qabarıq şəkildə göstərdi.

1823-cü ildə Mosdokta Bakı nefti ilə işləyən dünyada ilk ağ neft zavodu tikildi. 1844-cü ildə mədən idarəsinin məmuru F.Semyonov qazmanın köməyi ilə quyuların dərinləşdirilməsini təklif etdi. Dörd il sonra isə (Pensilvaniyadan 10 il əvvəl), Bakıdakı Bibiheybət yatağında dünyada ilk dərin neft quyusu qazıldı. Dünyada ilk neft emalı zavodu da məşhur kimyaçı Yustus Libixin layihəsi üzrə Suraxanıda



tikildi (bu zavodun bilavasitə atəşpərəstlərin məbədi yaxınlığında tikilməsi də rəmzi bir məna daşıyır).

Ötən əsrin əvvəllərində azərbaycanlı neft sənayeçisi, zərbli qazma qurğusunun ixtiraçısı Murtuza Muxtarovu "yerli Edison" adlandırırdılar. Bu ixtira sayəsində neft daha dərin laylardan hasil olunmağa başlandı.

Qədim "odlar yurdu"nun tarixində yeni dövr başladı.

Həmin dövr - bunu dəqiq göstərmək mümkündür – 1872-ci ildən başladı. Rusiya imperiyasında təhkimçilik hüququnun ləğvindən sonra neftin hasilatdan daha çox daşınması və satışının qayğısına qalırdılar. Neft sahələri hərraca çıxarılırdı. Və bununla da ilk neft bumu başladı; axtarış, qazma, bəhsəbəhs yarandı! Yerli neft sənayeçiləri - Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev və başqalarının quyuları məhz bu yolla fontan vururdu.

Azərbaycanda neftli torpaqların satılması xarici kapitalı da Abşerona cəlb etdi. 1873-cü ildə "Nobel qardaşlarının neft istehsalı şirkəti", 1889-cu ildə Rotşildin Xəzər-Qara Dəniz Cəmiyyəti və onların ardınca başqa şirkətlər də yarandı...

Nəticədə, 1901-ci ildə Bakıda neft hasilatı 576 dəfə artdı!

Bakı həmin dövrdə dünyada hasil olunan bütün neftin yarıdan çoxunu verirdi və haqlı olaraq "dünyanın neft paytaxtına" çevrilmişdi.

Burada ilk dəfə neft kəmərləri, dəmiryol sisternləri, neftdaşıyan gəmilər, yanğınsöndürən maşınlar meydana çıxdı. Qısa vaxt kəsiyndə Bakıda Rusiyada ən iri gəmi şirkəti yarandı, teleqraf açıldı, dəmir yol xətti və şəhər "konka"sı[20]

[20] Atla işləyən rels yolu

çəkildi. Və o illərdə çoxlarının "amerikasayaq" şəhər adlandırdıqları Bakının sürətli iqtisadi artımı ilə dünyanın bir sıra şəhərləri belə ayaqlaşa bilmirdi. Yüz il ərzində onun əhalisi yüz dəfədən çox artdı!

**Beldən kompüterə**

Böyük rus alimi D.İ.Mendeleyev dəfələrlə Bakıya gələrək burada çalışmışdı. O deyirdi: kimyəvi maddələr anbarı olan nefti yandırmaq günahdır, əskinasları yandırmağa bərabərdir! Rus elminin başqa korifeyi İ.M.Qubkinin irəli sürdüyü neftin üzvi mənşəyi nəzəriyyəsi, faydalı qazıntıların axtarışı üçün elmi araşdırmaların tətbiqi də Bakı nefti ilə bağlıdır.

Sonralar Mendeleyevin və Qubkinin işini akademik N.D.Zelinskinin tələbəsi, Azərbaycan Elmlər Akademiyasının prezidenti Yusif Məmmədəliyev davam etdirdi. İkinci Dünya müharibəsi illərində neft emalı ilə bağlı bir çox kəşflər də onun adı ilə bağlıdır.

"Mərmi kimi, benzin də müharibənin vitamini idi. Bakı yanacağı ilə bizim tanklarımız Prussiyaya girirdi, Bakı benzini ilə bizim qəhrəman təyyarəçilərimiz səmada at oynadırdılar, Bakı yanacağı ilə Dneprovsk donanmasının qlisserləri Şpree çayı vasitəsilə Berlinin məhəllələrinə desant çıxarırdı..."- bu sözlər sovet yazıçısı Leonid Sobolevə məxsusdur.

(Faşistlər Qafqaza soxulanda bakılılar üzən neft sisternlərinin yedəklənməsinin maraqlı üsulunu tapdılar. Bu yolla fırtınalı dənizi yarıb keçən neft sisternləri relslər üzərinə qoyulurdu və dolama yolla, artıq Orta Asiya vasitəsilə cəbhəyə göndərilirdi!).



...Bu, dini ayini xatırladırdı. Əlində bel olan insan yol gedir, bəzən addımlarını yavaşıdır, torpağı yoxlayır, öyrənir, sonra yenə də yoluna davam edir. Budur, o, bir də ayaq saxlayır və beli torpağa sancır: "Buradır!" Abşeronun ləpirçi sakinləri yalnız onlara məlum olan əlamətlərə görə ( bu sirr nəsildən - nəslə ötürülürdü!) yeni neft quyusunun yerini belə göstərirdilər. O vaxtlar sadəcə olaraq başqa axtarış üsulları yox idi.

İndi isə, akademik Azad Mirzəcanzadənin yetirmələri neft quyularının qazılması nöqtələrini riyazi metodlarla müəyyən edirlər. "Buradır!", - deyə ulu babalarının etdikləri kimi, quyunun yerini torpaqda, artıq bellə deyil, kompüterin displeyindəki kursorla göstərirlər.

"Xəzər dənizi dünyada qazmaçıların narahat etdikləri ilk dənizdir", - sonralar belə yazırdılar.

Bəli, XIX əsrin sonu və XX əsrin əvvəllərindəki neft bumundan sonra, artıq sovet dövründə Xəzərin dəniz yataqlarının mənimsənilməsi bumu başladı.

(Ümumiyyətlə isə, belə demək olar, bütün XX əsr boyunca neft Bakısının rolu belə qiymətləndirilmişdir:

- Rusiya kapitalizminin xammal əlavəsi;
- inqilabi Rusiyada aclığın və quraqlığın aradan qaldırılması vasitəsi;
- "hamının oğurlamaq istədiyi gözələ" (Qırmızı Rusiyanın xarici işlər naziri Çiçerin) sahib olmaq üstündə dünya dövlətləri arasında nifaqın səbəbkarı;
- sovet sənayesinin və ilk Stalin beşilliklərinin "ocaqxanası";
- İkinci Dünya müharibəsində "qələbənin yanacağı";
- SSRİ-nin yeni regionlarında neft sənayesinin mənşəyinin əməliyyat meydanı: müharibə vaxtı Bakıdan aparılmış avadanlıqla Uralda, Tatarıstanda, Sibirdə yataqlar

kəşf edilmiş, "ikinci Bakı", "üçüncü Bakı" və s. meydana çıxmışdı.

- nəhayət, dənizdə neft hasilatının pioneri. Bu da təkcə iqtisadi deyil, həm də ideoloji əhəmiyyət daşıyırdı (iki dünya sisteminin prioritetləri uğrunda yarış).

Ancaq, yenə də Azərbaycan geoloqlarının və neftçilərin bilavasitə iştirakı ilə Sibirdə neftin kəşfi və böyük neft yataqlarının istismarı respublikaya nə Küveyt sərvəti, nə milli çiçəklənmə, nə sağlamlıq gətirdi (Abşeronun, Bakı körfəzinin və Xəzəryanı ərazilərin ekologiyası pozuldu), nə də Bakıya bu üzücü "neft marafonu" üzündən ciyər dolusu nəfəs almaq imkanı verdi.

Və budur – tarixin yeni durumu. "Əsrin müqaviləsi"nin imzalamasından sonra müasir texnologiyaların tətbiqi ilə Xəzərin dərinliklərinə genişmiqyaslı "hücum" başladı və bunun ardınca da onlarla beynəlxalq saziş gəldi.

Beləliklə, "1-ci Bakı bumu" estafeti "2 – ci buma" verdi. Artıq "3-cü bum" başlamaq üzrədir ( bu dəfə yalnız neft yox, həm də qaz bumu!).

### Karvanlar dənizlə gedir

...Birinci neft bumu keçmişdə qalmış dəniz ənənələrini də dirçəltdi. Belə ki, iyirminci əsrin əvvəllərində Bakı ticarət limanı yük dövriyyəsinə görə Peterburq limanını 10 milyon pud, Odessa limanını 140 milyon pud, Riqa limanını 200 milyon pud (1905-ci ilin rəsmi göstəriciləri) üstələyirdi.

Daha doğrusu, dünya okeanına çıxışı olan Baltik və Qara dəniz sahillərində deyil, qapalı su höfzəsi olan Xəzərin sahilində yerləşən Bakı Rusiyanın ən iri limanı idi!

O dövrün qəzetləri yazırdı:"Gündüzlər sahil qarışqa yuvasına çevrilirdi. Çoxsaylı gəmilər limandan uzaqda



dənizə sancılmış iynələr kimi dənizə çıxmaq üçün növbə gözləyirdilər..."

Neft? Bəli, əlbəttə, neft. Və yalnız neft yox. Həştərxandan və Bakıdan sərnişinlər və yüklər dəniz yolu ilə İrana, Orta Asiyaya, daha sonra Hindistana və Çinə çatdırılırdı....

Nəticədə isə, artıq sovet dövründə Xəzərdə Həştərxanla Bakı arasında rol bölgüsü vardı. Həştərxanın payına balıq düşmüşdü. Orada balıqçılıq üzrə Hövzə İdarəsi, süni balıqyetişdirmə və balıqların müdafiəsi, elmi- tədqiqat institutları ( o cümlədən dünyada yeganə olan nərə balığı təsərrüfatı institutu) yerləşirdi. Neft və gəmiçiliksə, Bakının payına düşmüşdü – dənizdə neft və qaz hasilatı Birliyi, eləcə də Xəzər Gəmiçiliyi və s....

SSRİ-nin süqutundan sonra da neft və gəmiçiliyin prioritetləri Bakının tərəfində qaldı. Xəzərin mərkəzində yerləşən, Xəzərin ən yaxşı limanı olan, SSRİ-də Bakı-Krasnovodsk (Türkmənbaşı) dəniz bərəsinə malik olan Bakı bu gün də "gəmiçiliyin paytaxtı" olaraq qalır.

TRACEKA nəqliyyat dəhlizi təkcə keçmiş SSRİ ölkələrində dəmir yolu və avtomobil nəqliyyatının inkişafına təvac verməyib. Ona artıq İngiltərədən Yaponiyayadək onlarla dövlət qoşulub. Xəzər ortadadır. Bu, nə vaxtsa Xəzər dənizini dolanan Böyük İpək yolu olub. İndi bu yol Xəzərin başına dolanmır, bərələr vasitəsilə düz keçir.

...Bəli, Böyük İpək yolu karvanları dənizlə gedir ... Qədim insanların "dünyanın axırı"nın başlanğıc yeri kimi gördükləri, sirli Xəzərin ilk etibarlı xəritəsi yalnız XVII əsrdə, I Pyotr dövründə çəkilib. Bu gün isə, Xəzər artıq "mədəni dənizlər" sırasına daxil olub.

## Həm Asiya, həm Avropa

İki nəqliyyat arteriyası – Şimal - Cənub və Qərb-Şərq - əsrlər boyu bu torpaqdan keçərək Avrasiyanın hüdudlarını birləşdirir. XIII əsrdə italiyalı tacir Marko Polo öz səyahəti ilə Venesiya və Pekini "birləşdirib", iki əsr sonra isə, rus taciri Afanasi Nikitin "üç dəniz arxasına səyahət"ində Bakıya səfər edib və sonra Bakıdan Hindistana gedib.

Bu gün miqyaslar dəfələrlə böyüyüb, amma dünyaları və mədəniyyətləri, xalqları və ölkələri birləşdirən Azərbaycanın nəqliyyat arteriyalarının möhkəmliyi və etibarlılığı dəyişməz qalıb.

Ümumiyyətlə, Cənubi Qafqazı Əsas Qafqaz dağ silsiləsinin əbədi qarları kimi başı səmalara qədər ucalan ağsaqqala bənzətmək olar. Yəqin, qədim yunanlar təsadüfən qızıl qoyun yununu məhz Kolxidada axtarmırdılar, eynilə qədim hinduların Allaha sitayiş yeri əbəs yerə burda - əbədi odlar diyarı Abşeronda deyilmiş.

Burada sanki daimi rasionallığa, işgüzarlığa, xeyirxahlıqlara cəhd edən Avropa ilə dünyanın, eləcə də özünün dərkinə, mənəvi dəyərlərə, bütün aliliklərə, ruhaniliyə nail olmaq meyli ilə Asiya görüşür ...

Mübadilə kimi heç nə belə zənginləşdirmir. Azərbaycanca "ticarət" sözü - alver hərfi tərcümədə "al-ver" deməkdir. Və ya məşhur "tovariş" sözünü götürək; o türkcə "davar-iş" sözündən yaranıb: "davar" –xırda buynuzlu mal-qara, maldır, amma "iş" – işdir. Bazara satış üçün ümumi sürünün birlikdə aparılmasını belə adlandırırdılar. Uzun və çətin yolun keçilməsini nəzərdə tutan məşğuliyyət, deməli, həm də etibarlı yoldaş, tərəfdaş deməkdir ...



Və bu kooperasiya, canlı əlaqə, qarşılıqlı etibar, bacarıq, öz malını göstərmək və başqasının malını üstünlüyünə görə qiymətləndirmək uğurun əsasıdır.

Bəli, dünya xəritəsində Azərbaycanın transkontinental mövqeyi ona həmişə həm Qərbə, həm də Şərqə baxmağa imkan verib və bu gün də verir. Hər iki istiqaməti yırtıcı görüş dairəsində saxlayan, bəzi gerblərdəki ikibaşlı qartal kimi yuxarıdan aşağı yox, imperiya ambisiyaları olmadan və təbii. Təbiətdəki kimi təbii : iki əl, iki qanad.

## Qartal uçuşu yüksəkliyindən

Qərbə gedən yolun üzərindəki Ağsu aşırımı. Dağ dolayları yuxarı burulur və budur - aşırımın ən yüksək nöqtəsi. Sonra qamətli Ağsu qovaqlarına doğru qəliz və sərt eniş.

Maşından düşürük. Yoxuşun son metrlərini piyada qalxırıq, yarğanın qırağındakı köşkə daxil oluruq. Valehedici mənzərədir! Aşağıdakı vadilər görünmür, dumana bürünüb. Lakin ölkənin mərkəzini, sonra isə cənub hissəsini təsəvvür etmək olar. Şirvan düzənliyi, Kür - Araz çayları arasındakı Mil düzü. Orada, Arazın o biri üzündə isə, artıq İranın ərazisidir. Və yenə dağlar – ora artıq Cənubi Azərbaycandır...

Belə hesab edin ki, Böyük Qafqazın bu "baxış bucağından" bütün Azərbaycana mənzərə açılır. Və Azərbaycanın qanadlarını geniş açaraq uçan qartala bənzədən poetik müqayisəni yada salaraq, yazımızı qartal uçuşu yüksəkliyindən bu mənzərə ilə bitiririk.

*Xəritəyə baxıram.*
*Və görürəm:*

*nəhəng quş,*
*öz qanadlarını gərib*
*Xəzərin üzəriylə*
*uçub gedir*
*Azərbaycan görünür...*
*O şahindir. Dimdiyi dalğalarda,*
*qanadları göydə ...*
*(Rəsul Rza)*

Azərbaycanı göyə qalxmaqda olan təyyarə ilə də müqayisə etmək olar!

Yalnız qədim dövrün Nizami Gəncəvi kimi dahiləri deyil, həm də böyük fizik Landau, dahi kəşfiyyatçı Zorge, böyük musiqiçi Rastropoviç, böyük müğənni Maqomayev, SSRİ-də kosmik uçuşların təşkilatçısı Kərim Kərimov, hazırda Amerikada yaşayan dünya şöhrətli alim Lütfi Zadə - onların hamısı, bizim digər görkəmli müasirlərimiz kimi, bu torpaqda doğulublar. "Odlar yurdu" onlardan hər biri üçün nə vaxtsa onların ürəyinin atəşinin yandığı yerdir...

***

Beləliklə, Azərbaycan haqqında nə demək olar?

Azərbaycan bütöv bir dünyadır. Bir daha təkrar edirəm ki, məsələ yalnız ölkənin Şərqlə Qərb, Şimalla Cənub arasında yerləşməsində, yəni coğrafi mövqeyində deyil. Məsələ ondadır ki; "Azərbaycan - günəşli diyar" və ya "Bakı - küləklər şəhəri" tipli bütün stereotiplər məhduddur.

Əfsanəyə görə, hökmdar öz adamlarını dünyanın müxtəlif yerlərinə harada necə iqlimin olduğunu öyrənməyə göndərir. Bakıya göndərdiyi adamlar hamıdan tez qayıdır. "Hökmdarım, mənim belə yüyrək olmağımdan qəzəblənmə. Birinci



gün soyuq idi, hətta qar yağdı, ikinci gün külək əsdi və buludları qovdu. Üçüncü gün gün çıxdı və elə isti oldu ki, mən isti geyimimi çıxarıb atdım. Amma çox nahaq, çünki dördüncü gün payızdakı kimi soyuq külək əsdi və məni zökəm tutdu". Beləliklə, dörd gün ərzində ilin dörd fəsli dövr etdi!

Azərbaycan:

- həmçinin əbədi qarla örtülmüş Şahdağ və Bazardüzü dağları, aşağıda Alp çəmənləridir. Buradakı otlaqlar yalnız Azərbaycanın örüş yerləri deyildi, qonşu respublikalardan da sürülər gətirilirdi, bir sözlə, Teymurləngin varisləri Azərbaycanla bağlı aralarında ən çox ona görə mübahisə edir, razılığa gələ bilmirdilər ki, - bütün böyük Monqol imperiyasında ən yaxşı otlaqları burada idi...
- dağların ətəklərində və Kür qırağında, həm də dəmir ağac kimi nadir ağacların bitdiyi çox qədim meşələr...
- düzənliklər və ovalıqlar, çöllər, yarımsəhralar və səhralar, dünyanın ən yaxşı çaylarından heç də geri qalmayan çayın becərildiyi quraq və rütubətli subtropiklər, nar, püstə, xurma, əncir, zeytun, zəfəran - ekzotik cənub meyvələri...
- çaylar. suvarma və enerji üçün Kür SES-ə su verən bol sulu, Kür və Araz çayları, dağ çayları və büllur bulaqlar.
- Çimərlik mövsümü maydan oktyabradək davam edən Xəzər - ipək sulu isti dəniz. Müəmmalar dənizidir. Sirlərindən biri də - Xəzər suitiləri ilə Şimal dənizi suitilərinin oxşarlığıdır. İkinci, adının dəyişməsi cəhətdən rekordçudur (Xəzərin təqribən 70 adı var!): tarix boyu onun sahillərində nə qədər xalq yaşayıbsa, bir o qədər də adı olub; azərbaycanlılar onu Xəzər adlandırırlar.

Aydın günəşli günlərin sayına görə Xəzər kurortları Qara dəniz sahilindəki kurortlardan üstündür; hələ Baltik dənizinin kurortlarını demirəm! Xəzərin suyunun tərkibi yod və bromla

zəngindir, bu da onun müalicəvi əhəmiyyət daşımasından xəbər verir; üstəgəl - çimərliklərindəki narın qızılı qumu (kimsə onu qum saatının qumuyla müqayisə edib!). Unikal müalicə neftindən danışmamaq mümkün deyil. Onun bazasında müalicəvi Naftalan kurortu işləyir. Müalicəvi xüsusiyyətə malik palçıqlar (palçıq vulkanlarının sayına görə Azərbaycan dünyada birinci yeri tutur). Azərbaycanda zəngin mineral su ehtiyatları da var; "Badamlı", "Sirab", "İstisu"... müalicə xüsusiyyətlərinə görə Karlovı Varı sularıyla ayaqlaşır (bilmək olmaz, nə vaxtsa onların da şöhrəti Bakının neft bumu kimi gurlaya bilər!)

Bəli, budur Azərbaycan:

- miniatür Yer kürəsi: burada on bir iqlim tipindən doqquzu təmsil olunur;
- saysız-hesabsız yeraltı sərvətlər. Yalnız neft deyil, həm də dəmir filizi (Daşkəsən), duz (Naxçıvan), qızıl (Gədəbəy) və s.;
- bəşər sivilizasiyasının beşiyi; Azıx mağarasında tapılmış insan izləri - Yer kürəsinin ilk insan məskəni;
- gəmiqayırmanın beşiyi; Qobustan qayalarında planetin ən qədim gəmi təsvirləri;
- zərdüştliyin vətəni, daha sonra isə Qafqazda xristianlığın və islamın ilk ocağı;
- türk xalqlarının qədim dastanı olan "Kitabi - Dədə Qorqud"un son olaraq tamamlandığı yer;
- Qafqazın ilk federativ dövləti - 26 alban tayfasının ittifaqı (Qafqaz Albaniyası);
- Şərqdə ilk demokratiya – Azərbaycan Demokratik Respublikası;
- Şərqdə ilk dəfə olaraq kapitalist inkişaf yoluna çıxmış ölkə (Bakı neft bumu);
- müsəlman dünyasında ilk Avropa teatrı, milli teatr və operetta;



- Avropada və Asiyada ilk neft institutu;
- Şərqdə "fransız mətbəxi";
- uzun ömürlülük üzrə çempion, eyni zamanda ən "gənc ölkə"lərdən biri[21]
- unikal müalicəvi nefti (Naftalan), başqa müalicəvi palçıqlar- dünyanın palçıq vulkanlarının təxminən yarısı Azərbaycandadır[22];
- keyfiyyətinə görə Karlovı Varı sularından geri qalmayan "İstisu", "Sirab" mineral suları;
- turizm Klondaykı. Mülayim iqlim və cənub günəşi, qızıl qumlu çimərlikləri. Qafqaz dağkeçisi ovlaqları, alabalıqla bol çaylar

Azərbaycan tarixin qədim abidələri ilə təbiət abidələrinin qonşuluq etdiyi ölkədir. Göy Göl kimi "göllərin mirvarisi" və ya qədim Talış meşələri belələrindəndir. "Qafqazın İsveçrəsi" hesab edilən Qarabağ. Lənkəranın subtropik cənnəti, Qubanın alma bağları, Göyçayın narı, Zaqatala fındığıdır. Şərq koloritinə görə təkrarsız Şəki şəhəri. Qədim Gəncə və gözəl Bakı. Əfsanələr diyarı Naxçıvan...

Bura Azərbaycandır!

[21] Burada əhalinin təxminən yarısı 30 yaşından gəncdir. Bu bir növ fenomendir: burada uşaqlar da çoxdur, hər birinin çox yaşamaq şansı da!

[22] İsveçrənin qeyri-kommersiya təşkilatının təşkil etdiyi "Təbiətin 7 möcüzəsi" beynəlxalq müsabiqəsində Azərbaycanın palçıq vulkanları beşinci yeri tutub

## *SON SÖZ ƏVƏZİ*

*Bugünkü kimi yadımdadır. Hərdən xəstələnib məktəbə getməyəndə, anam mənə "Mənim ilk kitabım", "Məktəblinin kitabxanası" seriyasından kitablar alıb gətirirdi. O günlər yadıma düşəndə təzə mətbəə rənglərinin qoxusunu indi də burnumda hiss eləyirəm. Bu kitablar müharibədən sonrakı uşaqlığımın ən böyük sevinci idi... Bu qəpik - quruşa alınan, ovuc içi boyda olan bu kitabları oxumağın ləzzəti bir ayrı aləm idi. Ələlxüsus, darıxdırıcı dərsliklərin əvəzinə, onları su kimi içirdik. Bəlkə elə SSRİ-nin dünyada ən çox mütaliə edənlər ölkəsi kimi tanınması bununla bağlı idi?!*

*Niyə yazıram bunu? Ona görə ki, bu gün də çətin dövrdə yaşayırıq – sovet ideologiyasının əvəzinə heç nə gəlmədi. Müstəqillikdən, milli düşüncədən daha çox danışırlar, nəinki onunla yaşayırlar. Bizim həyatımız əslində, hər birimizin şəxsi həyatından ibarət olub. Ailə, region (kiçik vətən) yaxınlarımız və həmyerlilərimiz - əslində, bu gün olanımız budur; buna da şükür!*

*İndi bizlərdən hər birimiz – Rusiyada da, Azərbaycanda da, bütün postsovet məkanında da hərə özü üçün yaşayır. Baltik ölkələri, Gürcüstan, qismən də Ukrayna istisna olmaqla.*

*Hər yerdə nə isə ümumi olandan, bizim hamımızı birləşdirən nəyinsə vacibliyindən danışırlar. Yalnız danışırlar... Həmin milli fikir... Nədir bu? Hər yerdə - radioda, televiziyada, internet saytlarında mübahisələr gedir... Demək olar ki, kitab oxumurlar.*

*Halbuki bunun üçün qəlbin, fikrin, zehin hərəkəti, işləməsi lazımdır –mütaliə...lazımdır. Mütaliəyə qayıdış lazımdır... Həm də...*

*Biz kimik, nəyik, keçmişdə necə olmuşuq, indi necəyik... Başlıcası, biz necə ola bilərik...*



***Bəlkə bundan başlayaq, belə deyək, milli kitabxanaların yaradılmasından. Ukraynalılar, ruslar, estonlar və gürcülər, azərbaycanlılar və moldovalılar haqqında kitablar seriyasının nəyi pisdir? Buna bənzər bir təşəbbüs vaxtilə olmuşdu – Bakıda xalçaçılıq üzrə Beynəlxalq simpoziumu ərəfəsində "Azərbaycanın incəsənəti" seriyasından kitabçalar buraxılmışdı... Onlar bu gün də mənim kitab rəfimdədir. Mənə hərdən milli mədəniyyətimizlə bağlı nə isə bir məlumat gərək olanda istifadə edirəm. Bu ənənə internetdə var...***

***Təklif olunan ideya – bu təkcə məlumat, təkcə incəsənətlə məhdudlaşmamalıdır. Azərbaycan və azərbaycanlılar haqqında sözün geniş mənasında ədəbiyyat olmalıdır. Ədəbiyyat daha kütləvidir. Və müasir oxucunun ədəbiyyata tələbi belədir:***

***- qısa;***
***sadə;***
***təsirli.***

***Özünütərif pafosundan uzaq, həm də hərdən özünütənqid də olmalıdır...***

***Bu kitabxana Azərbaycan diasporası üçün də faydalı olardı; Azərbaycanın xaricdə təbliği baxımından. Rusiyada, İsraildə, Avropa ölkələrində, ABŞ-da yaşayan bakılılar üçün. Elə öz Vətənini, yaxşı tanımayan və ya dil baryeri olan hər bir azərbaycanlı üçün də...***

***Deyə bilərlər ki, gecikmisiniz, ən azı iyirmi il gecikmisiniz. Milli mövzu SSRİ-nin süqutundan sonra daha maraqlı idi, indi yox... Mən bu fikirlərlə razı deyiləm. Bir halda ki, maraq ölüb, deməli, elə indi lazımdır. Yenə də deyə bilərlər ki, milli məsələni mövcud hakimiyyətə sərf eləyən tərzdə təqdim edirlər. Hələ bundan da pisi – millətçi qüvvələrə... Razıyam.***

***Milli hissdən məhrum olmaq heç də yaxşı deyil. Amma onun qalıqlarının aqressivliyə çevrilməsi daha pisdir.***

*Uzağa niyə gedirik? Norveçli ekstra – terrorçunu (Ben Ladenin xristian variantı) göstərmək kifayətdir...*

*Milli düşüncəni siyasətdən mümkün qədər uzaq tutmaq və onu maksimum dərəcədə mədəniyyətə yaxınlaşdırmaq. Əslində, bizim təklifimizin mahiyyəti budur və bu ideyanı yalnız yazıçıların, publisistlərin, tarixçi və etnoqrafların birgə səyi ilə reallaşdırmaq mümkündür.*

*Bəli, milli ideyanı beyinlərə güclə yeritmək olmaz, onu tərbiyə etmək lazımdır. Hər şeydən əvvəl öz daxilində.*

*"Vətənin mədəniyyəti"ni, onun inkişafını ümumbəşəri dünya mədəniyyəti fonunda götürmək ən mühüm şərtlərdəndir.*

*Yalnız qəlblərimizi şad edəni yox, həm də təəssüf doğuranı da görməliyik. Günəşdəki ləkələr onun işıq və istiliyindən həzz almağımıza mane olmur ki...*

*Başımızın üstündə parlayan Günəşi duyaraq yaşamaqdan gözəl nə ola bilər?!*



## MÜNDƏRİCAT

*MÜƏLLİFDƏN* ........ *5*

Birinci hissə
DƏDƏMIZ QORQUD ........ 7

*ARXEOLOJİ HAŞİYƏ* ........ *10*
*MƏNƏVİ HAŞİYƏ* ........ *15*
*EPİSTOLYAR HAŞİYƏ* ........ *17*
*COĞRAFİ HAŞİYƏ* ........ *21*
*PUBLİSİSTİK HAŞİYƏ* ........ *25*
*MUSİQİLİ HAŞİYƏ* ........ *28*
*YUMORİSTİK HAŞİYƏ* ........ *32*
*MƏİŞƏT HAŞİYƏSİ* ........ *34*
*REGİONAL HAŞİYƏ* ........ *37*
*SOSİAL HAŞİYƏ* ........ *41*
*MİLLİ HAŞİYƏ* ........ *43*
*AİLƏ HAŞİYƏSİ* ........ *45*
*BAYRAM HAŞİYƏSİ* ........ *47*
*POLEMİK HAŞİYƏ* ........ *49*
*SON VƏ ŞƏXSİ HAŞİYƏ* ........ *53*

İkinci hissə
SIMALARDA YAŞAYAN TARIX ........ 55

*QOŞA YASTIQ* ........ *55*
*BUZ HEYKƏL* ........ *60*
*O HEÇ KƏSİN QARŞISINDA BOYUN ƏYMƏDİ* ........ *65*
Bioqrafik cizgilər ........ 66
Qətl ........ 68
Ehtimallar ........ 69

Üçüncü hissə
KÖNÜL MƏSKƏNİ ........................................ 72

Epiqraf əvəzi ........................................ 72
"Odlar ölkəsi" ........................................ 75
Allahın ovucunda ........................................ 77
Gəmidən torpağa... ........................................ 78
...Yerdən gəmiyə ........................................ 80
Abşeronda "Klondayk" ........................................ 83
Beldən kompüterə ........................................ 86
Karvanlar dənizlə gedir ........................................ 88
Həm Asiya, həm Avropa ........................................ 90
Qartal uçuşu yüksəkliyindən ........................................ 91

*SON SÖZ ƏVƏZİ ........................................ 96*

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan Dövlət Nəşriyyatı
"Azərnəşr"

Bakı-1001, Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3
Tel.: 492-50-15

"Qismət" mətbəəsində çap olunub.